Bu bir xalq qəzetidi

ƏDALƏT

## Vətən müharibəsi iştirakçıları polisə qəbul olundu



**Aprelin 7-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən xəbərə görə, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq Nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 277 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 61 nəfəri Vətən müharibəsinin iştirakçısı olub. Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, ölkəmizin ümumi inkişafına töhfə verdiklərini vurğulayıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

## Zelenski: "Ağır silahlar olmasa, müharibə uzun çəkəcək"



**”Dünya müharibənin daha tez bitməsini istəyirsə, onda bizə silah verməlidir”.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Volodmir Zelenski Hindistan mətbuatına verdiyi açıqlamada deyib.

Onun sözlərinə görə, dünya liderlərinin Ukraynaya silah ötürməməsi müharibənin uzanmasına səbəb ola bilər.

”Təslim olmaq fikrində deyilik, lakin ağır silahlar olmadan bu proses uzun çəkəcək. Biz cavab verəcəyik, texnikanı təmir edəcəklər, ordu quracaqlar, yenidən bizə hücum edəcəklər, müəyyən şəhərləri yenidən işğal edəcəklər. Ona görə də ağır silahlar olmadan müharibə uzunmüddət davam edəcək”, - Zelenski bildirib

## Cozep Borrell: “Azərbaycanla Ermənistan arasında mühüm irəliləyiş əldə olunub”

**Ermənistan və Azərbaycan arasında davamlı sülh, sabit və təhlükəsiz Cənubi Qafqaz istiqamətində işləmək üçün mühüm səylər və irəliləyiş əldə olunub.**

Adalet.az-ın məlumatına görə bunu Avropa İttifaqının (Aİ) Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell ”Twitter ” hesabında bildirib.

**O qeyd edib ki, mövcud geosiyasi kontekstdə münaqişələri diplomatik yolla həll etmək həmişəkindən daha vacibdir.**

## DİN əməliyyat keçirib, bir neçə nəfər saxlanılıb




**Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən üzərlərində və yaşadıqları evlərdə qanunsuz olaraq odlu silah-sursat, eləcə də narkotik vasitələr saxlayan şəxslərə qarşı əməliyyatlar həyata keçirilib. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, daxil olan əməliyyat məlumatı əsasında keçirilən ilk tədbir zamanı narkotik vasitələrin ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilməsini təşkil edən Saatlı rayon sakinləri Yaşar Cəfərov və tanışı Gülnarə Nəsirova saxlanılıblar.**

Onlardan ümumilikdə 10 kiloqrama yaxın yüksək təsiredici narkotik maddə heroin aşkar edilərək götürülüb. Saxlanılan şəxslər narkotik vasitələri satmaq məqsədi ilə ölkə ərazisinə gətirdiklərini bildiriblər.

Baş İdarə əməkdaşları tərəfindən Suraxanı rayonu ərazisində keçirilən daha bir tədbir zamanı üzərində qanunsuz olaraq odlu silah-sursat saxlanmaqda şübhəli bilinən Bəhmən İbrahimov saxlanılıb. Onun üzərində şəxsi axtarış zamanı 1 ədəd ”TT” markalı tapança, 8 ədəd patron və patron darağı aşkar olunub.

Qeyd olunan faktlarla əlaqədar saxlanılanların hər biri barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət is?i bas?lanılıb. Adları sadalanan şəxslər barəsində həbs qətimkan tədbirləri seçilib. Saxlanılanların cinayət əlaqələrinin aşkar edilməsi istiqamətində əməliyyat tədbirləri davam etdirilir.

## Mövlud Çavuşoğlu: "Buça və İrpindən olan görüntülər müzakirələrə kölgə saldı"



**Buça və İrpindən olan görüntülər müzakirələrə və müsbət atmosferə kölgə saldı.**

Adalet.az-ın məlumatına görə bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, Ukraynadakı müharibə ilə bağlı bütün dünyada ciddi narahatlıq var. Müharibənin təsirləri hər yerdə hiss olunur.

”Tərəfdaşlarımızla bu görüşü təşkil etmək vacib idi. Son sessiya bizim Ukraynaya necə kömək edə biləcəyimizi, bu müharibəni necə dayandıra biləcəyimizi müzakirə etmək üçün keçirdiyimiz sessiya idi. Sessiyalardakı bütün həmsöhbətlərimiz və bir çox müttəfiqlərimiz Türkiyənin oynadığı roldan bir daha məmnunluqlarını ifadə etdilər”, - deyə M.Çavuşoğlu əlavə edib.

## BDU-dan Məzahir Pənahovun işdən çıxarılması ilə bağlı açıqlama

**Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun Bakı Dövlət Universitetinin (BDU) Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrasının müdiri vəzifəsindən azad olunmasına dair məlumat həqiqətə uyğun deyil.**

Bunu mətbuata açıqlamasında BDU-nun İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kəmalə Quliyeva deyib.

O bildirib ki, Məzahir Pənahov indi yox, 27 may 2019-cu ildə öz ərizəsi ilə işdən azad olunub.

”Fakültə Elmi Şurasının qərarı ilə bu ilin yanvarın 27-də Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrasının müdiri vəzifəsinə Rəhim Rəhimov seçilib.

Mətbuat orqanlarını istənilən məlumatı yayarkən dəqiqləşdirməyə çağırırıq”,- K.Quliyeva deyib.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 18 (5955) 9 aprel 2022-ci il | Qiyməti 30 qəpik

# Parlamentarilər Şuşada toplaşdı



Bax:səh-2

## PUTİN ÇEÇENLƏRİ BİR-BİRİNƏ QIRDIRIR





**Onsuz da onu yığıblar boğaza. Kadırova da general-leytenant rütbəsi verdi.**

İndi Ukraynada çeçenlər iki yerə bölünüb: kadırovçular və dudayevçilər. Müharibə bir az da davam eləsə yenə Çeçenistan ikiyə bölünəcək: kadırovçular və dudayevçilər.

## ERMƏNİLƏRİN TƏYYARƏSİ VAR Kİ?

***Neçə gündür oxuyuram ki, Ermənistan 4 SU-130 qırıcı təyyarəsini göndərib Ukraynanı bombalamağa. Və gülürəm.***

***Ermənilərin təyyarəsi var ki? Urusun təyyarəsidi, hələ axtarsanız pilot da urusdu.***

***İndi ağa deyir təyyarələri sür Ukraynaya, sürür.***

## Hulusi Akar ukraynalı həmkarı ilə telefonla danışdı



**Türkiyənin milli müdafiə naziri Hulusi Akarla ukraynalı həmkarı Oleksiy Reznikov arasında telefon danışığı olub.**

Adalet.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib.

Bildirilib ki, nazirlər mülki vətəndaşların təxliyəsi barədə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, daha əvvəl H.Akarla rusiyalı həmkarı Sergey Şoyqu arasında telefon danışığı olub.

## TƏBİB-in rəhbərindən koronavirus xəstələri ilə bağlı açıqlama



**”Hazırda xəstəxanada müalicə alan koronavirus xəstələrinin sayı azdır. Bu da reanimasiyada yatan xəstələrin sayına da təsir edir”.**

Adalet.az xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov jurnalistlərə açıqlamasında deyib.

O qeyd edib ki, aktiv koronavirruslu xəstələrdən 50 nəfərinin müalicəsi hazırda xəstəxana şəraitində davam edir: ”Onların vəziyyəti stabilləşməyə doğru gedir və qısa müddətdə onlar evə buraxılacaqlar”.

## CƏHƏNNƏMDƏ MİTİNQİ DAĞITDILAR



***Yazmışdıq Jirinovski ona görə ölə bilmir ki, cəhənnəmdəkilər onu qəbul etmək istəmir, mitinq keçirib qapının ağzını kəsiblər.***

***Şoyqu bir batalyon ordu göndərib, cəhənnəmdəki mitinqi dağıdıb. Ondan sonra Jirinovskiyə deyiblər gələ bilərsən.***

***Allah yanındakılara rəhmət eləsin.***

## CƏNUBİ OSETİYA XOŞBƏXT OLACAQ

**Bu separatçı respublika Rusiyaya birləşmək üçün referendum keçirməyə hazırlaşır. Və yəqin ki, referendumda da birləşmənin lehinə 121,7 faiz səs verəcəklər.**

Və Cənubi Osetiya Rusiyaya birləşəcək, ruslar kimi xoşbəxt, rahat, kefi kök, arağına bol, çaxırına bol yaşayacaq, hətta norveçlilər osetin xalqına həsəd aparacaq.

Görmürsünüz Rusiyanın tərkibindəki Şimali Osetiyanın əli bala batıb?!

Aqil ABBAS

## ƏZRAYILIN ERKƏK-DİŞİLİYİ

Bax: səh.4

## Qarabağ atlarının ilkin satış qiymətləri açıqlandı



**Kənd Təsərrüfatı Nazirliyinə məxsus ”Aqroservis” ASC-nin aprelin 15-də hərraca çıxaracağı Qarabağ atlarının ilkin satış qiymətləri açıqlanıb.**

Şirkətdən verilən məlumata görə, hərraca 3 Qarabağ atı - Sahil, Zilaxar və Sultan çıxarılacaq. Onlara müvafiq olaraq 5 min manat, 7 min manat və 30 min manat qiymət qoyulub. Xatırladaq ki, hərrac Qobustan Heyvandarlıq Nümayiş Kompleksində keçiriləcək. Hərracda həm yerli, həm də xarici təsərrüfat sahibləri, sahibkarlar iştirak edə bilərlər. Kompleksdə Qarabağ atları haqqında canlı və interaktiv məlumatlar veriləcək, atların satışı son qiymətə uyğun rəsmiləşdiriləcək və onlar sığortalanacaq. Qobustan Heyvandarlıq Nümayiş Kompleksinin fəaliyyətinin məqsədi cins damazlıq heyvanlarla yanaşı, yerli cins heyvanların da satışının təşkil edilməsi ilə fermerlərin cins heyvanlara əlçatanlığına nail olunması, yerli damazlıq təsərrüfatların yetişdirdiyi heyvanların satışını stimullaşdırmaqla onların inkişafına təkan vermək, ölkədə heyvanların cins tərkibinin yaxşılaşdırılmasına nail olmaq, damazlıq təsərrüfatlar arasında koordinasiya yaratmaqdır.

## Rusiya Ukraynada dəmiryolu stansiyasına "İsgəndər" atdı



**Rusiya Ukraynanın Kramatorsk şəhərindəki qatar stansiyasına iki raket atıb.**

Bu barədə Ukraynanın Dövlət Dəmir Yolu Şirkəti məlumat yayıb.

İnsan sıxlığının yaşandığı qatar stansiyasına raket atılması nəticəsində 30-dan çox ölü və yüzlərlə yaralı olduğu bildirilir. Ukraynanın şərqindəki qatar stansiyası mülki şəxslərin təxliyəsi üçün istifadə olunur.

Donetsk Regional Hərbi Administrasiyasının rəhbəri Pavlo Kirilenko ”Telegram” hesabında hadisə ilə bağlı fotolar paylaşıb. Onun sözlərinə görə, Rusiya ”İsgəndər” raketlərindən istifadə edib.

## Qardaş bacısını güllələdi



**Sumqayıtda qardaş odlu silahla bacısına xəsarət yetirib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a verilən xəbərə görə, Şəhər Polis İdarəsinin 1-ci Polis Bölməsinə aprelin 7-də Köhnə Corat qəsəbəsində yaşayan M.Mirzəbabazadənin evinin həyətində münaqişə zəminində tüfəngdən açdığı atəşlə bacısı R.Məmmədovaya xəsarət yetirməsi barədə məlumat daxil olub. Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində M.Mirzəbabazadə şübhəli şəxs qismində tutularaq istintaqa təhvil verilib.

Ondan cinayəti törədərkən istifadə etdiyi qeydiyyatda olmayan, nömrəsi silinmiş ”TOZ-34EP” markalı tüfəng götürülüb.

## Şahid: "Nərminin anası dedi ki, rəisdən pul almağa gəlmişəm"




**Tovuz rayonunun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə ittiham olunan İlkin Süleymanovun cinayət işi üzrə məhkəmədə bəzi məqamlar məlum olub.**

Adalet.az xəbər verir ki, Gəncə şəhər Nizami rayon Məhkəməsinin inzibati binasında hakim Dadaş İmanovun sədrliyi ilə keçirilən prosesdə İlkin Süleymanovun əmisi oğlu, sabiq polis əməkdaşı Murad Süleymanov ifadəsində cinayət işi üzrə bir neçə məqama toxunub. Murad Süleymanov deyib ki, Nərminin yanmış meyiti tapılan gün səhər anası Aynurə İsmayılovanı Polis Şöbəsində görüb: ”Yanvarın 6-da şöbənin qarşısında ”razvod” bitdi, içəri keçəndə Aynurə İsmayılovanı gördüm. Soruşanda dedi ki, polis rəisi Şirzad Əsgərovdan pul almağa gəlmişəm”. Şahid onu da bildirib ki, meyit yanması haqda polis rəisinə xəbər verəndən 15 dəqiqə sonra Şirzad Əsgərov rəis müavini Şahlar Cəfərovla hadisə yerinə gəlib: ”Şirzad Əsgərov hadisə yerinə çatan kimi ”Şahlar, odur - Nərmindir”. Murad Süleymanov Nərminin meyiti tapılmazdan əvvəl aparılan axtarışlar barədə də danışıb. Süleymanov xatırladıb ki, hələ meyit tapılmamışdan öncə rəis müavini Cəfərov ondan Dondar Quşçuda tək yaşayan sakinlər haqda soruşub. Proses aprelin 11-də davam etdiriləcək.(apa)

## Uzun illər sonra Şuşada yamac paraşütündən ilk uçuş



**Şuşada son 30 ildə ilk dəfə yamac paraşütündən (paraplan) uçuş həyata keçirilib.**

Bu barədə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov ”Twitter” hesabında məlumat yayıb.

Bildirilib ki, ”2022-ci il Şuşa İli” çərçivəsində baş tutan uçuş şəhərin ən yüksək nöqtələrindən biri sayılan Qızıl Qaya massivindən (Teleqüllə ərazisi) 1 400 metr hündürlükdən yerinə yetirilib.

## GÜNÜN LƏTİFƏSİ

Bir məclisdə bir nəfər boşboğaz yalançı camaata fürsət verməyib elə özü danışır. O qədər deyir ki, hamı təngə gəlir.

Mollanı da yuxu basdığı üçün bir tərəfə çəkilib başlayır əsnəməyə. Axırda məclisdəkilərdən biri bu danışan adamın səsini kəsmək məqsədilə Mollaya deyir:

**- Molla, sənə nə olub? Bu gecə heç ağzını açmırsan...**

Molla bir də əsnəyib deyir:

**- Əksinə. Bu gecə heç mənim ağzım yumulmayıb. Elə əsnəyirəm ki, az qalır çənəm çıxsın.**

## İlham Əliyev Ərdoğana zəng etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Adalet.az xəbər verir ki, bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

Telefon danışığı əsnasında aprelin 6-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında Brüsseldə keçirilmiş üçtərəfli görüş haqda söhbət aparıldı.

Prezident İlham Əliyev görüşün nəticələrini müsbət qiymətləndirdiyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın təqdim etdiyi baza prinsipləri, o cümlədən ərazi bütövlüyünün qarşılıqlı tanınması və ərazi iddialarından imtina edilməsi daxil olmaq şərti ilə sülh müqaviləsinin hazırlanması üzrə Ermənistan və Azərbaycan arasında işçi qrupunun yaradılması, həmçinin sərhədlərin delimitasiyası üzrə kommissiyanın təsis edilməsi barədə əldə olunmuş qərarları qeyd etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan da öz növbəsində əldə olunmuş nəticələrdən məmnunluğunu ifadə etdi.

Söhbət zamanı Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasının, nəqliyyat-kommunikasiya xətlərinin qurulmasının regionda davamlı sülhün və sabitliyin təmin olunmasına, region ölkələrinin inkişafına və firavanlığına xidmət edəcəyi vurğulandı.

Dövlət başçıları, həmçinin Azərbaycan və Türkiyə arasında ikitərəfli müttəfiqlik əlaqələrinin müxtəlif aspektlərinə dair fikir mübadiləsi apardılar.

## Prezident: "Qurban Qurbanov çox ləyaqətli hərəkət edib"

**"Bizim məşhur məşqçimiz Qurban Qurbanov çox ləyaqətli hərəkət etmişdir və qol sayıla biləcək vəziyyətdə demişdir ki, yox, bu, bizə lazım deyil, bizə saxta nailiyyət lazım deyil, qazanılmamış uğur lazım deyil".**

Bunu Prezident İlham Əliyev Macarıstanda keçirilmiş güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edərkən deyib.

"Nəyi qazanmışıqsa, öz əməyimizlə qazanmışıq. O cümlədən Qarabağ məsələsini də öz əməyimizlə, gücümüzlə, zəkamızla həll etmişik.

İdman yarışlarında, yəni, feyr-pley anlayışı unudulmamalıdır və Azərbaycan idmançıları bu prinsiplərə həmişə əməl etməlidirlər.

Çünki bu, qələbədən də vacibdir. Çünki bilirsiniz, qələbə, əlbəttə, hər bir idmançı üçün çox önəmlidir, onun həyatında, necə deyərlər, böyük iz buraxır. Ancaq qələbədən daha vacib ləyaqətdir və biz müharibəni ləyaqətlə aparmışıq.

Bu gün bütün dünya bir daha xalqımızın böyüklüyünü görür, hər şey göz qabağındadır. İdmanda da elə olmalıdır, elədir və bu halal qələbəni siz öz istedadınız, zəhmətiniz hesabına qazanmısınız və eyni zamanda, bir daha xalqımızın böyüklüyünü göstərmisiniz. Həm qələbə münasibətilə, həm ləyaqətli davranış münasibətilə sizi təbrik edirəm. Əlbəttə ki, biz hamımız, bütün Azərbaycan xalqı sizdən yeni qələbələr gözləyir", - dövlət başçısı vurğulayıb.

## Parlamentarilər Şuşada toplaşdı

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitələrinin Şuşada birgə iclası kçirilib.**

Adalet.az xəbər verir ki, birgə iclasda müzakirəyə çıxarılan qanun layihələri parlamentin plenar iclasına tövsiyə olunub.

Əvvəlcə "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında "Qafqaz Qartalı" xüsusi təyinatlı qüvvələrin təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında qanun layihəsi deputatların müzakirəsinə təqdim edilib.

Qeyd edilib ki, Anlaşma Memorandumu 1 il müddətinə qüvvədə qalır ve Tərəflərdən birinin digərlərinə Anlaşma Memorandumunun müddətinin bitməsindən 30 gün əvvəl diplomatik kanallar vasitəsilə onu ləğv etmək niyyəti barədə yazılı olaraq bildiriş verməditi təqdirdə, avtomatik olaraq sonraki bir illik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumu bildirişin alındığı tarixdən 30 gün sonra ləğv edilir.

Anlaşma Memorandumu tərəflərin qarşılıqlı razılığı ilə dəyişdirilə ve ona əlavələr edilə bilər. Belə dəyişiklik və əlavələr bu Anlaşma Memorandumunun tərkib hissəsi olub ayrıca sənəd şəklində bağlanılır və bu Anlaşma Memorandumu ilə eyni qaydada qüvvəyə minir.

Bundan əlavə "Qafqaz Qartalı" xüsusi təyinatlı qüvvələrin təlimi məqsədilə ev sahibi ölkəyə gətirilən təchizat və avadanlıqlar gömrük rüsumlarından və vergilərdən azad ediləcək.

Daha sonra isə "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Valyuta tənzimi haqqında" qanunda dəyişiklik edilməsi haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb.

Bildirilib ki, Cinayət Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvəkkil edilmiş bankının hesabına məcburi qaydada köçürülməli olan xeyli miqdarda xarici valyuta vəsaitlərini xaricdən qaytarmama üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

"Valyuta tənzimi haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən isə rezidentlərin xarici valyuta hesabları ilə bağlı tələblər artırılıb.

Azərbaycan Mərkəzi Bankı tərəfindən başqa hal müəyyən edilmədikdə rezidentlər əldə etdikləri xarici valyutanı məcburi şəkildə müvəkkil banklardakı öz hesablarına köçürməlidir.

Müzakirələrdən sonra qanun layihələri parlamentin plenar iclasına tövsiyə olunub.

# Brüssel görüşünün nəticələri Azərbaycanın mühüm siyasi uğurudur

**Brüsseldə Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüşü olub.**

Görüşdən sonra jurnalistlərin suallarını cavablandıran Çarl Mişel bildirib ki, "biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik. Biz, həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılığa gəldik. Əminəm ki, növbəti həftələrdə əldə olunacaq tərəqqini nəzərdən keçirmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya olacaq".

### Birgə Sərhəd Komissiyasının təşkil edilməsi razılaşdırılıb

Azərbaycan Xarici İşlər Nazirliyinin görüşlə bağlı yaydığı bəyanatda bildirilir ki, "Tərəflərin hələ 2021-ci ilin 15 dekabr tarixində baş tutan birgə görüşünün davamı olaraq keçirilən bu görüş, bölgədəki vəziyyətin müzakirəsi, o cümlədən bölgənin təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərinin müzakirəsinə həsr olunub.

Görüş zamanı post-münaqişə mərhələsində bölgənin inkişafı ilə bağlı Azərbaycanın hər zaman çıxış etdiyi prinsiplər, o cümlədən 2020-ci ilin 9/10 noyabr üçtərəfli bəyanatın müddəalarına tam riayət olunması, tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması və nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib. Görüş nəticəsində Aİ Şurasının Prezidenti bəyanat ilə çıxış edib.

Görüş zamanı humanitar tədbirlərin tərəflər arasında sülh və etimadın təşviq olunması baxımından əhəmiyyəti, o cümlədən itkin düşmüş şəxslərlə bağlı məsələlər, minaların təmizlənməsinin vacibliyi vurğulanaraq, Aİ-nin bölgədə aparılan humanitar minatəmizləmə, eləcə də reabilitasiya və rekonstruksiya işlərinə dəstək verəcəyi qeyd olunub.

Hələ bir il bundan öncə Azərbaycan tərəfindən irəli sürülən təşəbbüs və bir müddət öncə tərəfimizdən təqdim edilən baza prinsipləri əsasında iki ölkə arasında sülh sazişinin hazırlanmasına başlanılması ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə təlimat verilib.

İki dövlət arasında sərhədin delimitasiya və demarkasiyasının vacibliyi ifadə edilib və bu xüsusda, cari ilin aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının təşkil edilməsi razılaşdırılıb.

Həmçinin iki ölkə arasında nəqliyyat və kommunikasiyaların, o cümlədən həm dəmir yolları, həm də avtomobil yollarının açılmasının əhəmiyyəti qeyd edilib.

Aİ-nin nəqliyyat bağlantı infrastrukturunun inkişafını dəstəkləməyə hazır olduğu bir daha bəyan edilib.

Beləliklə də, Aİ Şurasının Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşü, Azərbaycanın maraqlarına uyğun olaraq və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması istiqamətində atılmış növbəti önəmli addımdır".

### Azərbaycan Brüsseldə istədiyini əldə etdi

***Deputat Hikmət Babaoğlu*** bu görüşü və nəticələri Azərbaycan strateji diplomatiyasınn növbəti uğuru, eyni zamanda post-müharibə reallıqlarının dünyaya qəbul etdirilməsi hadisəsi kimi qiymətləndirib: "Hər şeydən öncə qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər sistemi həddindən artıq mühafizəkar və eqoistdir. Yaradılan yeni reallıq hər nə qədər beynəlxalq hüquqa uyğun olsa belə onu qəbul etdirmək çox çətin olur. Bu paralel nizama əksər hallarda ikili standartlar siyasəti də deyirik. Yəni əsas aktorların maraqlarına uyğun olan problemlər beynəlxalq hüquqa uyğun olmasa belə o problemlərin mövcud olmasına və hətta davam etməsinə qlobal güc mərkəzləri dəstək olurlar. Qarabağla bağlı vəziyyət də belə idi. Ancaq Azərbaycan bu məsələni həll etməklə dünyanın güc mərkəzlərini fakt qarşısında qoydu və imperialist mərkəzlərin bu reallığı qəbul etməkdən başqa çarələri qalmadı.



Brüsseldə keçirilən görüşdən sonra Ş.Mişelin mətbuat üçün bəyanatında əksini tapan məsələlər də post-müharibə mərhələsi üçün Azərbaycanın irəli sürdüyü beş baza prinsipinə söykənir. Bu baza prinsipləri beynəlxalq hüquqa və Azərbaycanın maraqlarına tamamilə uyğundur.

Qeyd etmək lazımdır ki, hələ 2021-ci ilin dekabr ayının 14 də keçirilən üçtərəfli görüşdə əslində məhz bu prinsiplər əsasında mümkün gündəm müəyyənləşdirilmişdi.

Yəni artıq post-müharibə mərhələsində qalıcı sülh üçün yeni danışıqlar platforması kimi qəbul edə biləcəyimiz Brüssel-Bakı-İrəvan xəttinin əsasları həmin vaxt qoyulmuşdu.

Hazırda isə bu əsaslarda sülh danışıqlarını irəli götürmək üçün mexanizmlərin yaradılması baş verir. Burada önə çıxan əsas məsələlərdən biri xarici işlər nazirlərinin birbaşa əməkdaşlıq etməsinin nəzərdə tutulmasıdır ki, bu nəticə əldə etmək üçün olduqca çevik və səmərəli formadır. İkincisi aprel ayının sonunadək sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı uyğun komissiyanın yaradılmasıdır. Eyni zamnda hazırda sərhədlərdə mövcud olan reallığın toxunulmazlığıdır. Bu isə o deməkdir ki, erməni tərəfi Qaragöl və Kəlbəcər istiqamətində əvvəlki iddialarınından geri çəkilib ya da onu qəbul etdirə bilməyiblər. Başqa mühüm bir məsələ isə bəyanatda və danışıqlarda ATƏT və onun Minsk Qrupunun ümumiyyətlə xatırlanmaması onun əvəzinə hər iki tərəfin etimad etdiyi Avropa İttifaqının danışıqları himayə etməsi gerçəkliyidir ki, bu da özlüyündə tamamilə yeni və səmərəli bir format yaradır. Hər hansı status əsla xatırladılmır tam əksinə regionda yaşayan bütün insanların rifahı naminə sülhə ehtiyac olduğu vurğulanır.

Nəhayət kommunikasiyaların o cümlədən avtomobil nəqliyyatı kommunikasiyyasının açılmasının zəruruliyi qeyd edilir. Yeni bəyannamədə alqışlanılan dəmir yolu xətti ilə bərabər avtomobil yolunun açılması zərurəti də öz əksini tapır. Əgər minaların təmizlənməsi, itikindüşən insanların taleyinə aydınlıq gətirilməsi kimi humanitar paketə daxil olan məsələləri də nəzərə alsaq deyə bilərik ki, Azərbaycan Brüsseldə istədiyini əldə etdi. Bu isə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə şəxsi zəmində olan qarşılıqlı etimada söykənən münasibətləri və Aİ ilə Azərbaycan arasında gələcək tərəfdaşlıq münasibətləri kontektində baş tutdu".

### Proseslər Azərbaycanın milli maraqlarına tam cavab verir

***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev*** isə görüşlə bağlı fikirlərini bölüşərkən bildirib ki, Azərbaycanın Qarabağ münaqişəsini həll etməklə yaratdığı dəyişməz reallıqlar bütün tərəflərin maraqlarına cavab verir:

"Postmüharibə dövründə aparılan bütün danışıqlar Azərbaycanın milli maraqları çərçivəsində və irəli sürdüyü təkliflər əsasında aparılır.

Bu istiqamətdə aprelin 6-da Prezident İlham Əliyevin Brüsselə səfərini, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Ermənistan baş naziri Nikol Paşinyanla görüşlərini və əldə olunmuş nəticələri məhsuldar hesab edirəm, bunu həyata keçirilən ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğuru kimi qiymətləndirirəm. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlara başlanılması, bu istiqamətdə işçi qrupun yaradılması, Azərbaycanın irəli sürdüyü 5 təklif və bunun əsasında predmetli danışıqların aparılması Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində önəmli qərardır.

Delimitasiya prosesinə başlanılması məsələsi müharibə başa çatdıqdan sonra Azərbaycanın irəli sürdüyü ilk təkliflərdəndir və son danışıqlarda bu barədə razılığın əldə olunması çox əhəmiyyətlidir.

Keçirilən görüşün nəticələri bir daha təsdiqləyir ki, Avropa İttifaqı ölkəmizin müəllifi olduğu yeni geosiyasi reallığı qəbul edir və bu səpgidə kifayət qədər maraqlıdır.

Məsələn, sənəddə ermənilərin iddia etdiyi "Dağlıq Qarabağ" ifadəsinin yer almaması, həmçinin fəaliyyəti ərzində onsuz da bir iş görməyi bacarmayan, ümumiyyətlə, buna cəhd göstərməyən ATƏT-in Minsk qrupuna istinadın olmaması mühüm faktdır. Təbii ki, münaqişənin başa çatması ilə Minsk qrupunun da mənası qalmayıb. Artıq Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm formalaşıb və proseslər Azərbaycanın milli maraqlarına tam cavab verir".



### "Brüssel formatı" bölgədə mühüm platformaya çevrilir

"Öncə qeyd etmək lazımdır ki, Avropa İttifaqı üçün Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf olduqca mühümdür",- deyən ***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova*** bildirib ki, Digər tərəfdən, Azərbaycan və Ermənistan liderləri postmüharibə dövründə yaranmış vəziyyətin ədalətli və hərtərəfli həllinə önəm verən Avropa İttifaqının qərəzsiz vasitəçilik missiyasına etimad göstərirlər.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Bakıya səfəri zamanı Prezident İlham Əliyevlə görüşü və əldə olunmuş tarixi razılaşma "Brüssel formatı"nın möhkəmlənməsində mühüm rol oynadı. Xüsusilə qeyd etmək lazımdır ki, burada Şarl Mişelin Prezident İlham Əliyevlə şəxsi dialoqu və təmasları mühüm şərtdir.

Deputat diqqətə çatdırıb ki, ""Brüssel formatı" çərçivəsində ilk görüş 2021-ci il dekabrın 14-də keçirilib. Azərbaycanla Brüssel arasında növbəti məsləhətləşmələr, əldə olunan intensiv əməkdaşlıq Aİ-nin vasitəçilik missiyasının imkanlarını daha da genişləndirdi. Bu danışıqları dəyərləndirən Ş.Mişel də Brüsseldə keçirilən ilk görüşdə tərəflərin bir-birini dinləməyə və bir-birini narahat edən məsələləri, həmçinin prioritetləri, hər iki tərəf üçün həssas olan məsələləri daha yaxşı anlamağa doğru addım atdıqlarını bildirdi. Burada xüsusi qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev nə qədər çətin olsa da, səhifəni çevirməyə və sülh danışıqlarına hazır olduğunu bildirib. Buna əyani sübut isə Azərbaycan tərəfindən sülh müqaviləsinin hazırlanması ilə bağlı təkliflərini hazırlaması və qarşı tərəfə təqdim etməsidir.

Biz bu reallığı Brüssel görüşündə bir daha müşahidə etdik. Uzun sürən danışıqların nəticələri Aİ Şurası rəhbərinin bəyanatında öz əksini tapdı. Azərbaycan və Ermənistan yekun sülh sazişinin bağlanması üçün danışıqlara başlayır. Hər iki ölkənin Xarici İşlər nazirliklərinin rəhbərlərinə danışıqlara hazırlığa başlamaq tapşırıldı.

Əlbəttə, bu, Azərbaycan Prezidentinin sülh müqaviləsi ilə bağlı 5 maddədən ibarət təklifinin qəbulundan sonra mümkün olub.

Yəni, xarici işlər nazirləri fəaliyyətlərini bu sənəd əsasında quracaqlar. Burada əsas prinsipial məsələ Azərbaycanın sərhədlərinin və ərazi bütövlüyünün toxunulmazlığıdır.

Eyni zamanda, tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması və birinci növbədə, delimitasiya prosesinə başlaması barədə razılıq əldə olundu. Sərhədlərin delimitasiyası və demarkasiyası prosesi artıq yeni müstəviyə keçir. Dövlət sərhədində erməni silahlı qüvvələri tərəfindən yaradılan gərginliyin azaldılması üçün ciddi şans var. Ən əsası isə belə işlər mövcud sərhədlərin tanınması və ərazi iddialarının rədd edilməsi istiqamətində mühüm addımdır".



**Deputat qeyd edib ki, "nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, iqtisadi məşvərət şurası mexanizminin yaradılması təsdiqlənir. Həmçinin Avropa İttifaqı minalardan təmizləmə, itkin düşmüş şəxslərin tapılması, eləcə də quruculuq işlərində Azərbaycana dəstək göstərəcək.**

**Yəni, biz hər bir nəticəni şərh etsək görərik ki, Azərbaycan öz hədəflərinə addım-addım nail olmaqdadır. Xüsusilə vurğulamaq lazımdır ki, Prezident İlham Əliyev bu görüşdə Azərbaycanın suveren hüquqlarının təsbit olunması siyasətinin əsas prinsiplərini növbəti dəfə rəsmiləşdirdi. Belə ki, qəbul olunmuş yekun sənəddə, yəni, Bəyanatda nə "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidinin, nə də siyasi-hüquqi statusunu itirmiş ATƏT-in Minsk qrupunun adı çəkilmir. Aİ-nin dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan "Brüssel formatı" bölgədə sülh və təhlükəsizliyin yaranmasında mühüm platformaya çevrilir. Azərbaycan Prezidenti İlham Əliyevin inamlı rəhbərliyi, müdrik və çevik diplomatiyası regionun sülhə və daha yaxşı gələcəyinə töhfə verir".**

**Nicat Novruzoğlu**

## Yaponiya Rusiyanı zəiflətməkdə israrlıdır: "İşğalçı"dedi, sanksiyaya qoşuldu, cəzalanmasını tələb edir...

**Xəbər verdiyimiz kimi Kuril adaları artıq uzun müddətdir Rusiya və Yaponiya arasında əsas mübahisə mövzusudur. Rəsmi Tokio Moskvadan öz ərazilərinin geri qaytarılmasını tələb edir.**




Hələ ötən ay Yaponiya hakimiyyəti son 20 ildə ilk dəfə olaraq Cənubi Kuril adalarının Yaponiyanın ayrılmaz hissəsi olduğunu və hazırda işğalda olması barədə sərt ifadəni siyasi leksikona qaytardı. Mediada yer alan məlumatlara görə, sonuncu dəfə 2003-cü ildə "Rusiya tərəfindən işğal olunmuş ərazilər" ifadəsi mediada yer alıb. Beləki, Yaponiya XİN 2022-ci il üçün diplomatiyanın "Mavi kitabı"nın layihəsini hazırlayıb. Layihədə son 20 ildə ilk dəfə olaraq Kuril barədə "hazırda Rusiyanın işğalı altındadır" müddəası yer alıb.

Bundan başqa, sənəddə Ukraynada xüsusi hərbi əməliyyatını davam etdirən Rusiyaya ittihamlar yer alıb.

"Mavi kitab" 1957-ci ildən bəri hər il nəşr olunan Yaponiya diplomatiyasının xarici siyasətini və beynəlxalq əlaqələrini ümumiləşdirən sənəddir. Hazırkı "Mavi kitab"da qeyd edilir ki, Yaponiya ilə Rusiya arasında sülh müqaviləsi üzrə danışıqların perspektivlərindən danışmaq mümkün deyil.

Yaponiyanın bu həmləsindən sonra martın 21 də rəsmi Moskva mübahisəli adalar üzrə Yaponiya ilə sülh danışıqlarından imtina edib. İmtinaya səbəb kimi Tokionun Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar göstərilib. Bundan sonra, yəni martın 23-də Yaponiya Xarici İşlər Nazirliyi Rusiyaya bununla bağlı nota verib, buna səbəb isə Rusiyanın Kuril adalarında diviziya yerləşdirmək istəyi olub.

Əlbətdə ki, Yaponiya buna etinasız qala bilməzdi. Ölkənin baş nazir Kişida Fumio bəyanat yayaraq bildirdi ki, Yaponiya Rusiyaya yeni sanksiya həyata keçirəcək.

Bildirilib ki, Rusiyaya qarşı genişləndirilmiş iqtisadi sanksiyalar çərçivəsində lüks avtomobillər, zərgərlik məmulatları və sənət əsərləri kimi dəbdəbəli məhsulların Rusiyaya ixracı qadağan edilib. Bu qadağa aprelin 5-dən qüvvəyə mindi.

Bir sözlə, Yaponiya ilə Rusiya arasındakı gərginlik getdikcə kəskinləşməkdə davam edir.

Ukraynada Rusiyanın yaşayış evlərinə, bağça və məktəblərə atdığı mərmilərin öldürdüyü insanların və rus əsgərləri tərəfindən xüsusi amansızlıqla öldürülən bütün ukraynalıların qisasının alınması xəbəri bu gərginliyi növbəti yüksək fazaya keçirib.

Adalet.az xəbər verir ki, Yaponiya Nazirlər Kabinetinin baş katibi Matsuno Hirokazu Rusiya əsgərlərinin Ukraynada mülki insanları öldürməsi xəbərinin hökuməti çaşdırdığını və bu hərəkətləri kəskin şəkildə qınadığını bildirib.

Günahsız mülki şəxslərin öldürülməsini beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulması kimi qiymətləndirən Matsuno faktların üzə çıxarılması və Rusiyanın hərbi cinayətlərinə görə cəzalandırılmalı olduğunu deyib.

**Qeyd edək ki, martın 31-də Rusiya qoşunları Buçanı tərk edəndən sonra şəhərdə çoxsaylı hərbi cinayətlər - mülki əhalinin öldürülməsi, işgəncələr, zorlamalar və talan faktları aşkarlanıb. Hələ ki, təkcə Buçada 300 nəfər dinc əhalinin öldürüldüyü faktı təsdiq edilib.**

**Əntiqə Rəşid**

## Adibekyan: "Paşinyan erməni tarixinin son cümləsinin son nöqtəsini yazır"

**Dağlıq Qarabağda yaşayan ermənilər xeyli müddətdir Ermənistan ərazisindən Xankəninə gələn qaz kəmərində baş vermiş qəzanı azərbaycanlıların üzərinə yıxmaq üçün dəridən -qabıqdan çıxdı. Onlar Azərbaycanı regiona təbii qaz təchizatını kəsməkdə, şaxtalı havada onlara humanitar problemlər yaratmaqda "dəlillər" axtarıb- tapıb beynəlxalq aləmə də göndərdilər. Bir, iki ölkəni "Azərbaycanın ermənilərə qarşı" olan münasibətindən narahat olduğunu da dilə gətirməsinə də nail oldular.**





Azərbaycan tərəfi "narahat olanların" narahatçılığının qarşısını almaq üçün açıqlama verməyin lazım olduğunu və Azərbaycanın Qarabağın dirçəlişi üçün bir sıra işlərin görülməsinə başlamaqda da olduğunu dilə gətirdi. Aaçıqlamada bildirildi ki, Xankəndi şəhəri daxil olmaqla, Qarabağ iqtisadi zonası 1980-cı illərdə Azərbaycan dövləti tərəfindən qazlaşdırılıb: "Orada qaz infrastrukturu yaradılmışdı. Sonrakı işğal dövründə kommunikasiyaların böyük bir qismi ermənilər tərəfindən dağıdılmışdır, viran edilmişdir. Xankəndi şəhəri və işğaldan azad edilmiş digər ərazilər Azərbaycanın suveren ərazsidir və əzəli Azərbaycan torpaqlarıdır. Həmin ərazilərdə qaz infrasturkturunda və yaxud digər infrastrukturlarda işlər yalnız Azərbaycan dövləti tərəfindən görülür. Bu dəfə də şərböhtan kampaniyasında uduzan ermənilər Xankəndinin və Qarabağın digər ərazilərinin qazlaşdırılması prosesinin qarşısında çarəsiz duruma düşüblər. Hazırda Qarabağda bu yöndə işlər davam edir.

Azərbaycanın xeyirxah məramlarını yenə də qara eynəkdən görməyə öyrənmiş ermənilər bu dəfə də başqa bəhanələr səsləndiriblər.

"Brüssel görüşü bizə növbəti sillə və aşağılamadan başqa heç nə verməyəcək, amma Azərbaycana Qarabağın qalan hissəsini verəcək".

Adalet.az Ordu.az- a istinadən xəbər verir ki, bunu erməni azərbaycanşünas Armine Adibekyan deyib.

Onun sözlərinə görə, Nikol Paşinyan Qarabağın qalan hissəsini Azərbaycana təhvil verəcək. "Həmin görüşdə Qarabağ məsələsi nəhayət həll olunacaq. Bəli, bütün Ermənistan təhlükədədir.

Üstəlik, təkcə təhlükədə deyil, artıq Azərbaycana təhvil verilib.

Nikol Paşinyan erməni tarixinin son səhifəsinin son cümləsinin son nöqtəsini yazır", - deyə Adibekyan qeyd edib.

Erməni azərbaycanşünas vurğulayıb ki, Nikol Paşinyan erməni xalqının bütün rəqibləri üçün sərfəli variantdır.

**Qeyd edək ki, Ermənistan Baş naziri dekabrın 24-də onlayn rejimdə mətbuat konfransı zamanı deyib ki, Qarabağın son statusunun dəqiqləşdirilməsi Azərbaycan konstitusiyası əsasında baş verməlidir və bu imkanı onun sələfləri yaradıb.**

**Əntiqə Rəşid**



*Səxavət Məmməd*

## Buçada baş verənlərə hüquqi qiymət verilsə...

*Rusiya ordusunun geri çəkilməsindən və ya geri oturdulmasından sonra Buça şəhərindən yayımlanan görüntülər Xocalı faciəsini yenidən gündəmə gətirir.*

*Əslində, Azərbaycan üçün bu, gündəmdən heç vaxt düşməyib, ancaq məsələyə hələ də siyasi, hüquqi qiymət verilməyib. Buçadakı görüntülər, bəlkə də, Xocalıda da törədilənlərin hüquq müstəvisinə daşınmasına təkan verə bilər.*

*Azərbaycanda bəziləri iddia edir ki, 366-da ermənilər üstünlük təşkil edib. Bu isə tamamilə yalan və absurd iddiadır. Şəmkirdəki 366-cı motoatıcı alay 1985-ci ildə Dağlıq Qarabağa dislokasiya edilib. 366-cı alay Qarabağda tam ştatla xidmət aparmayıb. Belə ki, 1800 nəfər şəxsi heyətə sahib olan alayın tərkibində 1992-ci ilin fevralında 630 hərbçi olub.*

*366-cı alay Xocalı soyqırımından sonra, daha dəqiq, 10 mart 1992-ci ildə Qarabağdan çıxarılıb. Məlumata görə, alayın tərkibində xidmət edən 22 zabit daxil olmaqla 180 əsgər ermənilər tərəfindən döyüşmək üçün Qarabağda qalıb.*

*Təkcə bu rəqəmlər kifayət edir ki, alayın tərkibində üstünlüyü ermənilərin təşkil etmədiyini deyə bilək. Bundan əlavə, alay komandiri də polkovnik Yuri Zarviqorov olub. Ermənistanın sabiq müdafiə naziri Seyran Ohanyan 366-cı alayın 2-ci motoatıcı batalyon komandiri olub.*

*Yəni əmr verən yox, əmr icra edən vəzifəsində xidmət aparıb. Bu yazılanlar Ohanyanı, Ermənistanı və separatçıları məsuliyyətdən azad edə bilməz.*

*Bundan əlavə, alay əgər ermənilərin diqtəsi ilə hərəkət edirdisə, ozamankı Azərbaycan hakimiyyəti niyə Rusiyaya nümayəndə heyəti göndərib alayın Qarabağdan çıxarılması üçün danışıqlar aparırdı?*

*Ozamankı Azərbaycan Prezidenti Ayaz Mütəllibov Araz Əlizadəni (Azərbaycan Sosial Demokrat Partiyasının sədri) Rusiya Prezidenti (1991-1999) Boris Yeltsinlə görüşə göndərib və 366-cı alayın Qarabağdan çıxarılmasına nail olmağa cəhd edib. Bu görüş nə zaman baş tutub? 1992-ci il fevral ayının 25-i səhər saatlarında. Axşam keçirilməli olan görüş Boris Yeltsinin anlaqlı vəziyyətdə olmadığı (içkili) üçün 26-sı səhərə təxirə salınıb. 25-dən 26-a keçən gecə Azərbaycan nümayəndə heyətinə zəng gəlir ki, 366-cı alay Xocalıda qətliam törədib…*

*Yəni Xocalının məsuliyyətini təkcə Ermənistan yox, həm də Rusiya daşımalıdır.*

*Müharibələr nə qədər öldürcü olsa da, əslində, müharibənin də öz qanunları var. Rusiya tərəfi Ukraynada müharibə qanunlarını da kobud şəkildə pozub. Müharibələr tarixinə baxanda nizami ordunun vəhşilik törətməsinə çox az rast gəlirik. Xocalıda 366-cı alayı ittiham etsək də, düşünmürəm ki, insanlara qarşı o vəhşiliyi, alçaldıcı hərəkəti əsgərlər etsin. Əsgərlər normalda güllələyib keçə bilər.*

*Ancaq nizami ordunun əsgərlərinin qulaq, burun kəsməsi, hamilə qadının qarnını deşməsi inandırıcı deyil. Nizami ordu mühasirəyə ala bilər, müqavimət göstərənləri məhv edə bilər, ancaq bundan sonrakı prosesi həyata keçirənlər isə cəza batalyonları olur. Hər halda, ərazidə baş verən vəhşiliyə görə də ordu məsuliyyət daşıyır.*

*Çünki buna göz yummamaq da olardı. Buna görə də Xocalı soyqırımının həyata keçirilməsində Ermənistanla Rusiya eyni dərəcədə məsuliyyət daşıyır.*

*Buçada baş verənlərin də nizami ordu tərəfindən həyata keçirldiyi inandırıcı görünmür. Düşünürəm ki, Buçadakı vəhşiliyi törədən cəza batalyonlarıdır. Bu məsələdə konkret Vaqnerin adı hallanır. Hətta faşist Almaniyasında belə nizami ordu əhaliyə qarşı vəhşilik törətmirdi. Bunun üçün cəza dəstələri var idi (SS).*

*Ancaq yuxarıda qeyd etdiyim məsələ Rusiya nizami ordusunun məsuliyyətini azaltmır.*

*Çünki ordu bunun qarşısını ala bilərdi.*

*Hərbi xidmətdə olan hər kəs bilir ki, dinc əhali ilə rəftarla bağlı dərslər keçirilir, əsgərlərə beynəlxalq konvensiyalar başa salınır. Yəni hərbi xidmətdə olan biri bu cür hallardan qaçmalıdır.*

*Düşünürəm ki, Ukrayna tərəfi beynəlxalq qurumlara müraciət edəcək və məsələyə hüquqi qiymətin verilməsinə çalışacaq. Niyə fürsət? Çünki 30 ildir Azərbaycan Xocalıda baş verənlərə görə hüquqi qiymətin verilməsinə nail ola bilməyib.*

*Buçada baş verənlərə hüquqi qiymət verilsə, bu, Xocalı üçün anoloq olacaq.*



*Emin Piri*

## SÜLEYMAN DƏMİRƏLLƏ NƏ DANIŞDIM?

***İllər öncə N saylı yerdə xidmətdəydim. Zabit dostlarla teztez oturur, türklər demiş efkarlayırıq. Baxma, mülki adam görmürük, bir az stres, bir az darıxmaq, bir az da gündü də deyib yaşayırıq. Hərə aqressiyasını bir şeylə çıxarır. Kimisi mömün, ibadətlə, kimisi belə məclislərlə. Çünki o aqressiya, streslə durmaq mümkün deyil. Bir də zabit dostlarla zarafatyana bir-birimizi "yandırmalarımız" olurdu. Məndəki məlum, harda varamsa zarafatlar ilk yerdə.***

***Belə günlərin birində özümüzçün kiçik məclis düzəltdik. Efkarlamışıq.***

***Bu anda telefonuma zəng gəldi. Şoka düşdüm, Süleyman Dəmirəl yazılmışdı. Ha düşünürəm, Dəmirəllə mənim nə işim, nə əlaqəm?***

***Ümumiyyətlə, onun nömrəsi telefonuma necə qeydiyyata düşüb?***

***Eynən tv-lərdə eşitdiyim Süleyman səsiylə " dostum, kardeşim, değerli şair Emin Piri" sözləriylə danışır.***

***Mənsə minnətdarlığımı bildirirəm, təşəkkür edirəm.***

***Deyir ki, Bakıya gəlib mənlə görüşmək istəyir səhər.***

***Bir anlıq özgüvənim o qədər artdı ki, Süleyman Dəmirəl niyə görüşmək istəməsinki deyirəm öz-özümə? Artıq özgüvən hissindən bu mənə adi gəldi. Sanki olacaqmış kimi bir olay.***

***Tez əşyalarımı topladım. Bir-iki pillə yuxarı komandan zabitə zəng etdim ki, təcili məzuniyyətə çıxmalıyam Süleyman Dəmirəllə görüşəcəm. Özü zəng edib. İcazə verin aşağı düşüm.***

***Elə bu vaxt zabit dostlar əl-ayağıma düşdü ki, ay emin, dəlisən, nəsən? Ziblə salassan bizi.***

***Sən demə məclisdə dostlardan biri telimdən adını silib, nömrəni yenidən Süleyman Dəmirəl adıyla qeydə alıb. Sonrasa onu yamsılamağı bacardığından zəng edərək Dəmirəl diliylə mənlə danışıb...***

***Bir müddət mənlə zarafat etmədi kimsə. Dedilər, safsan, inanırsan, amma elə şeylərə inanırsan ki, adam özü şoka düşür.***

***Hər şeyə bir yana hələ də düşünürəm, həmin an buna inanacaq özgüvən məndə hardan idi?***

***Bir də saflığımı yada salıb hələ də gülürük.***

# Doğma torpağın doğma adamı doğmaların filmində

**Aprelin 1-də Aqil Abbasın 69 yaşı tamam oldu - yazıçı, publisist, naşir, Milli Məclisin üzvü Aqil Abbasın. Amma hər şeydən əvvəl Vətəndaş Aqilin! Bütün yaradıcılığını Qarabağa bağlayan Aqilin! Otuz illik ağır işğal dövründə teleefirlərdəki çıxışlarından tutmuş ədəbi tariximizə yazılmış romanlarınadək Qarabağ mövzusunu ürək sətirlərinə köçürən Aqilin! O zaman itirilmiş Qarabağ kədərini hər an yada salan Aqil Abbas torpaqlarımızın azad olunduğu günlərin sevincini necə yaşadı - onu hər kəs gördü: Teleçıxışlarından, tələbələrləgənclərlə görüşlərindən, publisistikasından və bir də AZAD Şuşaya, AZAD Ağdama ilk səfərlərindən!**

Aqil Abbasın romanı əsasında çəkilmiş "Dolu" bədii filmi romanın müəllifini iki istiqamətdən bir daha xalqa təqdim etdi: Qarabağ sevgisi və mükəmməl yazıçı kimi!

Mən bu yerdə Aqil Abbasın mətbuatın, ədəbi tənqidin yüksək qiymətləndirdiyi əsərləri barədə danışmayacağam, çünki bu əsərlərə hər kəs bələddir. Amma deyəsən, Aqil Abbasın vətəndaşlıq, Azərbaycana, ölkəmizin Məkkəsi olan Qarabağa sevgisinə, Ağdam kədərinə və Ağdam qüruruna REAL televiziyası hamıdan çox və daha yaxşı bələddir. Yəqin buna görədir ki, aprelin 1-də dostlarının, tanışlarının təbrik zənglərinin susmaq bilmədiyi bir gündə mənə də doğma olan REAl TV Aqil Abbası Ağdama apardı. Və yəqin ki, 70 yaşına bircə il qalmış Aqil Abbasa ad günündə ən böyük hədiyyə elə bu səfər oldu. REAL tv Ağdamı ömrünün hər anında Vətənin müqəddəs bir məkanı kimi sevən Aqillə bu səfəri sənədli telefilm formatında tamaşaçılarına təqdim etdi. Məni duyğulandıran həm də belə bir fakt oldu ki, Aqil Abbasın yol yoldaşı Elcan, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dördüncü kurs tələbəsidir. Belə bir fakt formalaşır: REAL-ın Aqil Abbasla səfər etdiyi Ağdam mənim də doğulub boya-başa çatdığım məkandır, Aqil Abbas bir dost kimi, bir ağdamlı kimi mənə də doğmadır və




onun ad gününü diqqətdə saxlayan REAL tv-nin bütün əməkdaşları da mənə doğmadır. Üstəgəl Ağdama səfərdə Aqil Abbasın əsas yol yoldaşı Elcan hazırda təhsil aldığı fakültədə mənə də çox doğma bir tələbədir.

Filmin belə bir adı var: "Ağdam Dolu Aqil ". Bu da filmin müəlliflərinin maraqlı tapıntısıdır: Bu sərlövhə bir tərəfdən Aqil Abbasın ürəyinin Ağdam dolu xatirələrini əks etdirir, digər tərəfdən vaxtilə Birinci Qarabağ döyüşlərinə həsr etdiyi "Dolu" romanını və ondan doğan "Dolu" filmini bir daha yada salır.

Filmdə Elcanın ilk sözləridir: " Biz Aqil Abbasla birlikdə aprelin 1-i 2022-ci ildə onun ad gününü Ağdamda qeyd edəcəyik ". Ağdam şəhərinə giriş nöqtəsində Aqilin ilk cümləsi: "Dağılmış Ağdam da gözəldir". Bu cümlələr filmin proloq hissəsidir. Bundan sonra filmdə yol təəssüratlarının vizual məqamlarını görürük. Yol boyu Aqil Abbasın Ağdam xatirələri, Ağdam görüşləri təqdim olunur. Onun bu söhbətləri çox maraqlıdır. Yolçular "Ağdamın ağ gününə " gedirlər.Yol boyu bu xatirələrdə həm də Ağcabədi görüşləri: Aqil Abbasın doğulduğu kənddə xeyli vaxt bundan əvvəl tikdirdiyi kitabxanaya, onun təhsil aldığı orta məktəbə səfərləri, doğma evdə çay süfrəsi və ailə xatirələri, Ağdamda Seyid Lazım ağanın qəbrini ziyarət... Bütün bu səhnələr filmin çox maraqlı epizodları və Aqil Abbasın torpağa məhrəm söhbətləri ilə sinxron şəkildə təqdim olunur. Ağdama yaxınlaşanda "Dolu" filminin çəkilişində gördüyümüz postun yanında Aqil Abbası yenə maraqla dinləyirik. Və bu anda mənim də xatirələrim oyanır: Torpaqlarımızın işğalda olan vaxtların birində 2020-ci ilin yazında Aqil Abbas Jurnalistika fakültəsinin bir qrup müəllim və tələbəsini cəbhə xəttinə - Ağcabədi-Ağdam torpağına səfərə gətirmişdi. Düşmənin həmin postun əks tərəfində - bizim doğma Ağdamımızda pusquda dayandığı bir zamanda Aqil Abbas dayana bilməyib, bizim əsgərlərin təkidinə baxmayıb postu keçdi və Ağdama tərəf irəlilədi.

- Qoy, öldürsün məni o yağı düşmən - deyib dayanmadan irəlilədi. Onda mən Aqili qucaqladım və heç olmasa, məsuliyyət daşıyan əsgərlərimizi nəzərə alıb geri qayıtmasına nail oldum... "Ağdam dolu Aqil Abbas" filmi beləcə o torpaqlara həsrət qalan hər birimiz üçün çox-çox hadisələri yenidən yada salır...

Yolçular Ağdama çatırlar. Yağı düşmənin viran qoyduğu ruhlar şəhərində Aqil öz evlərini tapır, bu evin ətrafa səpələnmiş daş qalıqları üstündə Ağdamda keçən günlərini, illərini vərəqləyir. Onun bütün söhbətində Ağdamın haçansa mütləq azad olunacağına, qarabağlı inamının ötən otuz ildə heç vaxt öləzimədiyi və yenidən qurulmaqda olan bu şəhərin əvvəlkindən də gözəl olacağına inamı tamaşaçıya da sirayət edir və elə Aqil Abbasın dilində Ali Baş Komandan İlham Əliyevə təşəkkür və minnətdarlığına hamımız bir daha şərik oluruq.

**Filmin sonu Aqilin öz doğma həyətində alovlandırdığı Novruz tonqalı ilə bitir. Aqil Abbas tonqalın üstündən tullanıb onu heç vaxt sönməyə qoymasın, deyə Tanrıya dualar edir. Biz də bu böyük Vətəndaşın, bu səmimi ağdamlının müqəddəs dualarına şərik oluruq. Və filmin yaradıcı heyətinə - ideya müəllifi Mir Şahinə, müəllif Elcan Məmmədova, operator İsa Məmmədova, bütövlükdə doğma "REAL"ımıza təşəkkür edirik.**

**Cahangir MƏMMƏDLİ**
**BDU Yeni media və kommunikasiya nəzəriyyələri kafedrasının müdiri, filologiya elmləri doktoru, professor,**
**525.az**

## *Bakıda içməli sudan qanunsuz istifadə halları aşkar edildi*

**Prezident İlham Əliyevin təsdiqlədiyi "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq su itkilərinin və israfçılığın qarşısının alınması, içməli sudan qanunsuz istifadə hallarının aşkarlanması və aradan qaldırılması məqsədilə aparılan araşdırmalar nəticəsində Bakıda və regionlarda sudan uçotsuz və sayğacdankənar xətlərdən istifadə halları aşkarlanıb.**

Adalet.az bu barədə "Azərsu" ASC-yə istinadən xəbər verir. Məlumata görə, bu ilin mart ayında içməli sudan qanunsuz istifadə ilə bağlı 802 fakt aşkarlanıb. Bunun 704-ü Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda, 98-i isə regionlarda qeydə alınıb. Həmin faktlar üzrə 223 min kubmetr həcmində sərfiyyat bərpa olunub.



Ümumilikdə, bu ilin I rübündə içməli sudan qanunsuz istifadə ilə bağlı "Azərsu" üzrə 2 093 fakt aşkarlanıb. Ötən müddətdə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda 1902, regionlarda isə 191 sudan qanunsuz istifadə halı qeydə alınıb. Bununla əlaqədar 566 min kubmetr həcmində sərfiyyat bərpa olunub. Cari ilin yanvar-mart aylarında sudan qanunsuz istifadə ilə bağlı 60-dək fakt araşdırılması üçün hüquq-mühafizə orqanlarına təqdim olunub.

İçməli sudan uçotsuz və sayğacdankənar istifadə halları Abşeron yarımadası üzrə ən çox Binəqədi, Sabunçu və Xəzər rayonlarında, regionlarda isə Şirvan, Tovuz və İmişli şəhərlərində qeydə alınıb. "Qlobal iqlim dəyişikliyi ölkəmizin şirin su ehtiyatlarının azalmasına səbəb olub və belə bir şəraitdə sudan israfçılıqla istifadə edilməsi yolverilməzdir. İçməli sudan səmərəli istifadə ilə yanaşı, uçotsuz və sayğacdankənar istifadə hallarına qarşı ciddi tədbirlər görülür.

Qanunazidd halların qarşısını almaq üçün tədbirlər mütəmadi davam etdiriləcək, özbaşına çəkilmiş xətlər ləğv olunacaq, belə halları təkrar törədənlərlə bağlı hüquq-mühafizə orqanlarına müraciət olunacaq", - deyə səhmdar cəmiyyəti bəyan edib.

## 44-cü gün: Rusiyanın itkiləri açıqlandı

**Müharibənin 44-cü günü üçün Rusiyanın itkiləri haqda məlumat yenilənib.**

8 aprel tarixinə olan məlumat Ukrayna Baş Qərargahının sosial şəbəkə hesabında paylaşılıb.

Bildirilib ki, Rusiya 24 fevraldan indiyə qədər 19 mindən çox əsgər, 700 tank, 1891 hərbi zirehli maşın, 333 artilleriya sistemi, 108 reaktiv yaylım atəş sistemi, 55 HHM sistemi, 150 təyyarə, 135 helikopter, 1361 avtomobil texnikası, 7 gəmi/kater, 76 yanacaq-sürtkü sisterni, 112 PUA, 25 xüsusi texnika və 4 operativ taktiki raket kompleksi itirib.

## THY Minsk və Rostova uçuşları yenə ləğv etdi




**Türk Hava Yolları Ukrayna, Minsk və Rostova uçuşların ləğvini mayın 15-dək, Soçiyə isə aprelin 18-dək uzadıb. Bu barədə aviaşirkətin rəsmi saytında məlumat yayılıb.**

Qeyd edək ki, bundan əvvəl aviaşirkət aprelin 10-dək Ukrayna, Rostov və Soçiyə uçuşları ləğv etdiyini açıqlamışdı.

## Rusiya 12 min ukraynalıya təcili pasport verdi

**12 minə yaxın ukraynalı təcili olaraq Rusiya vətəndaşlığını qəbul edib.**

Bu barədə Rusiya DİN-nin Miqrasiya üzrə Baş İdarəsinin rəis müavini Oleq Kadoçnikov bildirib.

"Ukraynalılar Moskva ərazisində patent və iş icazəsi olmadan işləyə bilərlər", - Kadoçnikov bildirib.

**MEHRİBAN**

# "TikTok"a görə arvadını döyən ər

**İki gün əvvəl yayılan xəbərə görə ər arvadını "Tiktok"dan istifadə etdiyinə görə döyüb. Qadın polisə şikayət etdikdən sonra məsələ məhkəməyə qədər uzanıb. Məhkəmə prosesində ərlə arvad barışıblar və kişi cinayət məsuliyyətindən azad olunub. Adalet.az bu hadisə ilə bağlı sorğu keçirib.**



**Sosial Tədqiqatlar Mərkəzində baş məsləhətçisi Tural İsmayılov** bildirib ki, sosial şəbəkələr zamanımızın tələblərindən biridir. Bu baxımdan cinsiyyətindən, irqindən, milliyətindən asılı olmayaraq hər kəs bütün sosial media platformalarından fəal istifadə edə bilər. Düşünürəm ki, indiki kosmik çağda başqa planetlərin tədqiq edildiyi dövrdə, informasiya, kommunikasiya texnologiyalarının bu qədər inkişaf etdiyi cəmiyyətlərdə və dövlətlərdə hər şeyin artıq süni zəka ilə idarə edilməyə doğru gedilməsi üçün planların aparıldığı bir zamanda insanlara sosial şəbəkələrlə bağlı qadağalar qoymaq doğru deyil.

Əsas odur ki, biz sosial şəbəkələrdən hansı formada istifadə edirik və sosial şəbəklərin feyknyus və dezinformasiya hücumlarına qarşı bizim informasiya müqavimətimiz hansı səviyyədədir?! Bunlar olduğu təqdirdə sosial şəbəkələr dövrün tələblərindən biridir və hər kəsin də bundan istifadə etmək hüququ var. Qadınları sosial şəbəkələrdən uzaqlaşdırmaq, yaxud da buna görə şiddət, zor tətbiq etmək rasionallıqdan uzaq addımdır. Cəmiyyətimizin də bu məsələ ilə bağlı kəskin mövqeyi olmalıdır".

**Şair, yazar Rəbiqə Nazimqızı**nın sözlərinə görə, məsələyə iki tərəfdən yanaşmaq olar: konkret bu situasiyada xanım "Tik-



Tok"u hansı məqsədlə açıb və orada hansı fəaliyyətlə məşğul olub?!Bir də qlobal məsələ var: adamlar niyə sosial şəbəkədə çox vaxt kecirirlər?

Konkret məsələ barədə heç nə deyə bilmərəm, amma hər halda düşünmürəm ki, xanım orada hansısa ciddi məqsədlər izləyib. İstənilən halda məsələlərin döyülmə və məhkəməyə qədər getməsi yaxşı hal deyil, ortada ciddi səbəblər varsa, sakitcə boşanmaq olar.

Qlobal məsələyə gəlincə, dünya mənəvi böhran yaşayır, insanlar üçün normal əyləncə platformasını sosial şəbəkə əvəz edib - əvvəl televiziya bu məsələləri nəzərə alırdı, insanlar kitaba, sənətə həsr edirdilər boş vaxtlarını - fəhləsindən tutmuş ziyalısına qədər. İndi ciddi boşluq var.

Bu boşluqlar üzərində düşünmək və uyğun platfotmalar yaratmaq lazımdı adamlara.

**Psixoloq Fərqanə Mehmanqızı:** "Mən düşünmürəm ki, döyülməyə səbəb "TikTok"dur. Sadəcə insanların bir-birilərinə mü-



nasibətdə problemlər var ki, bu cür aqressiyaya səbəb olub. Bu, ailədaxili problemdir. "TikTok" olmayacaqdı, başqa nəsə olacaqdı. "TikTok" bəhanədir.

**Eminquey**

*Elxan Şükürlü*



## BAYDENİN "ƏRDOĞAN SƏDDİ"

***Türkiyə prezidenti Ərdoğan Rusiya və Ukrayna arasında sülh təşəbbüslərini nə qədər artırsa da, savaşın davam etməsində maraqlı olan Qərb koalisiyası, xüsusən də ABŞ-İngiltərə tandemi hər şey edir ki, barış atmosferi yaranmasın və Putin-Zelenski görüşü tezliklə baş tutmasın.***

***Elə nümayəndə heyətləri arasında 29 martda İstanbulda keçirilən görüşdən sonra yaşananları xatırlayın: bütün dünya danışıqların münasibətlərin yumşalması istiqamətindəki detallarına diqqət çəkib sevindiyi saatlarda, ABŞ prezidenti Bayden və Britaniya baş naziri Consondan savaşı davam etdirmək üçün Ukraynaya hərbi dəstəyin artırılması vədləri verilirdi. Hətta Baydenlə Zelenskinin bəyanatları da, təxminən, eyni cümlələrlə bitirdi...***

***İndi də Buçada mülki əhalinin kütləvi şəkildə qətlə yetirildiyini göstərən kadrlar və ardınca da dərhal Bayden başda olmaqla Qərb ölkələrinin rəhbərlərinin kəskin reaksiyaları Türkiyənin barış təşəbbüslərini və indiyədək əldə olunmuş nəticələri xeyli çətinə salır...***



***Açıqca görünür ki, Qərb Zelenskinin Putinlə anlaşmasını və bu anlaşmanın da məhz Ərdoğanın vasitəçiliyi ilə baş tutmasını istəmir.***

***Səbəb aydındır: Bayden Türkiyənin vasitəçiliyi ilə baş tutacaq Putin-Zelenski görüşünün 2023-də yeni prezidentini seçməyə hazırlaşan Türkiyədə Ərdoğanın seçki reytinqinə həlledici təsir göstərdiyini bildiyindən, onun qarşısını indidən kəsməyə çalışır. Axı, dəfələrlə vurğuladığımız kimi, Baydenin hədəfində təkcə Putin yox, həm də Ərdoğandır və ötən ilin 9-10 dekabrında ABŞ prezidentinin təşəbbüsüylə keçirilən "Demokratiya Sammiti"ndə Bayden bu niyyətini açıq şəkildə ortaya qoymuşdu. Sammitə dəvət almayan ölkə rəhbərləri, faktiki olaraq, qeyri-legitim dövlət başçıları elan edilərək, onların yeni "rəngli inqilablar", çevrilişlər yoluyla hakimiyyətdən salınmaları prosesinə "yaşıl işıq" yandırılmışdı!***

***Baxın, Baydenin Sammitə çağırmadığı və yıxmağa çalışdığı NATO üzvü olan ölkə başçılarından biri fəaliyyəti müddətində Çin və Rusiya ilə əlaqələrini qoruyub saxlamağa çalışan Macarıstan Baş naziri Viktor Orban idi ki, amerikalıların bütün müxalifəti ona qarşı səfərbər etmək cəhdlərinə baxmayaraq, aprelin 3-də keçirilən parlament seçkilərində Orban yenidən qalib gəldi və ona qarşı cəbhədə yer alanları da "Sorosun muzdluları" adlandırdı...***

***Sözügedən Sammitə dəvət olunsa da, tədbirə qatılmaqdan imtina edən Pakistanı isə ABŞ-ın qarışdırmaq cəhdləri hələ baş tutmur: Bayden Pakistanın Baş naziri İmran Xanı Çin və Rusiya ilə əlaqələrini kəsməyə və ərazisində ABŞ bazalarını yerləşdirməyə çağırsa da, İmran Xan bundan nümayişkaranə şəkildə imtina edib. Üstəlik, İmran Xan onun istefasını tələb edən parlamentin buraxılmasına və yeni seçkilərə gedilməsinə də nail olub. Beləliklə, qoca Baydeni qarşıdakı aylarda Pakistanda da Çin-Rusiya-Türkiyə-İran ittifaqının namizədiylə gərgin günlər gözləyir...***

***Şübhəsiz ki, Bayden üçün bir nömrəli hədəf Rusiya prezidenti Putindir və Putin hakimiyyətdən salınmaq təhdidi, təzyiqi altında saxlanıldıqca, bu, amerikalıların təkcə Rusiyada yox, maraq göstərdikləri bütün digər ölkələrdə də onların daha rahat hərəkətini təmin etmiş olur. Bu səbəbdən, amerikalılar Ukraynada savaşın müddətinin uzanmasına və Rusiya-Ukrayna münasibətlərinin yenidən bərpa olunmayacaq, əvvəlki məcraya heç vaxt qayıtmayacaq bir duruma salınmasına, onilliklər boyu unudulmayacaq qan düşmənçiliyinə çevrilməsinə çox can atırlar.***

***Ərdoğanın müharibəni dayandırmaq, tərəfləri barışdırmaq və sülhə nail olmaq çağırışları isə savaş təbilçisi Baydenin önündə səddə çevrilib. Bayden hesab edir ki, Ərdoğanın yerinə Qərbyönümlü başqa bir şəxs Türkiyədə prezident olsa, bu, Türkiyənin ətrafında birləşmiş və Rusiyanın da ciddi təsir dairəsində olan Türk Dövlətləri Təşkilatına daxil olan respublikalar üzərindən də Rusiyaya qarşı yeni bir cəbhənin açılmasına və Putinin tam təcridinə gətirib çıxara bilər.***

***Odur ki, biz yaxın vaxtlarda Ərdoğanın ABŞ tərəfindən daha böyük basqıya məruz qalacağını, onun əleyhinə Türkiyənin içərisində qurulmuş siyasi bloka dəstəyini artıracağını, eyni zamanda, Rusiya ilə Türkiyənin ortaq maraq və mənafelərinin olduğu bölgələrdə, xüsusən də Azərbaycanda və Orta Asiyada onların münasibətlərinin pozulmasına yönəlik yeni irimiqyaslı təxribatlara əl atılacağını daha çox gözləyə bilərik.***

***Xatırladaq ki, 2016-cı ildə Suriya probleminin həlli məqsədiylə Rusiya, Türkiyə və İran ABŞ-ı bir kənara qoyaraq, öz aralarında razılığa gəldikləri və "Astana prosesi"ni başladıqları zaman Qərb xüsusi xidmət qurumları bu münasibətləri pozmaq üçün hətta Rusiyanın Türkiyədəki səfiri Karlovu öldürməkdən belə, çəkinmədilər.***

***Eyni ssenarilərin bu dəfə daha sərt formada işə düşməsi ehtimalı da xeyli böyükdür.***

***Şübhəsiz, ətrafındakı çəmbərin necə daraldığını, zamanın artıq əleyhinə işlədiyini Putin də yaxşı görür və böyük ehtimalla, Ukraynanın cənub cinahını tam şəkildə nəzarətə almağa, xüsusən də "Azov batalyonu"nun qalası sayılan Mariupolun təslim olmasına nail olan kimi, Zelenski ilə görüşə və sülh masasının məhz Türkiyədə, ya da həm Türkiyənin, həm də Rusiyanın müttəfiqi Azərbaycanda qurulmasına razılıq verəcək.***

***Çünki indi Ərdoğanı eşitmək, Baydendən qorumaq və onun Türkiyədə yenidən qələbəsini təmin etmək Putin üçün həm də özünü və Rusiyanı xilas etmək deməkdir.***

***Ərdoğan artıq Putini aşırmaq yolunda Bayden üçün cəbhənin ön xəttinə və həm də "Böyük Çin səddi"nə çevrilir...***

## *Nofəl Qasımov: Onun aşağı hissəsi gərəkliydi*



**BUÇA faciəsinnən bütün dünya danışır,kədərlənir,rusları lənətləyir, bizdə həmçini,ancaq rus tv ləri rusları danışdırır,əksəriyyəti deyirki,feykdi,guya ukrayinalılar özləri törədib.Ruslar hər zaman saxta danışa-danışa,zəvziyəzəvziyə,özlərin haqlı çıxarıblar.Yadıma lətifə düşüb,sizlərlə danışım,rusları yaxşı tanıyasınız.Çukca rus arvadıynan şəhərə gedir,dəmiryolun keçəndə,qatar arvadı iki yerə bölür,cukca arvadın aşağı hissəsin atır çiynini qayıdır kəndə.Camaat yığışır,görüllər arvadın yuxarı hissəsi yoxdu,soruşullarkı hanı?çukca cavab verir:mənə onun aşağı hissəsi gərəkliydi,yuxarı hissəsiynən həmişə dalaşmışıq.**

*Aqil ABBAS*

# ƏZRAYILIN ERKƏK-DİŞİLİYİ

## Molla Rəşidin əziz xatirəsinə

**(əvvəli ötən şənbə sayımızda)**

**(hekayə)**

İsti onu lap təntitmişdi. Mağardakı sərinkeşlər yaxalarını cırsalar da az tafovut eləyirdi. Sərinləmənin yeganə yolu çay idi. Əli ilə işarə elədi ki, çay gətirsinlər. Bunu görən lağbaz cavanlar bir-birlərinə göz-qaş elədilər, başlamaq vaxtıdı. Hamı yaxşı bilirdi ki, Rəşid əminin bir şakəri var, əgər söhbət edirdisə çay içməzdi və çay içəndə də söhbət eləməzdi. Çayçı Əziz stəkanı gətirib qoydu Rəşid əminin qarşısına. Kişi əlini atıb stəkanı götürəndə cavanlardan biri:

- Rəşid əmi, bu təsbeh niyə otuz üç dənədi ey?

Stəkanı qaytarıb qoydu nəlbəkiyə. Tərs-tərs sual verən cavana baxıb sözə başladı. Azı iyirmi dəqiqə məlum hədisi danışdı. Fikrini bitirdikdən sonra əli ilə Çayçı Əzizə işarə elədi ki, bu çayı dəyiş.

Çayçı Əziz ikinci stəkanı gətirib qoydu onun qarşısına. Əlini atırdı ki stəkanı götürsün, başqa bir cavan:

- Rəşid əmi, o namərdki məsciddə həzrət Əlinin kürəyinə xəncər vurdu ha, necə olub ki, həmin gün Müaviyəni də öldürməliydilər, amma öldürmədilər?

Yenə stəkanı qaytarıb qoydu nəlbəkiyə, yenə tərs-tərs həmin cavana baxdı. Sonra dəsmal ilə üz-gözünün, boyun-boğazının tərini sildi və başladı həmin hədisi danışmağa. Bir yarım saat da bu çəkdi.

Söhbəti bitirdi. Hirs vurub kişini, boğazı quruyub, yenə işarə elədi ki, tez bu çayı dəyişin. Baxdı ki cavanlar bığaltı gülümsəyirlər.

Üçüncü stəkan gəldi. Əlini çaya atmaq istəyirdi ki, cavanlardan bir başqası:

- Rəşid əmi, o xəndək davasındaki həzrət Əli...

Rəşid əmi cavana sualını tamamlamağa imkan vermədi. Stəkanı götürdü və dedi:

- Ay oğul, ciyərim yanır, qoy bir bu çayı içim. Allah qoysa, onu da sənin dədəyin yasında danışaram.

Məclisi pıqqıltı tutdu. Söz özünə də ləzzət elədi, özü də güldü.

Yenə bayırda bir hərəkətlilik yarandı. Yenə kimsə girib Yas Sahibinin qulağına nəsə pıçıldadı, o da durub çıxdı bayıra.

Fikirləşdi ki, yox ey, bu dəfə gələn mütləq Prorektordu. Yanılmadı. Mağara əvvəl Prorektor, arxasınca da Katib girdi. Beş-altı nəfər ayağa qalxmaq istədi. Katib əli ilə işarə elədi ki, olmaz.

Hər ikisi gəlib onunla əlbəəl görüşdülər və sağ tərəfdə əyləşdilər.

***

Çox qəribə bir təsadüf baş vermişdi. Aşura günü 1 Maya düşmüşdü. Aşurada Qarabağın demək olar ki, bütün rayonlarının camaatı bu şəhərə axışırdı. Ölkədə rəsmi olaraq fəaliyyət göstərən 4-5 məscidin biri də bu şəhərdə idi. Qətl günü məscidin qarşısına bəlkə də 50-60 min adam yığılırdı, iynə atsan yerə düşməzdi. Məscidin ətrafındakı yolları da maşınlar üçün bağlayırdılar ki, camaat əziyyət çəkməsin.

Ehsan verilərdi, şərbət paylanardı, dürməkdə halva paylanardı. Və bu ehsanı da gələn camaat öz gücüylə təşkil edərdi. Kasıbın olanından - kimin evində nə bişirdisə bir qazanını vurub qoltuğuna, gətirirdi bu ehsan süfrələrinə.

Kəlbəcərlilər, laçınlılar özləriylə gətirdikləri say-seçmə qoyunları Məscidin böyründə xüsusi yerdə kəsib iri qazanlarda bozartma bişirərdilər ki, adam yedikcə yemək istəyərdi.

1 May günü təbii ki, Lenin meydanında böyük bir nümayiş olurdu. Məktəblilər, idarə və müəssisələrin işçiləri sıra ilə əllərində də Siyasi Büronun üzvlərinin portretləri, qardaş respublikaların bayraqları gəlib Lenin heykəlinin qabağında quraşdırılmış tribunanın önündən keçirdilər - sevinclə, əl yelləyə-yelləyə, "Urra!" bağıra-bağıra.

Həmişə də nümayişin önündə əlində Stalinin portreti Dəli Kərəm keçərdi. Dəliliyi-filan yox idi, sadəcə elə belə hərəkətlərinə görə "dəli" deyib yola verirdilər. Şüarı da "Yaşasın Stalin" idi. O Stalin ki Dəli Kərəmin nəslinin yarısını güllələtmişdi, yarısını da yük vaqonlarına doldurub göndərtmişdi Qazaxıstana. Və hələ də çoxu elə orda yaşayırdı. Özü də internat uşağıydı.

Lenin meydanına yol Məscidin önündən keçirdi. Nümayiş saat 10-da başlayırdı və bir saatdan da çox çəkirdi.

İndi çıxılmaz vəziyyətə düşmüşdülər. Çünki saat 10-dan da camaat yığılırdı Məscidin önünə.

Raykomun instruktoru gəldi Rəşid əmigilə.

- Rəşid əmi, Katib səni çağırır.
- Ölüsü düşüf?
- Yox.
- Bəs onda Katip məni neyniyir?

İnstruktor güldü:

- Yəqin partiyaya keçirəcək.
- Ay bala, mən İmam Hüseyn partiyasının üzvüyəm, ondan da böyük partiya tanımıram.

Oturdu instruktorun maşınına, gəldilər raykoma.

Katib Allah adamıydı, "Quran"ı da çox gözəl bilirdi. Təkcə İslamı yox, elə bütün dinləri bilirdi. Hətta iclaslarda "Quran"dan misallar çəkməkdən çəkinməzdi.

Rayona gələn kimi də ilk işi iki əsr yaşı olan Məscidin böyür-başındakı, üzbəüzündəki dükanları, yeməkxanaları sökdürmək olmuşdu. Məscidin önünü, üzbəüzdəki ərazini bağ-bağat eləmişdi, gül-çiçək əkdirmişdi. Hələ bir Çay evi də tikdirmişdi. Məscidin önünə bulaq çəkdirmişdi. Yolu məscidin önündən keçənlər və ya namaz qılmağa, nəzir-niyaz verməyə gələnlər hər gün Katibin dədəsinə rəhmət oxuyurdu.

- Rəşid kişi, bilirəm ki, sənin təkcə bu şəhərdə yox, bütün Qarabağda xətir-hörmətin var, ağır kişilərdənsən, səni eşidirlər. Bəlkə bir camaatla danışasan Aşuranı bir saat arxaya çəksinlər ki, biz nümayişimizi keçirə bilək, yoxsa aləm dəyəcək bir-birinə.

Rəşid əminin üzünə bir istehzalı təbəssüm qondu:

- Katip, təh bizim camaat olsa birtəər yola verməy olar. Mən Laçına, Şuşaya, Ağcabədiyə, Bərdəyə, Kəlbəcərə, Stepanakertə nejə çatdırım ki, Aşuraya saat on birdən sonra gəlsinlər. Bir də Qətli nejə arxaya çəhməy olar, saat on ikidə sınır. Bunu mənnən yaxşı bilirsən.
- Bəs indi neyləyək?
- Katip, sənin əlində qəzet var, radyo var, böyük bir təşkilat var. İmkanın var ki məytəvlərə, təşkilatlara xəbər göndərəsən ki, nümayiş saat onda yox, doqquzda başlıyajax. Vəssalam, sənin də işin düz getsin, bizim də.

Katib bir xeyli fikrə getdi, sonra dedi:

- Rəşid kişi, sən doğrudan da deyilən kimi varsan, müdrik adamsan. Qoy elə sən deyən kimi olsun.

Sonra üçüncü katibi çağırıb göstərişlərini verdi.

Rəşid əmi qalxdı ayağa:

- Elə sən də Allah adamısan. Allah işini avand eləsin! İndi gedə bilərəm?

Katib:

- Bir dəqiqə gözlə, - dedi və keçdi arxa otaqdan məxmərə bükülmüş bir kitab gətirdi, - Rəşid kişi, bu da məndən sənə bir hədiyyə. Qurandı, Azərbaycan dilində. - kitabı öpüb verdi Rəşid əmiyə.

Rəşid əmi də kitabı öpüb gözünün üstünə qoydu və dedi:

- Sağ ol, Katip. Maa bunnan böyük hədiyyə ola bilməz.

Və səhərisi gün nümayiş də çox sakit keçmişdi, Aşura da.

***

Söhbətə Katib başladı:

- Rəşid kişi, işlər necədi?
- Elə də yaxşı deyil.
- Niyə?
- Əvvəla, ölənlər çoxalıf. Havadandı, yeməhdəndi, nə bilim nədəndi, həm də cavanlar yaxşı böyümür. Bulvar oluf o iki adam ölənəcən döyüşür ey, onun adı nədi?

Kimsə yerdən dedi:

- Qladiator.
- Hə, hə, qladyator meydanı. Qorxuram bunun axırı heş yaxşı olmaya.

Bu sözü eşidəndə Rəisin bir az rəngi qaçdı.

Katib:

- Rəşid kişi, sən bu rayonun sayılıb-seçilən ağsaqqallarından birisən. Özün də dinimizi, tariximizi bilən bir ziyalısan. Gözəl sözlərini, fikirlərini yas yerlərində deyirsən. Deyirəm bəlkə hərdənbir məktəblərdə sənlə görüşlər keçirsinlər, ya ayda bir dəfə müəllimləri, məktəbliləri yığaq mədəniyyət evinə, sən də bir az dinimizin əxlaqi dəyərlərindən onlarla söhbət edəsən?!
- Sağ ol, ay Katip. Onsuz da özüm hərdən bizim uşaxların oxuduğu məytəvə valideyn iclaslarına gedirəm, orda da sözümü deyirəm.

Yaxşı olar ki, məytəvlərdə tədbirlərin sayı artırılsın, rayon tədbirləri tez-tez olsun, uşaxların başı qarışsın belə tədbirlərə, bulvardan, bazardan, çayxanalardan yığışsınlar. Bayaq Rəyisə də deyirəm, özü də hələ uşax milisi də var, bir çıxsınlar bazara, meydana, çayxanalara. Əvvəllər internat uşaxları olardı, indi az qala bütün məytəvlərin uşaxları elə internat uşaxları ola! Yaxşı ki Yusif müəllim var, heç olmasa bu dəjəl-düjəl uşaxların çoxunu küçələrdən yığıf-yığışdırıf gətirif idman məytəvinə.

İdman məktəbinin direktoru Yusif müəllim də məclisdəydi. Təbii ki, rayona yeni gəlmiş Katibə onun haqqında deyilən xoş sözlərdən məmnun oldu, başı ilə də Rəşid əmiyə bir təşəkkür elədi.

Katib:

- Rəşid kişi, çox düz buyurursan . Elə bu yaxınlarda fikrim var rayon ziyalılarını yığım bir yerə, elə siz də orda olasız, bu dediklərinizi də, həm də demədiklərinizi orda bir müzakirə eləyək.
- Katib, bilirəm Xuduynan, Bəxtiyarnan, Nurəddin doktornan, elə bizim Şahmarnan bərk dossan. Onnar da tez-tez rayona qonax gəlirlər, sən də onnarı götürüf aparırsan Şuşuya, ya Dəlidağa. Yaxşı eliyirsən. Amma onnar gələndə təşkil elə qoy mədəniyyət evində, məytəvlərdə görüş keçirsinlər. Onnarın sözü mənim dedihlərimdən daha ötkəm olar. Onnar məndən müdrik adamlardılar. Öyün Zeynal məllimə deyirəm, deyirəm ki, bu qojaları başına yığıf Füzulidən danışdığını get məytəvlərdə uşaxlara danış. Sən gəl Zeynal məllimi maarif midiri qoy ey, həmkarları hamı işdədə bilər.

Katib güldü:

- Neçə dəfə demişəm, deyir yaşım keçib, təzədən məktəblərlə işləyə bilmərəm.
- Partiyanın əsgəri döyül? Hara deyirlər ora da getməlidi dana.

Katib:

- Rəşid kişi, yaxşı bilirsən ki, o partiyadan çox, Füzulinin əsgəridi.

Məclisin qırışığı təmiz açılmışdı. Katibin Rəşid əmiylə belə səmimi söhbəti hamıya ləzzət eləmişdi.

Prorektor da sakitcə oturmuşdu, söhbətə qarışmırdı.

Sonra Katib dedi:

- Rəşid kişi, bəlkə bir Fatihə verəsən, iş çoxdu. Professor da qonağımızdı. İstəyirəm rayonda gedən işlərlə yaxından bir tanış olsun. İcazə versən, sonra lap Şuşaya da apararam.

Rəşid əmi güldü:

- Katip, hamı icazəni sənnən alır.

Katib:

- Rəşid kişi, buranın da katibi sənsən də.

Bir "Fatihə" verdi. Katib Prorektorla qalxdı, yenə Rəşid əmiylə əlbəəl görüşdülər, sonra da onların ardınca Prokuror, Rəis Yas Sahibinə başsağlığı verib çıxdılar.

Rəis çıxmamışdan əvvəl gəldi Rəşid əminin yanına. Cibinə bir əllilik basdı:

- Rəşid əmi, dədəmə bir Quran oxuyarsan.
- Nayran olma, bir hazır surə var, tapşıraram dədənə.

Rəis başını bulaya-bulaya güldü və çıxdı.

Onları yola salandan sonra Yas Sahibi gəldi Rəşid əminin yanına, qulağına pıçıldadı ki, axşam saat 9-dan sonra gedərsən Qonaq Evinə, Prorektor səni gözləyəcək. Dedi ki, arxayın olsun.

- Amanatı da aparım?
- Yox. Amanatı səhərdə-birisigündə mənə çatdırarsan, qaçhaqaç deyil ha. Özü də dedi ki, kasıb adamdı, on min çoxdu, elə beş min versə bəsdi.
- Allah onun da, sənin də balalarını saxlasın. Dədənə də elə bir yasin oxuyajamkı cənnətdə nə qədər huri-qılman var yığışajax başına. Elə burdakı kimi orda da kef partdadajax.

Sonra da yerini rahatladı, yenə bir stəkan çay içdi və başladı şirin avazla "Yasin" surəsi oxumağa.

Yas Sahibi də gözlərini yumub ləzzətlə qulaq asırdı və dədəsini cənnətdə huri-qılmanların arasında təsəvvür edirdi.

Amma bilmirdi ki, bu dəqiqə dədəsini Qarağacıda inkir-minkir salıb çubuğun altına, bu dünyada etdiyi günahlara görə şülüyürlər.

***

... Dayanmışdı Küllük təpənin üstündə. Haçansa bu təpə də qəbiristanlıq olmuşdu. Özü də çox qəribəydi ki, burda müsəlman məzarlarının arasında neçə-neçə xristian qəbiri də vardı. Səbəbini heç bilən də yoxuydu. Bu təpədən şəhər əl içi kimi görünürdü. Baxırdı yanan şəhərinə. Göydən od yağırdı şəhərə. Təpənin yanından keçən yolda maşın-maşına dirənmişdi. Yüzlərlə də adam pay-piyada. Bəzilərinin də qucağında, boynunda uşaqlar üz tutmuşdular yaxın kəndlərə.

Müharibə başlayandan yüzlərlə şəhidi dəfn eləmişdi. Heç çoxuna ölü namazı da qılmamışdı, çünki vaxt yoxuydu. Yas yerlərini çatdırmaq olmurdu. Qarağacı da Əsgəran tərəfdən güllə altında qaldığından şəhidləri də tələm-tələsik basdırırdılar. Məsciddən sayı hesaba gəlməyəcək qədər şəhid kəfənlədib haqq dünyasına yola salmışdı.

Çoxlarını heç kəfənləmək də olmurdu, ya parça-parçaydılar, ya da yanmışdılar deyin əyindəkiləri çıxarmaq olmurdu. Məcbur olub hələ qanlarının, yaralarının üstünə torpaq səpdirirdi, sonra da elə geyimli-gecimli kəfənlədirdi, belələrini tabutda basdırdırdı. Bəzilərinin üstündən heç sənəd də çıxmırdı, haralı olduqları, kim olduqları bilinmirdi. Məscidin axundu Barata deyirdi ki, bunların şəkillərini çəkdir, qəbirlərini də nömrələ vur dəftərə, bir gün sahibləri çıxar.

İndi isə gözünün qabağında şəhəri şəhid olurdu - "Quran"sız, Fatihəsiz.

Baxırdı və fikirləşirdi ki, 70 il qulluğunda durduğu Allah bu zülmü nətəhər götürür. Təkcə şəhərdəki evlər yanmırdı, təkcə camaatı qırılmırdı, şəhid olmurdu, bu şəhərin duzu da, zarafatları da, suyu da, havası da şəhid olurdu.

Bu şəhər şəhid olmalı şəhər deyildi axı...

Və şəhər yanırdı. 70 ildən çoxuydu hər namazda, hər "Quran" oxuyanda Allahdan əmin-amanlıq istəmişdi, bu millətə xoş günlər arzulamışdı, bu şəhərə xoş günlər arzulamışdı. Və indi nədənsə Füzulinin bir beyti dolanırdı başında:

"Allah, bu nə zülm, bu nə sitəm,
Qiyami qiyamətlər içində bu qiyamət".

İndi qiyamət günü deyildi, bəs, onda bu nə qiyamət idi, bu nə zülm idi, bu nə sitəm idi? Allah bu 70 ildə onun dualarını eşitməmişdimi? Və Allah bu zülmü, bu qiyaməti görmürdümü? Elə isə Allah niyə susurdu? Niyə göz yumurdu bu zülmə, bu qiyamətə?

Və birdən-birə şəkk elədi. Və çöndü oğluna dedi:

- Allah yoxdu, oğul!

Və çox qəribədi ki, Allah onun 70 illik dualarını qəbul etmədiyi halda, şəkkinə qəzəbləndi və bir "Qrad"ı düz Küllük təpəyə tərəf uçurdu.

---

# Apreldə hövlank oyanış:

# Erməni döyüşçülərdən "Harop" kababı

*İkinci hissə*

**(oçerk)**

**Gecə saat 03:00. Otağa qaranlıq hökm oxuyur. Birdən qırmızı telefon zəng çalmağa başlayır. Ermənistan müdafiə naziri Seyran Ohanyan hövlank qalxaraq təcili zənglər üçün nəzərdə tutulmuş qırmızı telefonun dəstəyini qaldırır. Dəstəyin o biri başında çapar həyəcanlı səslə dillləndi:**

***- Cənab nazir, sizin nazirlik binasına gəlməyiniz xahiş olunur.***

Seyran Ohanyan məsələnin nə olduğunu bilsə də tövrünü pozmadan soruşdu:

***- Nə məsələdi, nə olub?***

***- Cəbhədə vəziyyət gərginləşib, təcili müdaxilə etməyiniz istənilir.***

Ohanyan bir balaca gülümsəyib, alnını ovuşdurdu və dedi:

***- Yarım saat sonraya iclas təyin edilib, hər kəs orada olsun. Mən də gəlirəm.***

Yavər təəccüblə oldu dedi...

***

Gecə saat 03:45... Seyran Ohanyan nazirlik binasının xüsusi iclas zalına daxil olur. Burada onu müavinləri, generallar və cəbhə bölgəsindən indicə gəlmiş polkovnik Ararat Melkumyan qarşıladı. Nazir heç kimlə bir kəlmə də kəsmədən gəlib yerində əyləşdi. Bir-bir generalları süzdü. Araya çökmüş dərin sükutu yorğun-əzgin səsi ağır-ağır pozdu:

***- Nə baş verir? Hər şey istənilən vəziyyətdədirmi?***

O, heç kimdən səs çıxmadığını görüb, üzünü Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının kəşfiyyat idarəsinin rəisi general-mayor Arşak Karapetyana çevirdi.

Karapetyan bir anlıq duruxdu, ancaq özünü itirmədən ayağa qalxdı.

Boğazını artdayıb sözə başladı:

***- Cənab nazir, aprelin 1-i gecədən başlayan Ermənistan və Azərbaycan sərhəddindəki gərginlik ən pik həddə çatıb. Azərbaycan ordusu bir neçə istiqamətdən ordumuza güclü zərbələr endirir.***

Seyran Ohanyan əsəbi şəkildə onun sözünü kəsdi.

***- Başa düşə bilmirəm. Azərbaycan bizim üzərimizə qəfil hücum edib ki? Axı birinci biz hücuma keçmişdik. Əgər buna hazır deyildiksə, onda buna nə ehtiyac vardı? Niyə əvvəlcədən düşmənin gücü dəqiq müəyyənləşdirilməmişdi? Elə sualım birbaşa sizədir, yoldaş Karpateyan. Axı siz kəşfiyyat məlumatlarını bizə çatdırlmalı idiniz?***

Arşak Karapetyanın rəngi saraldı, dili topuq vurmağa başladı:

***- Mən... Mən... Cənab nazir...***

Seyran Ohanyanın hirsi hələ də keçməmişdi. Məzəmmətinə davam etdi:

***- Bəsdirin. Sizə bir iş tapşırılanda layiqincə öhdəsindən gəlmək lazımdır. İndi burada lal olduğunuza, vaxtında hücum planı hazırlayanda lal olardınız. Bu qədər generalsınız, əlinizdən bir iş gəlmir.***



Ohanyan alnını ovxalamağa başladı. Bir müddət fikirləşəndən sonra yenidən sözə davam etdi:

***- Yenə gərək işə özüm qarışım. Sizin əlinizdən bir iş gəlmir. Təcili bütün qoşunları cəbhəyə göndərin, bu biabırçılığın qarşısını alın. Mən də cənab prezidentimiz Sarksiyanla şəxsən görüşəcəyəm. Görək siyasi manevrlərdən istifadə edərək, düşmənin əks-hücumlarının qarşısını ala bilirikmi. Sən də Karapetyan otur görək.***

Nazirin müavini Alik Mirzabekyan vəziyyətin çətinliyi görüb söz almaq üçün müraciət etdi. Ohanyan başı ilə təsdiqlədikdən sonra ayağa qalxdı:

***- Cənab nazir, vəziyyət biz düşündüyümüzdən daha qəlizdir. Cəbhədən birbaşa bura gələn polkovnik Ararat Melkumyanın raportuna əsasən deyə bilərik ki, belə davam etsə, sabah döyüşməyə əsgər tapa bilməyəcəyik. Düşmənin ardıcıl uğurları əsgərlər arasında çaxnaşma yaradıb. Hücum vaxtı əsgərlər hərəsi başını götürüb, bir tərəfə qaçışır. Bir çox hallarda əmrə tabe olmaqdan belə imtina edirlər. Əsgərlər arasındakı motivasiyanı artırmasaq işimiz cəncəl olacaq.***

Seyran Ohanyan əlini masaya çırpıb, boğuq səslə qışqırdı:

***- Heç olmasa bunu özünüz həll edin. Buna dair də bir planınız yoxdur?***

Arşak Karapetyan fürsəti fövtə verməmək üçün dərhal dilləndi:

***- Cənab nazir, əslində bir planımız var. Təbii ki, əgər siz də məsləhət görsəniz, günü sabah tətbiq edərdik.***

***- Nədir o, elə. De görək, hələ.***

***- Cənab Ohanyan, düşünürük ki, Birinci Qarabağ Müharibəsi dövründə uğur qazanmış, qələbə çalmış bir qrupu ora yollayaq. Bu həm əsgərlərdə ruh yüksəkliyi yaradar, həm də qələbəyə inamı artırar.***

***Düşünürəm ki, Sünik batalyonu bunun üçün ən uyğun seçimdir. Batalyonun sağ qalan üzvlərini sabah xüsusi təmtəraqla cəbhəyə yollayaq. Mətbuata da onların könüllü döyüşmək istədiklərini deyək. Bu şou bizim əlimizi bir xeyli gücləndirəcək. Sünik batalyonu o illərdə, amansızlığı ilə ad çıxarmışdı. Bu adı eşidən düşmən tərəfi də tir-tir titrəyəcək.***

Bu təklif Seyran Ohanyanın ağlına batdı. Ancaq nəsə deyib məsuliyyəti üzərinə götürmək istəmədiyi üçün, ayağa qalxıb otaqdan çıxdı. Bu da iclasın yekunlaşdığı demək idi...

***

Səhər, saat 12:00... Azərbaycan-Ermənistan cəbhəsinin şimal hisəsi Ağdərə rayonu. Kənd meydanında böyük bir tonqal qalanıb. Ətrafına Sünik batalyonunun döyüşçüləri, məktəbli uşaqlar, rayon rəhbərliyi yığışıb. Musiqi səsləri göyə yüksəlir, döyüşçülər rəqs edirlər.

Məktəblilər də onlara qoşulub gah oynayır, gah da vətənpərvərlik şeirləri səsləndirirlər. Sünik batalyonunun döyüşçüləri tez-tez onlara silah verir, avtomatdan istifadə qaydalarını öyrədirdilər. Birdən musiqi səsi kəsildi. Veteran Aleksanyan bərkdən qışqıraraq sözə başladı:

***- Biz bu torpaqlarda bir dəfə qələbə qazandıq. İkinci dəfə qələbə qazanmağa gedirik. Buradakı uşaqlara, məktəblilərə üzümü tutub deyirəm. Bu türklər ki, onlarla döyüşmək çox çətindi. Gərək onlara qarşı çox amansız olasınız. Balaca uşağından, böyüyünə qədər hər birinə qarşı rəhimsiz olmaq lazımdır. Yoxsa işimiz çətin olar.***

Yerdən "Urraa!" deyə qışqırıq səsləri yüksəldi. İcma sədri qışqıra-qışqıra danışmağa başladı:

***- Hayde igidlər! İrəli!***

Sünik batalyonun üzvləri bir-bir alqış sədaları altında avtobusa mindilər. Avtobus yavaş-yavaş irəliləməyə başladı...

***

***- Cənab Həmidov, yeni kəşfiyyat məlumatı əldə etmişik. Torpaqlarımızda qətliamlar törətmiş, uşaq-yaşlı, qadın demədən hər kəsi amansızca qətlə yetirmiş Sünik batalyonu cəbhəyə gəlir.***

***- Niyə gəlir? Nə ölümləri qalıb?***

***- Ermənistan cəbhəsində gərginlik yüksək həddə çatıb. Əsgərlər qorxularından gizlənməyə deşik axtarırlar.***

***Onlara ürək-dirək verməyə Sünik batalyonunun veteranlarını göndərirlər.***

***- Bu yaxşı xəbər oldu. Bu deməkdir ki, qisas günü yetişib. Sünik batalyonunu bu yerlərdə gömməliyik. Yüzlərlə şəhidimizin qisası alınmalıdır.***

***- Oldu, cənab Həmidov.***

***- Yuxarıya raport edirəm. Görək nə məsləhət görürlər.***

***

Saat 14:00. Sünik batalyonunu daşıyan avtobus kəskin döngəni burulub, üzü cəbhəyə tərəf irəliləyirdi. İçəridəki döyüşçülərin qışqırıqları dağa-daşa yayılırdı.

***- Ara çatırıq. Az qalıb. Türklərin qanını içəcəyik.***

***- Qarabağ bizimdir. Həmişə də bizim olacaq.***

***- Qabaqlarında uşaq görüblər, qoy bizi yenidən xatırlasınlar.***

***- Türklər günlərini görəcək.***

***

**14:05... Azərbaycan cəbhəsindən "Harop" pilotsuz hava aparatı havaya yüksəldi. 135 kiloqram çəkiyə sahib "Harop" saatda 185 km/saat sürətlə irəliləyirdi. 23 kiloluq partlayıcı ilə birlikdə Qarabağ səmasında manevrlər edirdi. Çox keçmədi ki, hədəf göründü. "Harop" avtobusun üstündə sağa-sola uçuşurdu. Hədəf təyin olundu. Avtobusun içərisindən söyüşlər, qışqırıqlar, qələbə mahnıları havaya yüksəlirdi. Cavabında havadan üzüaşağı bomba göndərildi. Ədalət bərpa olundu. Sünik batalyonu bütün heyəti ilə bərabər qana buladıqları torpaqlara gömüldülər. Aprel döyüşləri isə davam edirdi...**

**Emin Piri**

---

**Soner Yalçın**

# Buça qətliamı



*"Rusiya ilə Polşanın sərhəddində kiçik bir şəhər var idi. Heç kim o şəhərin hara bağlı olduğuna əmin ola bilməzdi. Bir gün rəsmi müqavilə imzalandı və az sonra kartoqraflar gəlib sərhəd xətti çəkdilər.*

*Kəndlilərdən bəziləri yaxınlıqdakı təpədə onlara yaxınlaşdı.*

*- Biz indi haradayıq, Rusiyada, yoxsa Polşada?*

*-Bizim hesablamalara görə, kəndiniz indi sərhəddən Polşaya doğru otuz yeddi metr içəridən başlayır.*

*Kəndlilər dərhal sevinclə rəqs etməyə başladılar.*

*-"Niyə?" deyə kartoqraflar soruşdular, "nə fərqi olacaq?"*

*Kəndlilər: "Bunun nə demək olduğunu başa düşürsünüzmü?" dedilər. "Biz daha o dəhşətli rus qışlarına dözmək məcburiyyətində qalmayacağıq!".*

*Çox ağrılı bir hadisə üzündən üzünüzdə təbəssüm yaradan bu xatirə yadıma düşdü: Buça qətliamı...*

*Otuz min əhalisi olan kiçik şəhərdə mülki geyimli 280 adamın öldürüldüyü qırğın...*

*Buça 1898-ci ildə eyni adlı çay kənarında kiçik bir qatar stansiyasının tikintisi ilə yaranan qəsəbədir.*

*Onun sərhədi bu gün Ukrayna və ya Rusiya daxilində qalsa da, Buça əhalisi Polşa kəndliləri kimi bu ayrılığı sadəlövhlüklə xatırlamayacaq.*

*Dünya da iki yerə bölündü: Buça kütləvi qətlini kim etdi?*

*Müharibədə ilk itki həmişə həqiqətdir...*

*BİRİNCİ: Uzaq ABŞ*

*Fransız filosofu Jan Pol Sartrın dediyi kimi: "Müharibəni varlılar başlayır, kasıblar ölür".*

*Söhbət Buça qırğınından gedir.*

*Biz Ukrayna-Rusiya müharibəsini müzakirə edirik.*

*Müharibənin niyə başladığını, kasıbların niyə öldüyünü unuduruq!*

*ABŞ-ın Ukraynanı vədlər verməklə aldatdığını unuduruq!*

*Onlar həmişə bizə əsl həqiqətləri unutdururlar!*

*Qərb mənbələrinə istinad edim:*

*Stokholmda yerləşən Beynəlxalq Sülh Araşdırmaları İnstitutu/SIPRI 1966-cı ildən bəri hərbi xərclər və silah ticarəti ilə bağlı məlumatları dərc edir.*

*Yekun hesabatını 14 mart 2022-ci ildə rəsmi saytında dərc etdi:*

*- 2012-16 və 2017-21-ci illər arasında əsas silahların beynəlxalq təhvilləri bir qədər azaldı; -4,6 faiz.*

*Bununla belə, ABŞ və Fransadan Avropaya (+19%), Şərqi Asiyaya (+20%) və Okeaniyaya (+59%) ixrac əhəmiyyətli dərəcədə artıb...*

*ABŞ 2012-16 və 2017-21-ci illər arasında silah ixracını 14 faiz artıraraq qlobal payını 32 faizdən 39 faizə yüksəldib.*

*ABŞ-ın silah köçürmələrinin 43 faizi Yaxın Şərqin payına düşür. Dünyanın ikinci ən böyük silah idxalçısı olan Səudiyyə Ərəbistanının silah alışı 2012-16 və 2017-21-ci illər arasında 27 faiz artıb. Qətərin silah alışı 227 faiz artaraq, 22-ci ən böyük silah idxalçısından 6-cı ən böyük silah idxalçısı olub. (Bir neçə il əvvəl ortaya çıxan süni Qətər böhranını xatırlayırsınız, elə deyilmi?)*

*- Misirin silah idxalı 2012-16 və 2017-21-ci illər arasında 73 faiz artaraq onu dünyanın üçüncü ən böyük silah idxalçısı edir.*

*İcazə verin davam edim:*

*2 TRİLYON DOLLAR*

*SIPRI hesabatında deyilir:*

*Dünya regionları arasında silah idxalında ən böyük artım Avropada olub. 2017-21-ci illərdə Avropa dövlətlərinin əsas silah idxalı 2012-16-cı illərlə müqayisədə 19 faiz çox olub. Bu, qlobal silah transferinin 13 faizini təşkil edib.*

*-Avropanın ən böyük silah idxalçıları İngiltərə, Norveç və Hollandiya...*

*- Digər Avropa dövlətlərinin də yaxın onillikdə silah idxalını əhəmiyyətli dərəcədə artıracağı gözlənilir, çünki onlar son vaxtlar böyük silahlar, xüsusən də ABŞ-dan döyüş təyyarələri üçün böyük sifarişlər veriblər...*

*Avropa niyə bu qədər silah almağa başladı?*

*SIPRI-nın baş elmi araşdırmaçısı Pieter D. Wezeman deyib: "Əksər Avropa dövlətləri ilə Rusiya arasında münasibətlərin kəskin şəkildə pisləşməsi Avropadan silah idxalında artımın əsas amilinə çevrildi, xüsusən də bütün ehtiyaclarını milli silah sənayeləri hesabına ödəyə bilməyən dövlətlər üçün".*

*Siyasi böhranlara kim səbəb olur - ABŞ! Səbəbi aydın deyilmi? Yalnız pandemiya olmasına baxmayaraq, 2020-ci ildə dünyada silaha xərclənən pul 2 trilyon dollar olub.*

*ABŞ-ın niyə israrla müharibə alovu olduğunu başa düşürsünüzmü?*

*Buça qətliamının, xüsusən də Qərb televiziyasında dəfələrlə yayımlanmasının səbəbini başa düşürsünüzmü: Qorxu yaratmaq!*

*SIPRI aydın şəkildə yazdı:*

*-"Ukraynadan Efiopiyaya davam edən silah təhvilləri silahlı münaqişənin təsirlərinə məruz qalan mülki əhali üçün təhlükə və müharibə edən tərəflər üçün sülhə maneə yaradır."*

*Mənə deyə bilərsinizmi Buçaa qətliamını kim həyata keçirdi?*

*Dilimizə uyğunlaşdıran:*
*Eminquey*



*Natiq Məmmədli*

# CƏLLADLARIN SÖZ OYUNU

**Uzun illər Katın və Xatın faciələrini səhv salırdım. Sən demə bunu qəsdən edblərmiş. Sovet hökuməti 1940-cı ildə Dnepr sahilindəki Katın kəndində 22 min Polşa zabitini güllələyib məhv edir.**

**Təsəvvür edin alman faşistləri Ukraynanı tutanda kütləvi məzarlığı tapır və ictiamiləşdirirlər. Sovet hökuməti deyir biz eləməmişik. Müharibə qurtarandan sonra isə tez-tələsik Belarusun Xatın kəndindəki faciənin təbliğinə başlayırlar, baxmayaraq ki, Belarusun başqa kəndlərində faşistlər daha çox adam qırmışdı. Bəs niyə məhz Xatın? Çünki sovet ideoloqları Katını dünyanın yaddaşından silmək istəyirdilər. Yalnız 1989-cu ildə Qorbaçov cinayəti etiraf edib Poşladan üzr istədi. Qəribə bilirsiniz nədi? Nürnberq məhkəməsindəki müttəhimlər deyirdilər ki, biz heç kimi öldürməmişik, biz Almaniyanın sənayesi üçün çalışmışıq. Deməli, həbs düşərgələrnin adını qoyublarmış istehsalat müəssisəsi, insanları kütləvi şəkildə qırılmasına da istehsalat deyirmişlər. Hətta bəziləri buna səmimi şəkildə inanırmış da...**

**Xocalı cəlladları da eyni sözü deyirdilər. Azərbaycanlılar özləri özlərini qırıb...**

**Hazırda Haaqa zindanına ömürlük həbsə atılan Serebrenitsa qatili Karaçiç hələ də özünü günahkar saymır...**

**XXI əsrin ilk soyqırımı baş verib - Allahın və sivil dünyanın gözü qabağında balaca şəhər Buça növbəti vəhşiliyin şahidi olub. Deyirlər, bizim xəbərimiz yoxdu, özləri edib...**

**Tarix təkrarlandıqca cəlladların söz oyunu davam edir... Allahın və sivil dünyanın gözü qabağında...**



*Eminquey*

# Klubda yaralanan Aysel, ölən Fərqanə, İP "partladan" mətbuat

***Xalq böyük anlayışdır. Min cür insan var. Axmağı, ağıllısı, yaxşısı, pisi, bəyi, gədası, ağırı, yüngülü, dindarı, dinsizi. Hər ağızdan bir avaz gəlməyi normaldır. Bir bədbəxt hadisəyə sevinənlər də ola bilər, kədərlənənlər də. Nəticədə heç kim bir-birinin önündə məsuliyyət daşımır. Uzaqbaşı inciyərsən, uzaqbaşı linç edərsən, lap belə söyərsən, dalaşarsan.***

***Amma mətbuat...***

***Mətbuat xalqın dili ola bilər, amma xalq deyil.***

***Mətbuat birbaşa məsuliyyət daşıyan orqandır.***

***Bəs bu məmləkətin mətbuatı nə işlə məşğuldur?***

***"Klubda ölən Ayselin yeni fotoları" başlığı ilə xəbər yayımlayan mətbuat orqanının nənəm demiş, boyuna İP ölçüm!***

***Mətbuat orqanı olmaqdan çox mətbuatın "orqan"ı olan bəzi saytcığazlar klubda dünyasını dəyişən qızların fotolarını, videolarını yaymaqla aqressiv, mühafizəkar kütlənin söyüşü, ağır ifadələrilə özlərinə xal qazanmaq yolunu seçiblər. Təəccüblənmirəm, qəzəblənirəm. Bu saytları yaxşı tanıyıram. Onların önünə qoyulan tələblərdən də aşağı-yuxarı xəbərim var. Bilirəm ki, redaktorları, müxbirləri nəyin peşindədirlər. Amma bu vicdansızlıqdır!***

***Əvvəla normal ölkələrdə klub əyləncə yeridir. İnsanlar gündəlik stresslərini bu məkanlarda atırlar. İçki, rəqs, dost-aşına. Yalnız bizim kimi həyatı, əyləncəsi yarım qalan ac cəmiyyətlərin klub anlayışı belə ola bilər. Bizim insan üçün klublar ona görə əxlaqsız yuvasıdır ki, həqiqətən də kişili-qadınlı əksəriyyət o klublara əyləncə yox, əxlaqsızlıq məqsədi ilə gedir. Əylənmək, yüngülləşmək üçün gedənlər də bunların oduna yanır. Gedə bilməyənlər isə gedənlərə həmişə nifrətlə yanaşırlar. Halbuki əksəriyyəti elə o bahalı klubların yan-yörəsində sülənib qız peşindədirlər. Ki, aha, bu dəqiqə o klubdan bir qız çıxacaq, düşüm dalınca. İkincisi, yaxşı, tutaq ki, bu klublar əxlaqsızlıq yuvasıdır, bundan kimə nə? Kiminsə əxlaqının keşiyini çəkmək sizə qalıb? Bura İrandı? Siz də əxlaq polisisiniz? Və nə üçün klub deyiləndə əxlaqsızlıq damğası ancaq qızlara yapışdırılır? Orada oğlanlar olmur? O oğlanlar kluba girib fəlsəfə icad edirlər? Ya dindən moizə-zad oxuyurlar, xəbərimiz yoxdur?***

***Üçüncüsü, klublar haqqında təsəvvür budur ki, ora getmək üçün mütləq çoxlu pulun olmalıdır, halbuki 20-30 manatla da orada əylənmək mümkündür. Amma bu fikir niyə belə formalaşıb? Ona görə ki, bizimkilərin beynində "klub" sözü "fahişəxana" kimi oturuşub. Ona görə ki, o klublara girən kişilər əylənmək yox, mübarəkbazlıq peşindədirlər. Bu da yalnız çoxlu pulun hesabına mümkündür. Kim ki o klublara bu niyyətlə getmək istəyir, bəli, onlar üçün klublar fahişəxanadır, oraya çoxlu pulu olanlar girə bilər.***

***Dördüncüsü, bu partlayışı Ramazan ayına calayanlar sanırlar ki, həm özləri əsl müsəlmandırlar, həm də bütün ölkə İslam dini ilə yaşayır. Halbuki nə özləri belədir, nə də digərləri. Və guya ki, Ramazan ayında heç kim kluba gedə bilməz. Əgər öz dininə hörmət istəyirsənsə, sən də digərlərinin düşüncəsinə hörmət etməli deyilsənmi? Gözünün önündəmi əylənir? Evinin içindəmi əxlaqsızlıq edir? Sən məscidə gedəndə klubda əylənənlər gəlib qolundan tutub saxlayırmı ki, niyə məscidə gedirsən? Azan veriləndə kimsə ağız büzürmü ki, niyə Azan verilir? Sən öz inancını yaşayırsan, onlar öz inancını. Və hələ o da şübhəlidir ki, sən öz inancını doğru-düzgün yaşayırsan, yoxsa o klubda əylənənlər? Əminəm ki, sosial şəbəkə əxlaq, din dərsi keçənlərin əksəriyyəti öz inancıda nə səmimidirlər, nə də doğru. Amma əminəm ki, hətta o klubun əxlaqsızı belə öz yoluna sadiqdir.***

***Deyirlər ki, Ramazan ayında kluba getdikləri üçün Allah onları cəzalandırıb. Guya ki Allahın işi-gücü qurtarıb, dünyada bütün məsələlər həll olunub, qalıb Bakıdakı hansısa gecə klubu. Gözümüzün önündə Ukraynada o boyda hadisələr baş verir, Allah Ukraynanı yaddan çıxarıb, düşüb hansısa balaca bir klubun dalınca ki, görüm Ramazan ayında bu kluba kimlər girir?! Tez elə edim ki, o klub partlasın. Beşincisi, ölənlərin ölümü qalsın bir qırağa, hətta yası ilə məzələnənlər. Məsələn, bu xalqın sənətçisi Nadir Qafarzadə. Kişinin oğlu deyib ki, anası klubda ölən qızını nə deyib ağlayacaq? Təsəvvür edirsiniz də, bir insan, hələ-hələ sənətçi belə bir yanaşma sərgiləyir. Rəzillik deyilmi? Guya ki, Nadir Qafarzadə özü atom parçalayıb çörək qazanır. Ölkənin gələcəyinə fayda verir. Ömründə heç vaxt klublarda olmayıb. Oğlu da Roma Papasıdır. Oxuduğu restoranlarda da toyun axırında diskoteka olmur. Və o diskoteka hissəsində də heç kim tullanıb-düşmür. Və hamı da o toylara çox abırlı-ismətli geyinib gedir. Elə o toylarda bir-birilə tanış olanlar az deyilmi? Özü də məhz o diskoteka hissəsində. Elə o toylarda keflənib heyvan kimi rəqs edənlər azdırmı?***

***Altıncısı...***

***Nə isə.***

***Yaz-yaz bitməz bu mövzu.***

***Qayıdaq əsas mətləbə - mətbuata!***

***Hə, klubda ölənlərin, yaralananların şəxsi həyatı ilə oxunuş qazananlara. Bu o mətbuatdır ki, matəm günlərində "genosid", "soyqırım" kimi sözlərlə dolu yazılar, xəbərlər yayımlayır. Yəni əliyalın insanların ölümünə haqq qazandırmır, əksinə pisləyir. Klubda ölənlərin hansı silah dayamışdı başınıza? Hansı sizə qarşı savaş elan etmişdi? Heç biri. Bəs niyə bu insanların ölümü üzərindən çörək qazanırsınız? O çörəyi evinizə necə aparırsınız? Paylaşdığınız xəbərlərin altındakı söyüşlər, aqressiya bir gün özünüzə qayıtmayacaqmı? Qayıdacaq! Çörəyi onun-bunun çılpaq görüntülərindən çıxan sizsiniz də! Mətbuatı gözdən salan, boyunu yerə soxan sizsiniz də! Şəhərin mərkəzində partlayışda insanlar ölür, siz isə öz saytınızda "partlayış" etmək üçün min hoqqadan çıxırsınız. Bunun özü də əxlaqsızlıqdır!***

***Və sizin uşaqları, qocaları, qadınları öldürüb bundan həzz alan ermənidən heç bir fərqiniz yoxdur.***

# Güclü küləklər...

## Bakıda iki məktəbin dam örtüyünü güclü külək qopardı

**Hamımız yaxşı bilirik ki, Bakıda tez-tez güclü küləklər əsir. Və bu güclü küləklər zamanı da bir çox qəzalar qaçılmaz olur. Ən çox da ağaclar kökündən qırılır, binaların dam örtüyü qoparılır və eyni zamanda avtomobil yollarında hava şəraitini nəzərə almayan iri tonnlajlı maşınlar aşırlar. Təbii ki, həmin iri tonnlajlar maşınların aşmasına səbəb hava şəraitinin küləkli olmasını nəzərə almamaq və yük maşınını yüksək surətlə idarə etməkdir. Sözümüz heç də bununla bağlı deyil. Sözümüz ondan ibarətdir ki, bu cür küləkli havalara yaşayış binalarının və məktəblərin dam örtükləri tab gətirmir. Yəni Bakının güclü küləyindən dam örtükləri qoparaq yerə düşür və nəticədə yeni tikilmiş binalara ziyan vurmaqla insanların həyatı üçün də mövcud təhlükə yaranır.**

Məktəblərin dam örtüyü ilə bağlı bir qədər ətraflı söhbət etmək istəyirik. Təbii ki, məktəblər inşa ediləndə keyfiyyətli tikilməli və bütün standartlara cavab verməlidi. Təəssüf ki, biz bəzi hallarda bunun əksini görürük. Çünki dəfələrlə küləkli havalarda məktəblərin dam örtükləri qopub və yerə düşüb. Bu isə o deməkdir ki, dam örtüyü həyətə düşürsə, orda nə qədər xəsarət ala biləcək şagird və müəllimlər var. Xoşbəxtlikdən həmin dam örtüklərini külək qopararkən yerə düşəndə ölüm-itim hadisəsi baş verməyib. Amma baş verə də bilər!

Bu barədə ciddi düşünmək lazımdı. Çünki düşünmədiyimizə görə, hər şeyə barmaqarası yanaşdığımız üçün Bakıdakı güclü küləklər zamanı belə hadisələr tez-tez baş verir.

Aprelin 4-də də Bakıda və əyalətlərdə əsən güclü külək fəsadsız ötüşmədi. Bunun ən böyük fəsadlarından biri Abşeron rayonunda və eləcə də Bakının Suraxanı rayonunda iki məktəbdə dam örtüyünün qopması ilə nəticələndi. Yenə Allah insanları çox istədiyinə görə bu hadisələr dərs zamanı olub və həyətdə şagirdlər yox imiş. Deməli, Allahın yenə bizə yazığı gəlir. Allahın hər dəfə bizə yazığı gəlir, o binaları inşa edənlərin isə nə şagirdlərə, nə də müəllimlərə yazığı gəlmir. Keyfiyyətsiz tikinti ilə və el dilində demiş olsaq, "basməmmədi iş görməklə" podratçı təşkilatlar qaz vurub qazan doldururlar.



Məktəb tikilməmişdən və əsaslı təmir edilməmişdən öncə hansısa şirkət tenderdə iştirak edir və o, tenderin qalibi olur. Və tenderdə də hər şirkət qalib ola bilməz. Bizdə də bu məsələlər dostbazlıq, qohumbazlıq əsasında həll olur. Filan yüksək vəzifəli şəxsin filan şirkəti var və filan şirkət də həmişə tenderin qalibi olur. Bir soruşan yoxdur ki, balam, necə olur ki, ölkədə bu qədər şirkətlər ola-ola elə 4-5 şirkət bütün tenderlərin qalibi olur və işləri görməyə başlayırlar?! Bununla işimiz yoxdur, görürlər qoy görsünlər! Amma iş də görəndə gərək keyfiyyətli görəsən. Axı keyfiyyətli iş görsə, o tikintidən ətək-ətək pul qazana bilməzlər. Ona görə də bir çox podratçı təşkilatlar əsas məsələ kimi əldə edəcəkləri gəliri düşünürlər, keyfiyyətli iş barəsində isə fikirləşmək istəmirlər.

Təbii ki, məktəbləri podratçı təşkilatlar tikir və təmir edirlər. Və sifarişçi olan Təhsil Nazirliyi niyə o işi qəbul edəndə tikintinin keyfiyyətinə nəzarət etmir? Bundan savayı həmin məktəblərin təhvil alınmasında neçə-neçə dövlət qurumları məsuliyyət daşıyır. Və dövlət qurumları da təhvil aldıqları və göz yumduqları keyfiyyətsiz işə görə məsuliyyət daşımalıdılar. Daha doğrusu, günah küləkdə deyil, bu məktəbləri tikən və əsaslı təmir edən podratçı təşkilatlardadır. Necə olur ki, onların villalarını, dam örtüyünü külək qopara bilmir, ancaq yeni tikilmiş və təmir olunmuş məktəblərin dam örtüyünü külək yerindən aparır.

Bu cür tikintilər müəyyən ekspertizadan keçirilir, sonra aidiyyatı qurumlar tikintinin keyfiyyəti ilə bağlı rəylər verir, digər qurumlar da bütün hüquqi proseslər yerinə yetirildikdən sonra yeni tikilmiş binaları təhvil alırlar. Ola bilsin heç o damı uçan o məktəblərin heç bir dövlət qurumu təhvil almayıb. Təhvil almayıbsa, lap pis, alıbsa ondan da pis.

Ümumiyyətlə, Bakıda və regionlarda küləkli havalarda məktəblərin damının uçması adi hal alıb.

Ona görə də tikintidə nöqsanlara yol verən podratçı təşkilatlar və eləcə də o tikintini qəbul edən qurumlar cinayət məsuliyyətinə cəlb edilməlidir. Birdən Allah eləməmiş, o damın uçması nəticəsində məktəblərin həyətində şagirdlər olaydı və onlar da uçan damın altında qalardılar, bəs onda nə olardı?!

**Heç olmasa, gələcəkdə bu cür hadisələrin baş verməməsi üçün ciddi addımlar atılmalıdır. Yəni, dövlətin məktəblərin tikintisinə və əsaslı təmirinə ayırdığı külli miqdarda vəsait mənimsənilməməli və həmin tikililər yüksək keyfiyyətlə inşa edilməlidir. Eyni zamanda məktəblərin tikintisini sifariş verən Təhsil Nazirliyi və o tikintini qəbul edən dövlət qurumları daha məsuliyyətli olmalı, podratçı təşkilatların özbaşınalığına göz yummamalıdılar. Belə olarsa, mövcud nöqsanlar vaxtında aradan qaldırılar, Bakı kimi küləkli şəhərdə yeni tikilmiş məktəblərin, binaların damı tez-tez uçmaz.**

**Faiq QİSMƏTOĞLU**

# "Əllərində özəlləşdirmə çeki olan yüzminlərlə insan var"

### Çingiz Qənizadə: "Vətəndaşlara həmin çeklərdən sərbəst istifadə etmək hüququ verilməlidir"

### Tural Abbaslı: "Dövlət özəlləşdirmə çeklərinə, onlara sahib olan vətəndaşlara sahib çıxmalıdır"

**Son dövrlər ölkədə aparılan genişmiqyaslı islahatlar 2011-ci ildə tədavül müddəti başa çatmış "özəlləşdirmə çekləri"nin yenidən dövriyyəyə qaytarılacağına, bu istiqamətdə zəruri addımların atılacağına ümidlər yaradıb. Xüsusilə Azərbaycan İnvestisiya Holdiqinin fəaliyyətə başlaması, "investisiya haqqında" qanun layihəsinin müzakirəsi gəlir gətirməyən dövlət müəssisələrinin özəlləşdirməyə çıxarılacağı ilə bağlı rəsmi açıqlamalar bu məsələni yenidən aktuallaşdırıb. Çekləri əllərində qalmış vətəndaşlar əmindirlər ki, vauçerlərin tədavülü bərpa ediləcək. Məsələ ilə bağlı deputatlar, iqtisadçılar, ictimai-siyasi xadimlər də hökumətə çağırışlar edərək vətəndaşların hüquqlarının bərpasının önəmini vurğulayıblar.**

***Tanınmış hüquqşünas, sabiq millət vəkili Çingiz Qənizadə*** bu məsələdə vətəndaşların yanında olduğunu deyib. Hüquq müdafiəçisi vurğulayıb ki, özəlləşdirmə çekləri hər bir Azərbaycan vətəndaşı üçün nəzərdə tutulmuş dəyərli bir sənəddir. Onun sözlərinə görə, belə sənədlərə konkret müddət qoymaq, yaxud müddəti dayandırmaq yolverilməzdir:

"Özəlləşdirilməmiş kifayət qədər əmlaklar var. Hazırda özəlləşdirməyə çıxarılan və ya gələcəkdə çıxarılması planlaşdırılan xeyli əmlak mövcuddur. Azərbaycanda yüzminlərlə özəlləşdirmə çeki vətəndaşların əlində qalıb. Kimin əlində nə qədər çek qalmasının fərqi yoxdur. Bəzi adamlar satınalma yolu ilə daha çok vauçer əldə edib. Mənim özümdə ailə üzvlərimizin sayına görə verilmiş 5 nəfərlik çek hələ də qalır. Əlbəttə, söhbət məndən getmir. Əgər əlində çek qalmış vətəndaşların sayı yüzminlərlədirsə, 2011-ci ildəki qanunvericiliyə yenidən baxılmalıdır. Vətəndaşlara həmin çeklərdən sərbəst istifadə etmək hüququ verilməlidir".

Ç.Qənizadə vurğulayıb ki, özəlləşdirmə prosesinin əsası ulu öndər tərəfindən qoyulub: "Çeklərin üzərində xüsusi qeyd olunub ki, "hər bir Azərbaycan vətəndaşı üçün nəzərdə tutulub". Çeklər mülkiyyət hüququ əldə etmək üçün bir sənəddir. Mülkiyyət hüququna sahib olmaq üçün verilmiş qiymətli kağız "ölə", müddətlə tənzimlənə bilməz. Mən bu məsələni qaldıranların tərəfindəyəm. 2011-ci ildə dayandırılan fəaliyyət yenidən bərpa olunmalıdır.



İnsanların özəlləşdirmə çekləri üzərində sərəncam vermək hüququ təmin edilməlidir ki, bundan istifadə etsinlər, pay sahibi olsunlar".

***AĞ Partiya sədri Tural Abbaslı*** da düşünür ki, mövcud problem vətəndaşların xeyrinə həllini tapmalıdır: "Xeyli vətəndaşın əlində vaxtı ilə dövlət tərəfindən verilmiş özəlləşdirmə çekləri qalıb. Amma bugün həmin çeklər özəlləşdirmə prosesində iştirak etmir, heç bir işə yaramır. Çünki müddəti bitmiş sayılır. Dövlət özü təminat verdiyi özəlləşdirmə çeklərinə, onlara sahib olan vətəndaşlara sahib çıxmalıdır. Özəlləşdirmənin hansısa mərhələsində vauçerlərin istifadəsini təmin edən qanun layihəsi də müzakirə oluna bilər. Hələlik müvafiq qurumların belə bir addım atmaq niyyətləri yoxdur. Görünür, indiki məqamda bunu aktual hesab etmirlər. Lakin yenə qeyd edirəm, əlində özəlləşdirmə çekləri qalmış vətəndaşların hüquqlarının tapdanmasına yol verməmək üçün münasib yollar, metodlar axtarmaq lazımdır. Bu, kompensasiya şəklində də mümkündür, özəlləşdirmə prosesində iştirak formasında da təmin oluna bilər. Yəni istənilən halda insanların zərər görməməsinə çalışmalıyıq".

Məlumat üçün qeyd edək ki, özəlləşdirmə çekləri Ulu Öndər Heydər Əliyev tərəfindən 1997-ci ilə qədər anadan olmuş bütün ölkə vətəndaşlarına miras əmlak payı olaraq verilib. Bu çeklər dövlət qiymətli kağızları olmaqla yanaşı, həm də mülkiyyət hüququ daşıyır.

Çeklərin hər birinin dəyəri eynidir. Qanuna əsasən, özəlləşdiriləcək bütün iri və orta dövlət əmlakının ən azı 65 faizi özəlləşdirmə çekləri ilə əvəzlənməli, özəlləşdirmə prosesi bu şəkildə həyata keçirilməlidir. Hər bir çekin dəyəri isə 1/32 milyonda hissədir. Bu hissəyə düşən əmlak ekvivalenti payı qanunda inflyasiyadan qorunan əmlak ekvivalenti payı kimi göstərilib. Eyni zamanda bu özəlləşdirmə paylarının banklarda girov qoyulması hüququ qanunla təmin olunub. Bu, o deməkdir ki, özəlləşdirmə çeklərinin hər birinə dövlət əmlakından düşən səhmlərin dəyəri eyni olmalıdır.

# Kiyev, Çerniqov və Sumi azad edildi: Kremlin məkrli planı və «Mariupol» açıqlaması...

**Xəbər verdiyimiz kimi, bir neçə gün əvvəl Rusiya hərbi bölmələri Kiyevin ətrafından çıxarıldı. Kremlin mətbuat katibi Dmitri Peskov nə qədər iddia etsədə ki, rus ordusunun Kiyev və Çerniqov vilayətindən çıxarılması danışıqlardan müsbət nəticə almaq üçün xoşməramlı jestdir, təbii ki bu iddianın puç olduğunu azyaşlı uşaq da anlayır.**



Böyük Britaniya kəşfiyyatının bildirdiyi kimi, bu rus qoşunlarını ağır məğlubiyyətə uğraması və Kremlin regionda təşəbbüsü itirdiyinin göstəricisidir. Rusiya qələbə qazanmaq, ukraynalıları diz çökdürmək xəyalı ilə gəldiyi başqa bir bölgəni də tərk etmək məcburiyyətində qalıb. Adalet.az xəbər verir ki, Britaniya kəşfiyyatı Rusiyanın Ukraynanın şərq və cənubdakı şəhərlərini atəşə tutmaqda davam etdiyini, eyni zamanda ölkənin şimalından (Lvov, İvano-Frankovsk, Dnepropetrovski) qoşunlarını çıxararaq tamamilə Belarus və Rusiyaya çəkildiyini bildirilir:"Çox güman ki, Rusiya Donetsk və Luqansk vilayətlərində hücumu artırmaq üçün şimaldakı hərbi qüvvələri şərqə göndərəcək. Rusiya hərbi qüvvələrini şərq hissəyə yerləşdirməzdən əvvəl gücləndirməlidir. Bu səbəblə də yerləşdirilmə azı bir həftə vaxt aparacaq".

**Qeyd edək ki, Rusiya Ukraynaya hücum etdiyi gündən heç bir ciddi uğur əldə etməyi bir yana, hətta ordusu və texnikası fantastik sayda itkilərə məruz qalıb. Kremlin dünyadakı "hegemon" imici isə cilik-cilik olub Sumı əyaləti də işğaldan azad edilib. Kreml sözçüsü Dmitri Peskov " Mariupol şəhəri gec-tez Ukrayna silahlı qüvvələrindən "azad olunacaq" deyə ironiya dolu bir açıqlama da verib. Belə görünür ki, işğalçılar Mariupolu da atıb qaçacaqlar.**

**Əntiqə Rəşid**

## *Bakıda intihar etmək istəyən şəxs xilas edilib*



***Fövqəladə Hallar Nazirliyinin (FHN) Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhəri, Xəzər rayonu ərazisində (ən yaxın sularda xilasetmə məntəqəsindən təqribən 50 m aralı, nəzarətsiz ərazi) 1 nəfərin intihar məqsədilə özünü dənizə atması barədə məlumat daxil olub. Bunu Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən bildiriblər. Dərhal hadisə yerinə cəlb olunan FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xilasedicilərinin çevik müdaxiləsi nəticəsində vətəndaş xilas edilərək aidiyyəti üzrə təhvil verilib.***

*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*



# Gecə həyatı

**...Hərənin bir-birinə bənzəməyən həyat tərzi var. Biri kitab oxuyur, elm öyrənir, biri sənət dalınca gedir, biri də həyatını cırcırama kimi gəzməkdə görür. Və bu insanların heç birini qınamaq olmaz.**

**Ən azından ona görə ki, heç kimin həyatı başqasına bənzəmir və hamı da öz ömrünü yaşamaq istəyir. Amma gərək ömrünü də yaşayanda elə yaşayasan ki, yaşlaşanda, qocalanda həmin gənclik illəri üçün heyfslənmiyəsən...**

**Bu yaxınlarda gecə klubunda baş vermiş partlayışdan sonra həmin klubda yaralanmış və hətta dünyasını dəyişmiş insanlara münasibət heç də birmənalı olmayıb. Özü də bu partlayış zamanı 40-a yaxın gənc müxtəlif dərəcəli yanıq xəsarəti alıb, 3 nəfər də dünyasını dəyişib. Və hətta həkimlərin dediyinə görə, xəstəxanaya yerləşdirilmiş 3-4 nəfərin vəziyyəti ağır, stabil olaraq qalır.**

**Yəni onlar həyatla ölüm arasında çarpışırlar. Allah şəfalarını versin!**

**...Bayaq dedik axı! Bu gəncləri qınayanlar var. Qınayanlar deyir ki, əgər onlar gecə həyatı yaşamasaydı, bu faciə onların başına gəlməzdi. Bəlkə də bu fikirdə müəyyən qədər həqiqət var. Amma ən böyük həqiqət ondan ibarətdir ki, gənclik var və gəncliyin bənzərsiz bir anları, günləri olur. Bəli, gənc olanda biz hamımız öz cızığımızdan çıxmışıq və bəzən heç gecələr evə də gəlməmişik. İndi bu klubda da partlayış zamanı xəsarət almış gənclərin üstünə o qədər də getmək olmaz. Ən azından ona görə ki, İkinci Qarabağ savaşında torpaqlarımızı işğaldan azad edən və ağır yükü boynumuzdan götürən gənclər olub. İndi deyə bilərsiniz ki, torpaqlarımızı işğaldan azad edən gənclər gecə həyatı yaşamayıblar və bu məsələyə də heç də birmənalı yanaşmaq olmaz.**

**Çünki heç kim öncə görən deyil və heç kim də insanların taleyini oxuya bilməz. Sözümün canı ondan ibarətdir ki, bu cür həyat tərzi yaşamış və faciənin qurbanına çevrilmiş gəncləri bir o qədər də sıxma-boğmaya salmaq olmaz.**

**...Sıxma-boğmaya salınmalı o gecə klublarını təşkil edənlər, çoxlu sayda gənclərin həyatının təhlükəsizliyinə laqeyd yanaşan insanlardır. O insanlar ki, pula görə nəyə desən getməyə hazırdı. Mövcud qanunla gecə klubunun təhlükəsizliyi, yəni işıq, qaz və digər enerji daşıyıcılarının həmin binaya verilməsi diqqət mərkəzində olmalı idi. Həm əlaqədar qurumlar, həm də gecə klubunun sahibi texniki təhlükəsizlik qaydalarını unutmamalı idi. Unudulduğuna görə də bax, bu cür bədəxt hadisələr qaçılmaz olur.**

**Həmin gecə klubundakı faciə bir siqnal olmalıdır və Bakıda belə gecə klubları saysız-hesabsızdır və saysız-hesabsız olan bu gecə klublarına həm dövlət qurumları, həm də onu işlədənlər məsuliyyət daşımalıdırlar. Göründüyü kimi, məsuliyyət də bəzi hallarda unudulur və yaddan çıxır. Əgər deyilənlərə inansaq, həmin gecə klublarında gənclərə narkotik tərkibli maddələr də verilir. Yəni gənclərin həyat tərzi çox təhlükəli və həyəcanlıdır.**

**Bu isə o deməkdir ki, gecə klubları həm də qorxulu bir kabusa bənzəyir. O kabusun mövcudluğu neçə-neçə gəncin taleyini təhlükə qarşısına qoyur, onları pis vərdişlərə alışdırır və üstəlik də bu kimi hadisələr digər gənclərin də həyatında mənfi izlər qoyur...**

**...Dünyanın hər tərəfində gecə klubları olub, var və olacaq. Burda qəribə heç nə yoxdur. Amma bizdəki gecə klubları isə çox kortəbii və anlaşılmaz bir şəraitdə fəaliyyət göstərir. Kim pul qazanmaq istəyirsə, gecə klublarını işə salır. Və insanları da, xüsusən də gəncləri bura cəlb etməklə nə qədər cavanın taleyinə qorxunc bir anlar daxil olur. Bu isə o deməkdir ki, gənclərimizi biz bu cür həyat tərzində ən azından uzaqlaşdırmalıyıq və uzaqlaşdıra bilmiriksə, o klublar elə təşkil olunmalıdır ki, gənclər orda diskatekalarda, şoularda iştirak eləsələr də pis vərdişlərə öyrəşməsinlər.**

**...Çünki ora gələn hər bir oğlan və qız gələcəyin atası və anasıdır. Bax, biz o gəncləri mövcud olan belə təhlükələrdən xilas etməliyik. Qoruya bilsək, onlar əsl vətəndaş olacaq, Vətənə və ölkəyə sağlam övladlar bəxş edəcək. Qoruya biləcəyikmi?! Bax, əsas məsələ budur...**

## *Çox sağ olsunlar*

**Mən səhhətimlə əlaqədar olaraq tez-tez xəstəxanalarda və sanatoriyalarda oluram. Çünki uzun müddətdir şəkərdən və qan təzyiqindən əziyyət çəkirəm. Üstəlik də, bir il bundan əvvəl COVİD-ə yoluxmuşdum. Bu xəstəliklər tələb edir ki, mən mütəmadi olaraq müalicələrimi davam etdirim.**

Belə müalicə ocaqlarından biri də Suraxanı Tibb Bərpa Mərkəzidir. Mən dəfələrlə bu bərpa mərkəzində həyat yoldaşımla birgə müalicə olunmuşam. Və həmişə də xeyrini görmüşəm. Bu dəfə isə özüm tək getmişdim. Bütün müalicələr yüksək səviyyədə oldu və müalicədən sonra özümü daha yaxşı hiss elədim. Buna görə Bərpa Mərkəzinin həkimi Sevinc Vəliyevaya, tibb bacıları Aynurə, Maya, Gülər, Günay xanıma öz təşəkkürümü bildirirəm. Çünki müalicə qədər də həkimlərin isti və səmimi münasibəti biz pasientlərə şəfa verir. Bir daha insanların sağlamlığının keşiyində duran və bizə şəfa verən belə həkimlərə öz minnətdarlığımı bildirirəm. Və deyirəm ki, siz bizi müalicə etdiyiniz kimi, Allah da sizi qorusun!

**Səməndər MƏMMƏDOV,**
**Sabunçu rayon Ağsaqqallar Şurasının sədri,**
**yazıçı-publisist, Prezident təqaüdçüsü**

## Metroda yenilik: təhlükəsizlik səddi quraşdırılır

**Bakı metropoliteni Bənövşəyi xətt üzrə inşa edilən stansiyalarda sərnişin platformasında təhlükəsizlik səddinin quraşdırılmasını nəzərdə tutur.**



Bunu Trend-ə açıqlamasında qurumun mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

O bildirib ki, yeni nəsil qatarlar təhlükəsizlik səddi üçün müvafiq infrastruktura malikdir:

"Hazırda istismarda olan köhnə qatarlarda belə bir funksiya yoxdur. Həmçinin Yaşıl və Qırmızı xətt üzrə olan stansiyalarda da bu məsələ əvvəldən planlaşdırılmayıb. Hazırda tikintisi davam etdirilən və 3 stansiyası istifadə olunan Bənövşəyi xəttdə təhlükəsizlik səddinin quraşdırılması inşaat baxımından nəzərə alınıb.

Bununla yanaşı, Qırmızı xətt üzrə olan "28 May" stansiyası köhnə tikili olmasına baxmayaraq bu stansiyada təhlükəsizlik səddinin quraşdırılmasını mümkünlüyü ilə bağlı araşdırma aparılıb. Məlum olub ki, bu stansiyada təhlükəsizlik səddinin tikilməsi üçün əlavə bünövrə bərkidilməsi aparılmalıdır. Yəni həmin stansiyada da təhlükəsizlik səddi quraşdırmaq mümkündür".

O qeyd edib ki, hazırda bu istiqamətdə araşdırma işləri davam etdirilir:

"Ehtiyac yaranarsa, gələcəkdə stansiyaların platformalarında təhlükəsizlik səddi quraşdırıla bilər. Bunun üçün uzun müddət vaxt və böyük vəsait lazımdır".



Əbülfət MƏDƏTOĞLU

# Hər yerə apardığımız köhnəlməyən xatirələrimiz

## Şairə Sona xanım Vəliyevanın bir şeirinin işığında

*Yəqin ki, hər birimiz bu məqamla, bu durumla, bu ifadə ilə az ya çox rastlaşmışıq, qarşılaşmışıq. Hətta gündəlik məişətimizdə də bu söz normal bir şəkildə işlədilir. Sizi çox yormadan, başınızı ağrıtmadan birbaşa deyim ki, söhbət "köhnə" sözündən, köhnə terminindən, eləcə də "xatirə"dən gedir. Adətən geyindiyimiz paltarı da köhnəyə, təzəyə ayırırıq. İstifadə etdiyimiz əşyaları da... Maraqlıdır ki, bəzən fikirləri də köhnə , hətta müəyyən məqamlarda bəzilərimizi də, o cümlədən elə mənim özümü də köhnə fikirli sayırlar...*

*Bax, bütün bunları ona görə giriş kimi dilə gətirirəm ki, nə qədər köhnə olsa da, nə qədər xatirə adlandırılsa da, dəxli yoxdu, o köhnə də, o xatirə də nəyinsə, kiminsə bünövrəsidi. Çünki hər şey köhnənin üzərindən başlayır. Təhqiqatlar da, araşdırmalar da, calağ etmək də, yeniləşmə də. Bu proses bütün sahələrdə, o cümlədən ədəbiyyatda da gedir.*

*Bu gün mənim üz tutduğum, həmsöhbət olduğum yenə bir "köhnə" şeirdir. Yaxşı bir deyim var, oxunulmamış mətn həmişə təzədi. Deməli, bu prizmadan baxsaq, bu bucaq altında qiymət versək, onda bu şeiri kim oxumayıbsa, onun üçün təzədi, tərdi. Oxuyanlar da təkrar oxusa bir daha təzələnərlər. Ruhən təravətlənərlər. Odur ki, qayıdıram həmin o "köhnə" şeirə. O şeirdə yazılıb ki:*

*Sökmək, vurub dağıtmaq asan -*
*Toz dumana qarışıb,*
*bir azdan sakitləşəcək,*
*xatirələrin avazımış rəngi kimi.*

*Yəqin ki, oxudunuz bu bəndi və dərhal da ağlınıza gəldi ki, həqiqətən dünyada ən asan iş sökülb-dağıtmaq, vurub-uçurtmaq, yerlə-yeksan etməkdir. Həmin o dağıtmağın, o uçurmağın ağrısını isə dağıdılan, uçurulan ünvanla , məkanla, cismi ilə, ruhu ilə, varlığı ilə bağlılığı, təması olan çəkir. O bilir ki, nə dağılır... nə uçulur... nə talan olur... o yaşayır bu sızıltıları, o keçirir bu təlaşı, bu həyəcanı və bir də o təzədən bütün prosesləri, bütün olmuşları təkcə yaddaşının yox, həm də ruhunun köynəyinən keçirir və beləcə bir ömrün köhnə və təzə həyatı əlbəyaxa olur...*

*Mən yaşadığım həyatımın demək olar ki, ən ağır dönəmini söküntülərin, dağıntıların, talanla, viranla bir cərgədə, bir müstəvidə görmüşəm. Yəni yaşadığım vətəndə vətənsizlik, evimin, yurdumun talanı, düşmən tapdağı altında qalması məhz həmin dediyim duyğuların varlığımı necə üyütdüyünü mən özüm hamıdan yaxşı bilirəm. Amma burda bir nüans da var, o da özümüzün biləndən, məqsədli şəkildə dağıtdığımız, sahiblənmək üçün viran qoyduğumuz tikililərdi, abidələrdi. Daha doğrusu, həmin abidənin olduğu ərazidi. Elə özü ilə birlikdə nə qədər xatirəni, nə qədər izi silib aparan Bakı söküntüləri buna bir canlı nümunədi. Həmin məqamla bağlı yazmışam ki:*

*Sökdülər -*
*mənə bu söz*
*hürkək oldu...*
*çünki, sökməndilər,*
*vurub, uçurub*
*tökdülər!*

*Bəli, bu heç də etiraz, narazılıq və yaxud da qəzəb hissini ifadə etmək deyil, bu, sadəcə bir gerçəyin qarşısında susmamaqdı. Çünki sökmək onların yanaşması ilə, təbirincə desək, "köhnə"dən xilas olmaq hər zaman doğru seçim olmur. Çünki sənə, mənə görə köhnə olan ona, başqasına görə yenidi, danışandı, təqdim edəndi və bu yerdə yenə əvvəlki şeirə qayıdıram.*

*sökülən evlərin yerində*
*daş-kəsək, solğun divar kağızları*
*görünəcək.*
*Min-min, dipdiri xatirələr qalacaq*
*uçqun altında.*
*Kiminin uşaqlığı, kiminin gəncliyi,*
*kiminin tənhalığı, kimsəsizliyi,*
*yazıq-yazıq inləyəcək, boylanacaq.*

*Budur həqiqət, budur "köhnə" qəzəbinə gələn, "köhnə" qurbanı olan, qərar verən isə həmin o "köhnə"ni görmək istəməyənlərdi. O "köhnə"dən qazanc güdənlərdi. Demək burda bir məntiq də var.*

*Əgər bir köhnəni qorumaq mümkündürsə, onun mahiyyəti önəmlidirsə, ona fərdi yanaşmaq, fərdi dəyər vermək məncə çox da çətin olan iş deyil. Yalnız bu məsələdə ürəklə, ağılla bir təmas qurmaq lazımdı. Şeirdə deyildiyi kimi, uçqun altında qalan xatirələri, izləri, ləpirləri göz önünə gətirmək, onların sızıltısını dinləmək lazımdı, hiss etmək lazımdı. Bax, onda...*

*Bəli, mən də elə bu fikirdəyəm:*

*Özü də,*
*bir günün içində yox! -*
*zaman-zaman*
*bina-bina,*
*ev-ev...*
*otaq-otaq,*
*daş-daş -*
*açıq-aşkar...*
*Həm sürətli,*
*həm də*
*yavaş-yavaş...*

*Deməli, sökən və bu sökməyə qərar verən, imza atan mənim dediyim, ifadə etdiyim, kağıza köçürtdüyüm hissləri ya ümumiyyətlə özünə yaxın buraxmır, ya da onun üçün bu hisslər heç mövcud da deyil. Çünki insan öz əli ilə sevə-sevə, oxşaya-oxşaya, alın təri, nəfəsini hopdurub yaratdığını elə-belə, sökülb dağıda bilməz. Burda ya son dərəcə zəruri, hava, su qədər önəmli nisan olmalıdı, ya da dəlilik...*

*Bilmirəm, sökməyə meyilli olanlarda bu hisslərdən hansıdır? Amma bildiyim odur ki:*

*Daş-kəsək altından*
*adamlar gələcəyi*
*köhnəlmiş ümidləri ilə*
*qərib-qərib süzəcəklər.*
*Əllərində satılan,*
*sökülən illərin qiyməti,*
*saya-saya xəyala dalacaqlar.*
*Unudacaqlar nə satdıqlarını:*
*bir, iki, bizimki*
*və ya bu dərd kiminki?*
*Üç, dörd, qapını ört.*
*Qapısız xarabalıq önündə*
*ağlaya-ağlaya*
*heyrətlənəcəklər.*

*Gətirdiniz gözünüzün qarşısına bu mənzərəni? Bir anlığa da olsa, ruhən qoşula bildinizmi həmin o ovqata, həmin o yaşama. Qulaqlarınıza gəlib çatdımı həmin o sızıltılar, pıçıltılar, ağrılar. Silkələnib oyandımı xatirələriniz?*

*Deyəsən suallarım çox oldu. Amma yox! Bu sualları mən vermirəm ki! Bu həmin o "köhnə" donu biçdiyiniz, "köhnə" damğası vurduğunuz, sökülənlərin saysız-hesabsız suallarından yalnız biri ya da ikisidi. Mən isə:*

*Söküldükcə*
*göz yaşları axdı -*
*gilə-gilə,*
*için-için*
*hıçqırtı ilə -*
*bina-bina*
*ev-ev,*
*otaq-otaq,*
*daş-daş...*

*Hə, bax mənim suallarım isə elə bu qırıq-qırıq sözlərdi, misralardı. Çünki onların da bir-birindən pərən düşməsinə səbəbkar məhz elə həmin o sizin "köhnə" deyib sökdükləriniz, dağıtdıqlarınızdı. Amma bilmirsiniz ki:*

*Açılacaq xatirələrin qapısı,*
*olanlar, keçənlər milyonlara*
*dəyişilməyəcək,*
*yanacaqlar içlərində,*
*utanacaqlar,*
*susacaqlar.*
*Peşman-peşman sayacaqlar*
*aldıqları pulları.*
*Bir, iki, üç, dörd,*
*bu pul deyil, dərddir, dərd!*
*Hamı sayır,*
*saya-saya ağlayır.*
*Sən say, qardaş, görək*
*Fələk nə sayır!*

*Hə, bildinizmi? O söküntülərin hansı ittihamlarla çıxış edəcəklərini. Anladınızmı sizin hansı maddələrlə məhkəmə önünə çıxaracaqlarını. Hələ bunlar bir yana. Çatdımı donmuş ruhunuza, ağlınıza, ürəyinizə nələr etdiyiniz? .. nələrlə günün birində vuruşacağınızı və həmin köhnələrin qisasından qurtula bilməyəcəyinizi?.. Ağlınıza gətirdinizmi, yoxsa mən də deyim sözlərimin ardını:*

*xatirə-xatirə*
*Sızıldadı*
*təzə,*
*köhnə*
*və nimdaş*
*ruhlar...*
*Selləndi -*
*küçə boyu,*
*yol uzunu*
*qanayan,*
*ağlayan*
*xatirələr...*
*Və yığa bilmədi*
*ayaqlar altından*
*özünü -*
*ruhlar,*
*nə də xatirələr -*
*Köhnə Bakıda...*

*Bəli, bir şeirin əlindən tutub söküntülərin, dağıntıların, bütövlükdə isə köhnənin içindən ayaq barmaqlarımın ucunda keçməklə həmin mənzərəni yazıya köçürtdüm.*

*Çalışdım ki, öz sözümü də həmin o bir şeirə qoşmaqla reallığı olduğu kimi göstərə bilim. Axı bu reallıq bizim yaşamımız, yaşadığımız və ruhumuzla, qəlbimizlə hər yerə daşıdığımızdı. Onun adı xatirə olsa da, o, həm də bugünümüzdü!..*

*Və nəhayət, əlindən tutduğum bu KÖHNƏ ŞEİR isə dəyərli şairəmiz,hörmətli Sona xanım Vəliyevadır. Ürəyinə sağlıq, Sona xanım!*

# Əbülfət Mədətoğlu: "Mənim uşaqlığımın da, gəncliyimin də izləri, xatirələri güllələnmişdi"

***"Ədəbiyyat" qəzetinin "Fikir bucağı" layihəsinin qonağı şair, publisist Əbülfət Mədətoğludur.***

**- Əbülfət müəllim, layihəmizdə sizi xoş gördük. İşlər necədir, yaradıcılığınız necə gedir?**

- Xoş gördük, Tural. Yaxşı bir layihəyə başlamısan. Əvvəlki müsahibələrini oxudum, həmsöhbətlərinlə, necə deyərlər, mən də bir masa arxasında əyləşib onların fikirlərinə müəyyən mənada şərik oldum. Təbii ki, bu, sənin təqdimatınla mümkün olan bir nüansdır. Elə bu yerdə sənə uğurlar diləyirəm. O ki qaldı işlərə... Qəzet adamının nə iş günü olur, nə iş saatı, yəni hər yerdə sən qələm cibində, amma fikrin, sözün, materialların yanında olur. Bu bir peşə xəstəliyidi. Amma şəxsi yaradıcılıqda isə hər şey ovqatdan asılıdı. İlham pərisi ilə dil tapanda dərdləşirik. Dekabr ayının sonlarında yol qeydlərindən ibarət yeni bir kitabım işıq üzü görüb. Bu kitab mənim Naxçıvan səfərlərimə və bir də orada yaşayıb-yaradan könül, qələm dostlarımın yaradıcılığına həsr olunub. Adı da "Nuh gəmisinin son ünvanı"dı. Necə deyərlər, başımı salıb aşağı bacardığım işin qulpundan tutmağı çalışıram.

**- Sizi çoxsahəli fəaliyyətlə məşğul olan biri kimi tanıyırıq. Şeir, publisistika, redaktə işi və s. Harda özünüzü daha rahat hiss edirsiniz?**

- Gəl belə danışaq da. Dediyin sahələrin hamısı sözlə bağlıdı. Qələmlə, kağızla əlbirdi. Ona görə redaktə zamanı yaxşı bir yazı oxuyanda, könlün rahat olanda özünü orada görürsən. Hətta içindən keçir ki, yazının müəllif imzası sənə aid olardı. Eləcə də özümün oxucu tərəfindən maraqla qarşılanan publisist yazılarıma reaksiya olanda, zəng gələndə, ya üzbəüz fikir söyləniləndə düşünürəm ki, demək istəyimə çatmışam. Bunlar, yəni bu iki sahə sırf qəzetçiliklə bağlı olduğundan mən burada hərdən özümü vəzifə, peşə sahibi kimi hiss edirəm. Çünki "Ədalət" qəzetinin də nüfuzunun yükü burda mənim çiynimə düşür. Amma poeziyada bir az fərqlidi yer mənim üçün. Şeirlərlə özümü bu dünyada Allahla məni daha çox təmasa aparan bir Ruha minnətdaram. O təmas məni yaşamağa da, sevməyə də, yazmağa da kökləyir həmişə. Tam səmimi deyim ki, şeirlər məni hamıdan uzaq dayanıb heç kimin gözünə görükmədən, heç kimin əl-ayağına dolaşmadan, Allah, dörd divar və bir də O ilə gözəl anlar yaşamağa imkan verən, stimul verən qeyri-adi bir gücdü, bir pıçıltıdı, bir nəfəsdi.

**- Bu gün böyük qayıdışın başlanğıcındayıq. Qarabağa səfəriniz oldu, cənab Prezidentlə görüşdünüz. Necə bir hisslərdi, doğma Tuğ kəndi sizi necə qarşıladı?**

- Tural, sənə bir şey deyim. Həyatda elə yaşamlar var ki, onu sözlə ifadə etmək mümkün deyil. Lap elə qaçqınlığı götürək. Qaçqın olmayana bütün ürəyini də, bütün maddi sərvətini də bağışlasan belə onun içində qırılıb çiliklənən, ölən, yaddaşında ağrı-acı guşəsi kimi qalan nəsnələri nə dəyişə bilməzsən, nə də unutdura bilməzsən. Göstərilən qayğı sadəcə diqqətdi. Yaşamağa ipucudu. Bu mənada 30 il ancaq xəyal etdiyin, ancaq yuxuda gördüyün kəndinə, evinə qayıtmaq bu gündən keçmişə dönüş deməkdir. Aradakı 30 il isə itirilən, əlindən zorla alınan ömürdü. Ona görə mən kəndimə səfər edəndə filmlərdəki kimi yuxuda keçmişə getmiş kimi oldum və o keçmiş mənə çox acıları təkrar yaşatdı. Çünki kəndimin yalnız coğrafi mənzərəsi yadımda qalmışdı. Mənim uşaqlığımın da, gəncliyimin də izləri, xatirələri güllələnmişdi. Evimin yerində qaratikan bitmişdi. Mənimlə orda danışan ancaq kədər idi, ağrı-acı idi. Çünki qarşılayanlar onlar idi məni. O səfərdə bir vətəndaş olaraq mənə hədiyyə isə ömrüm boyu unutmayacağım ölkə rəhbəri ilə təmas idi. Onu yaxından görmək, əlini sıxıb bu qayıdış üçün təşəkkür etmək, həyatımın ən böyük mükafatıdır və Tuğda cənab Prezidentin dediyi "Tuğ əsl cənnətdi!" kəlamı isə mənə və o torpağa aid olanlara, bütövlükdə Qarabağa sevginin ifadəsidi.

**- İstedadlı gənclərə dəstək olursunuz. Yazılarını dərc edirsiniz. İstedadı necə müəyyən edirsiniz? Sizə görə istedadın əsas meyarı nədir?**

- Bugünkü gənclər kimi zamanında mən də redaksiyalara üz tutmuşam. Əvvəlcə oxuduğum orta məktəbdən yazılar ünvanlamışam qəzetlərə, jurnallara. Qarşılaşdığım o qədər haqsızlıqlar, biganəliklər olub ki. Amma mən həyatda dəstəyim olan, əlimdən tutan, yol göstərən insanların böyük ürəyinə minnətdarlıq hissi ilə geri çəkilməmişəm. Yəni rəhmətlik Xalq şairimiz Bəxtiyar Vahabzadə, yazıçılarımız Əlisəfa Məmmədov, Əlfi Qasımov, şairlərimiz Çingiz Əlioğlu, Sabir Rüstəmxanlı, Nüsrət Kəsəmənli, Abbas Abdulla, Məmməd İsmayıl, Vaqif Nəsib Sarıhüseyn oğlu, Zülfüqar Şahsevənli, Vaqif İbrahim və digərləri mənim sözdən daha bərk yapışmama xeyir-dua veriblər. Məhz xeyirxahların qayğısı, həm də tələbkar qayğısı məndə bugünkü gənclərə məhz həmin prizmadan baxmağa yönəldib. Əlimdən tutublar, mən də əldən tutmağı, təbii ki, gücüm daxilində çalışmışam. Xüsusilə maraqlı, istedadlı, amma dəstəyə ehtiyacı olan gənclər mənim üçün çox önəmlidir. O ki, qaldı istedada bunun göstəricisi ortaya qoyulan sözdü. Hər gün yazmaq, hər gün hay-küy salmaq və yaxud özünü hansısa qrupda təbliğ etmək mənə görə istedadın göstəricisi sayıla bilməz. Ad çəkmədən deyə bilərəm ki, elə gənclərimiz var ki, başını salıb aşağı heç bir qruplaşmaya qoşulmadan sözün fəhləliyini edir, özünə yol açmağa çalışır. Amma bəziləri də öz aralarında "işbirliyi" yaradır, bir-birini gündəmə daşımaqla məşğuldular. Çox istərdim ki, Allahın verdiyi istedadı böyük sözün xidmətində görək həmişə.

**- Yaradıcılığınızda həsrət, ayrılıq, kədər motivləri əsas yer tutur. Ancaq bu motivləri ənənəvi yox, yeni bir tərzdə təqdim etməyi bacarırsınız. Ümumiyyətlə, müasir şeir necə olmalıdır?**

- Mənim düşüncəmə görə şeirin dövrü olmur. Yəni Füzulinin, Nizaminin, Cavid Əfəndinin, Müşfiqin, Səməd Vurğunun, eləcə də Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Musa Yaqubun, Zəlimxan Yaqubun, Nüsrət Kəsəmənlinin, bu gün Barat Vüsalın, Ramiz Qusarçaylının yazdığı şeirlər böyük ədəbiyyata töhfələrdir. Sadəcə, onların hər biri yaşadıqları dövrün ovqatını, sözünü, fikrini şeirə çeviriblər, ədəbiyyata gətiriblər və bu gün də həmin proses davam edir. Dəyişən ədəbi dilə yanaşmadı. Mən bu mənada "müasir şeir" termini ilə həmfikir deyiləm. Şeirin, necə deyərlər, zamanı birdir. O da oxucusunu tapdığı zaman.

**- Bəzi ədəbiyyatşünaslar və oxucular şeirin dövrünün bitdiyini düşünür. Daha çox nəsrə üstünlük verilir. Sizcə, bu yanaşma doğrudurmu?**

- Hər kəs öz fikrində özünü daha doğru sayır. Bu, təbiidi. Çünki hərənin öz baxış bucağı var. Amma mənə görə şeirin özülü bayatıdırsa, layladısa, holavardısa, lap elə iki bəndlik obrazlı ifadədisə, onun zamanı heç vaxt keçə bilməz. Çünki yığcamlıq və konkretlik şeirdə daha çox özünü göstərir.

**- Nə vaxtsa nəsrlə bağlı silsilə yazılar yazmağı düşünürsünüzmü?**

- Mən bu yolda müəyyən addımlar atmışam. Dörd sənədli povestlər kitabının müəllifiyəm. Onların ikisi Birinci Qarabağ müharibəmizə, qaçqınlıq illərinə həsr olub. Və ilk sənədli povestim Milli Qəhrəmanımıza həsr olunub. Təbii ki, povest işıq üzü görəndə İbad Hüseynov layiq olduğu fəxri adının rəsmi daşıyıcısı deyildi. Ulu öndərimizin ona verdiyi bu adı cənab Prezidentimiz böyük qələbəmizdən sonra öz fərmanı ilə rəsmiləşdirdi. Yəni bu gün də yeni bir publisist kitab üzərində işləyirəm. İnşallah, mətbəəyə də yaxın günlərdə təqdim olunacaq.

**- Məsələn, roman, povest...**

- Bir yarımçıq povestim var, şərti adı da "Olmuşlar və olacaqlardakı Qadın"dır. Allah ömür versə yəqin ki, yekunlaşacaq.

**- Bəlkə zaman məhdudiyyəti var?**

- Bəli, gündəlik qəzet və həyat qayğıları yazı-pozu adamının işini həmişə çətinə salır, rəhmətlik Hüseyn Arif demişkən, "Şair şeir yazar, bazara getməz". Amma neyləmək olar ki, həyatın öz qanunları da var.

**- Yaradıcı insan üçün nələr vacibdir və nələrin olması zəruridir?**

- Mən düşünmürəm ki, yaradıcı adam üçün əlahiddə nəsə eləmək lazımdı. Sadəcə, mənə görə bu adamların maddi asılılığı olmamalıdı. Yəni onların süfrəsində çörək, ciblərində siqaretləri olarsa, kiminsə arxasınca inanmıram ki, gileylənsinlər və yaxud kiməsə həsəd aparsınlar. Bir az da kobud desəm, sözü qəpik-quruşa satsınlar. Tam ciddiyyəti ilə qəbul etdiyim bir gerçəklik var. Yaradıcı insanın masası, qələmi, evinin işığı, suyu, qazı yerində olsun, başını salıb yazısını yazacaq. Təəssüf ki, bu normal yaşam bizdə hələ yaradıcı insanların hamısını əhatə etməyib.

**- Həyatın reallıqlarını qəbul etmək çətin deyil ki?**

- Əvvəllər, lap konkret desəm, Tuğ kəndi işğal olunan gündən atəşkəsə qədər çətin idi. İnanmırdım ki, kəndim işğal olunub. Amma sonra həyatın sərt üzü mənə güc gəldi. Və mən reallıqla barışmalı oldum. Axına qarşı üzmək çox çətindi.

**- Ədəbi mükafatlara münasibətiniz...**

- Haqlı, layiqli mükafatlar həmişə xoş təəssürat yaradır. Kaş ki, burda ədalət prinsipi gözlənilə. Sən də, mən də bilirik ki, bizdə bəzən "səhv düşmələr" olur. Rəhmətlik Xalq şairimiz Qabil demişkən.

**- Bir vaxtlar oxucu məktubları yazılırdı. İndi dövr dəyişib. Sizə daha çox nə barədə yazırlar?**

- Şəxsən mənim özümə ünvanlanan məktublarda yazılarıma münasibətlər ifadə olunur. Hətta mübahisəli fikirlər də yer alır o məktublarda. "Ədalət" qəzetinə isə gələn məktublar bədii yaradıcılıq və bir də şikayətlərdən ibarət olur.

**- Poeziyanız fəlsəfi düşüncələrlə zəngindir. Həm də şeirinizin dili sadədir, axıcıdır. Ümumiyyətlə, yaradıcılığınıza təsir edən imzalar olubmu, olubsa kimlərdi?**

- Mən əlifbanı tanıyandan mütaliəni sevmişəm. Bizim kənd kitabxanamız çox zəngin olub. Özümün də böyük kitabxanam var idi. Və kənddə bunu hamı bilirdi. Mən onların təqribən 3 min nüsxəsini kənddən çıxara bildim. Bu gün də Masazırda ayrıca bir kitabxanam var. Deyim ki, o kitabxanada sənin də mənə bağışladığın kitab yer alıb. Bu mənada mütaliə mənim işimə həmişə kömək olub. Həm qəzetdə, həm poeziyada. Ad çəkmədən deyim ki, dövri mətbuatda, o cümlədən dərgilərdə çap olunan şeir nümunələrinin hamısını oxumağa çalışıram. Ruhuma doğma olan şairlərimizin bir çoxunun kitabları masamın üstündədi. Tez-tez onlara üz tuturam. Allah dünyasını dəyişənlərə rəhmət etsin, yaşayanlara ömür versin.

**- Söz həm də İlahinin işarəsidir. Şeir yazandan sonra özünüzü necə hiss edirsiniz?**

- Bu, bir məsuliyyətli işin bəhrəsidi. O məsuliyyət Allah qarşısındadı. Çünki söz Allahdan gəlir. O pıçıldayır, biz də qabiliyyətimizi və iç dünyamızın pıçıltılarını qatırıq həmin o Allahdan gələnə və beləcə dünyaya söz gəlir. Hər dəfə şeir yarananda mən özümü ağır bir yükün altından çıxmış kimi hiss edirəm. Özü də etiraf edim ki, o şeirin alınıb-alınmamasından asılı olaraq bu, həmişə belədir.

**- Oxuculara sözünüz...**

- Hər kəsə cansağlığı, dəyərli sözlə təmas arzu edirəm. Eləcə sənə və "Ədəbiyyat qəzeti"nə də.

**Söhbətləşdi:**
**Tural CƏFƏRLİ**



# "Bir mərmər üçün heykəltaraş nədirsə, ruh üçün təhsil də odur..."

*Zəka və təhsil arasındakı fərq, zəkanın daha yaxşı bir həyat təmin etməsidir...*

*(Çarlz Katterinq)*

***Hər gün az qala işıq sürətlə inkişaf edən müasir dünyamızda biz hamılıqla elmə və təhsil minnətdar olmalıyıq.***

***Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini birbirinin ardınca kəşf edir. İnsan yalnız elmi, təhsili, hərtərəfli dünyagörüşü ilə başqalarından fərqlənə bilər. Hər birimiz hər an yeni bir bilgi əldə etməyə çalışmalı, təhsilimizi, biliyimizi artırmalıyıq. Çünki, bilik və təhsil almadan heç nə əldə edə bilmərik.***

***Məhşur Azərbaycan şairi N. Gəncəvi hələ 10 əsr bundan əvvəl elmin gücü haqqında deyirdi:***

*Əmr etdi, verildi fərman,*
*Alimdir gözümdə ən əziz insan.*
*Elmlə, hünərlə! Başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz!*

***Mövzumuz elm və təhsildir. Mövzu ilə bağlı Odlar Yurdu Universitetinin "Biologiya" müəllimi və doktorantı Günay İmanova saytımıza müsahibə verib.***

**- Salam, Günay xanım! Zəhmət olmasa ilk növbədə özünüz haqqında bir az məlumat verin.**

- Salam. Mən İmanova Günay 22.06.1994-cü ildə anadan olmuşam. 2015-ci ildə Bakalavr pilləsi üzrə Odlar Yurdu Universitetinin "Biologiya" ixtisasını Fərqlənmə ilə bitirmişəm, 2017-ci ildə isə Magistratura pilləsi üzrə Odlar Yurdu Universitetinin "Biologiyanın tədrisi metodikası və metodologiyası" ixtisasını Fərqlənmə ilə bitirmişəm. 2017-2021-ci illər ərzində Odlar Yurdu Universitetində mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışmışam. 2017-ci ildən Odlar Yurdu Universitetində və Odlar Yurdu Kollecində "Biologiya və ekologiya" kafedrasında müəllim kimi fəaliyyət göstərirəm. Eyni zamanda təhsilimi doktorantura səviyyəsində Mikrobiologiya ixtisası üzrə davam etdirirəm.

**- Bir pedaqoq kimi sizcə bu gün ölkəmizdə ali təhsillə bağlı vəziyyət necədir? Çalışdığınız universitetdə müəllim - tələbə münasibətləri barədə nə deyə bilərsiniz?**

- Əslində müqayisə etsək, Azərbaycan tarixinin heç bir dövründə təhsil indiki qədər geniş ictimai maraq predmeti olmayıb. Bu marağı şərtləndirən əsas amillər isə ölkə Prezidentinin təhsilə olan xüsusi diqqəti, irəli sürülən vəzifələrin bütün respublikada icrası, genişmiqyaslı təhsil quruculuğu işlərinin aparılması olmuşdur. Azərbaycan Respublikası Prezidentinin apardığı islahatlar sırasında elm və təhsil sahəsinə də xüsusi diqqət verilməsi gələcəyə olan inamı artırır. Əminəm ki, Azərbaycan ali təhsil sektoru qarşıdakı illərdə də qlobal tendensiyalara, çağırışlara və milli iqtisadiyyatın tələblərinə adekvat şəkildə inkişaf edəcək.

Universitetimizdə müəllim-tələbə münasibətləri qarşılıqlı hörmət və səmimiyyət əsasında qurulub. Bütün müəllimlər vəzifəsindən, elmi dərəcəsindən asılı olmayaraq, tələbələrlə dostluq mövqeyinə üstünlük verir, rəftarında, səmimiyyətində, tədris fəaliyyətində ideal müəllim səviyyəsini hər zaman qoruyurlar.

Ümumiyyətlə, işinin peşəkarı olan hər bir müəllim tələbəni təlim fəaliyyətinə cəlb etməyi bacarmalı, ona tədris etdiyi fənni sevdirməklə öyrənməyə sövq etməyin səmərəli yollarının axtarışında olmalıdır. Unutmaq olmaz ki, ali məktəblər tələbələrə yalnız informasiyanın ötürüldüyü tədris müəssisələri deyil, həm də onlara biliklərin müstəqil qazanılması üçün istiqamətlərin verildiyi ali təhsil ocaqlarıdır. Tələbələrə ən vacib təlim materialını öyrətməklə müəllim həm də dərs prosesində tələbəyə qanunauyğunluqları üzə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı, nəticə çıxara bilməyi və əsl tədqiqatçı olmağı öyrətmək yolunda bələdçi olmalıdır. Bu istiqamətdə Odlar Yurdu Universiteti daima öz fəaliyyəti ilə seçilir.

**- Bu sahəyə, konkret olaraq müəllim olmağa marağınız necə yaranıb və necə oldu ki, bu qərara gəldiniz?**

- Müəllimlik təkcə peşə deyil, insanların həyatına müsbət mənada təsir edən, dəyişdirən bir sənətdir. Özümü dərk etdiyim andan hər zaman ölkəmə, millətimə faydalı bir gənc olmaq istəmişəm. Həm də böyüdüyüm ailədə elmə, təhsilə olan xüsusi maraq məni bu peşəni seçməyə daha da həvəsləndirdi. Məncə bu yalnız müəllimə xas olan duyğudur ki, insan həm öyrənmək, həm də öyrətmək istəyir. Elə bu səbəbdən müəllim olmağa qərar verdim. Müəllim olmaqla insan öz üzərinə böyük bir məsuliyyət götürmüş olur.

**- Bir gənc müəllim - pedaqoq - doktorant kimi təbii ki, sizdən gözləntilər çoxdur. Bəs siz fəaliyyətinizdə nə kimi yeniliklər barədə düşünürsünüz?**

- İlk olaraq dissertasiya işimin müdafiəsini uğurla etməyi və biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almağı planlaşdırıram. Hal-hazırda elmi rəhbərimlə birlikdə tədqiqat işi ilə məşğulam, elmi məqalələrimin impakt faktoru yüksək olan beynəlxalq elmi jurnallarda dərc



edilməsi üçün çalışıram. Bununla yanaşı üzərində işlədiyim və həyata keçirməyi planlaşdırdığım bir neçə layihəm var.

**- Bir çox hallarda müəllimlərin tələbələri dərs proseslərinə cəlb etmələrində çətinliklər olur. Bu mənada siz hansı pedoqoji üsul və ya metodlardan istifadə edirsiniz?**

- Əslində bu barədə elə bir çətinlik yaşamamışam. Çünki tələbələrin dərslərdə iştirakı normaldır. İstər ənənəvi, istər onlayn dərslərdə tələbələrimiz mütəmadi olaraq iştirak edir.Pandemiya şəraitində Odlar Yurdu Universitetinin də əsas hədəfi tədris prosesində davamlılığın təmin edilməsidir. Bu səbəbdən dərslər hibrid formada, yəni həm onlayn, həm də auditoriyalarda keçirilir.

Seminarlar universitetdə, mühazirələr isə "Mcrosoft Teams" proqramı üzərindən həyata keçirilir. Universitetdə pandemiya əleyhinə də bütün tədbirlər görülüb. Tələbələr arasında koronavirusa yoluxma müşahidə olunmur. Tələbə və müəllimlərimiz arasında onlayn ünsiyyətin yüksək səviyyədə təşkil olunması, tədris materiallarının əlçatanlığı, tələbələrin və müəllimlərin universitet daxilində bir-biriləri ilə yaratdığı informasiya və enerji mübadiləsi, sosiallaşma universitetimizdə təhsilin keyfiyyətinə birbaşa təsir edir. Biz əlimizdə olan resurslardan və şəraitdən maksimum yararlanıb tələbələrimizə mümkün olduğu qədər faydalı olmağa çalışırıq. Eyni zamanda, prosesin səmərəliliyini artımaq üçün müxtəlif beynəlxalq təcrübələri araşdırır, keyfiyyətli təhsil üçün daha uğurlu olan pedaqoji metodları tətbiq edirik.

Bir də düşünürəm ki, yaxşı müəllim onsuz da liderdir və öz tələbələri üçün nümunədir. Müəllim elə fəaliyyət göstərməlidir ki, tələbələrin zehnində və qəlbində ancaq müsbət keyfiyyətlərin yaranmasına kömək etsin. Mən də fəaliyyət göstərdiyim müddət ərzində bu prinsiplərə sadiq qalmağa çalışmışam.

**- Fikrinizcə bu gün ölkəmizdə və elə sizin də çalışdığınız ali məktəbdə ali təhsilin tədrisi ilə bağlı dünya praktikasından nə dərəcədə müsbət istiqamətdə faydalana bilirik?**

- Hazırda ölkəmizdə böyük vüsətlə həyata keçirilməkdə olan təhsil islahatının əsas hədəflərindən biri təhsil sistemimizin beynəlxalq təhsil məkanına inteqrasiyasını təmin etməkdir. Bu məsələ ölkəmizdə pedaqoji kadrlar hazırlayan təhsil müəssisələrindən olan Odlar Yurdu Universitetinin də daim diqqət mərkəzindədir.

Bu gün dünyanın tanınmış ali məktəbləri arasında layiqli yer tutan Odlar Yurdu Universiteti dünyanın aparıcı ali məktəbləri ilə sıx əlaqələr yaratmışdır. Bu əlaqələrin genişlənməsində universitetimiz xarici ölkələrin ali məktəbləri ilə ikitərəfli əməkdaşlığa, beynəlxalq təhsil proqramlarında iştiraka, müxtəlif elm-təhsil qurumları ilə birgə layihələrin həyata keçirilməsinə, universitetlərin beynəlxalq assosiasiyalarında təmsil olunmağa, xarici ölkələrin Azərbaycandakı səfirlik və nümayəndəlikləri ilə əməkdaşlığa, Azərbaycan dili və ədəbiyyatının dünya birliyində təbliği və yayılmasına xüsusi əhəmiyyət verir.

Universitetin professor-müəllim heyətinin xarici elm tədris ocaqlarındakı fəaliyyəti, tələbə, magistrant və doktorantların dünyanın bir çox ali məktəblərində, əcnəbi vətəndaşların isə Odlar Yurdu Universitetində təhsili məsələlərinə xüsusi diqqət yetirilir.

**- Elmi fəaliyyətlə məşğulsunuz. Əgər müəyyən səlahiyyətiniz olsa idi bu gün bu sahədə nə kimi çatışmazlıqları aradan qaldırmağı təşkil edərdiniz? Və hazırda yöndə nə kimi perspektivlər var?**

- Təəssüf ki, ölkəmiz təhsilin inkişafı sahəsində son illərdə çox mühüm nailiyyətlər əldə etsə də, inkişaf etdirilməsinə ehtiyac duyulan sahələr də var. Düşünürəm ki, pedaqoji kadr hazırlığında, onun inkişafının kəmiyyət və keyfiyyət göstəricilərində müəyyən problemlər var.

İstərdim ki, doktorantlar öz ixtisasları ilə bağlı daha geniş aspektdə, həm respublikada, həm də xarici ölkələrdə təcrübə keçmə imkanlarına malik olsunlar, tədqiqatyönümlü tədrisə daha geniş yer verilsin. Eyni zamanda dissertasiya müdafiəsi üçün tələb olunan yerli və xarici nəşrlərin, monaqrafiya, dərsliklər üçün vəsaitlərin nəşrinə ehtiyac olduğunu hesab edirəm.

**- Yaxın gələcəkdə ümumi fəaliyyət planlarınız barədə də məlumat verməyinizi istərdik.**

- Hazırda əsas hədəfim yaxın 1 il ərzində doktorantura təhsilimi başa vurmaq və elmi işimi müdafiə etməkdir. Akademik karyeramda daha da irəli getmək və öz sahəmdə tanınan bir tədqiqatçıya çevrilmək, özümü daima inkişaf etdirmək arzusundayam. Bir mütəxəssis olaraq, bundan sonra da ixtisas biliklərimi daha səmərəli şəkildə tətbiq edəcəyimə inanıram.

**- Son olaraq tələbələr, ümumiyyətlə ali məktəblərdə müəllim kimi çalışmaq istəyən gənclərə nə kimi tövsiyyə və deyəcəkləriniz var?**

- Müəllimlik çətin peşədir. Məsuliyyəti isə ağırdır. Yolunu, istiqamətini düzgün müəyyən etməlisən. Kənardan baxanda asan görünə bilər. Amma heç də belə deyil.

Gənclərə tövsiyəm hansı sahədə çalışmaqlarından asılı olmayaq, vəzifələrini vicdanla yerinə yetirsinlər, peşələrindən irəli gələn məsuliyyətin fərqində olsunlar, ölkənin gələcək taleyini müəyyən edəcək gəncləri dərrakəli, savadlı, vicdanlı, vətənpərvər, güclü vətəndaşlar kimi yetişdirərək ən çətin məqamlarda belə təmsil etdikləri müəssisəyə sadiq qalsınlar, onlara göstərilən etimadı doğrultsunlar.

Əziz gənclər, sevdiyiniz və faydalı olacağınıza inandığınız sahəyə yönəlin, özünüzə daim inanın və hər uğursuzluqda, çətinlikdə ruhdan düşməyin!

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 13 (2287) 9 aprel 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Münaqişələrin diplomatik yolla həlli uğur gətirə bilər

**Məlum olduğu kimi 44 günlük Zəfər müharibəmizin dünya mediasında tirajlanması və bizim qələbəmizin ayrı-ayrı dövlətlərin hərbi mütəxəssisləri tərəfindən araşdırılması düşmənlərimizin o qədər də ürəyincə deyil. Hətta ermənilərin tez-tez təxribatlara əl atması, yenidən nəyəsə nail olma cəhdləri bu dediklərimizi birbaşa sübut edir. Təəssüflər olsun ki, ermənilərə bu məsələdə dəstək olanlar, onları yenidən döyüşə həvəsləndirən xarici qüvvələr də kifayət qədərdir.**

Bu qüvvələr ermənilərin revanş edəcəklərini məhz hərbi yolla yenidən Azərbaycan torpaqlarını işğal edə biləcəklərini onlara müxtəlif vasitələrlə "həzm" etdirirlər. Məsələnin kriminal tərəflərindən biri də budur ki, erməniləri həvəsləndirməkdə Qarabağın azad olunmuş ərazilərində yerləşdirilmiş "sülhməramlıların" da rolu heç kimə sirr deyil. Baxmayaraq ki, Rusiya üçtərəfli bəyanatda öz üzərinə böyük bir öhdəlik götürübdü.

Bütün bunlara baxmayaraq, Azərbaycan prezidentinin qətiyyəti və ardıcıl, dinamik, uğurlu, xarici siyasəti təkcə erməniləri deyil, həm də azərbaycanın digər əleyhdarlarının çıxılmaz duruma salmaqla onları reallıqla barışmağa məcbur edir. Bu mənada Brüsseldə keçirilən görüş xüsusi bir əhəmiyyət kəsb edir.

Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə Bakı və Yerevan arasında sülh danışıqlarına başlanılması barədə razılaşma əldə edildi.

Görüşün nəticələri barədə mətbuata açıqlama verən Şarl Mişel bildirdi ki, "Zaqafqaziyada stabillik və tərəflər arasında müəyyən uğurlu nailiyyətlərin əldə olunması xüsusi əhəmmyyyət kəsb edir... Biz tərəflər arasında pozitiv nəticələrin əldə olunmasına çalışırıq.

Bu gün əhəmiyyətli inkişafa nail olduq. İlham Əliyev və Nikol Paşinyan tərəflər arasında sülh danışıqlarına hazırlıqla bağlı razılığa gəldilər".

Avtopa İttifaqı Şurasının xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə komissarı Jozep Borrel "Twitter" hesabında, Azərbaycan və Ermənistan arasında davamlı sülh, sabit və təhlükəsiz Cənubi Qafqaz istiqamətində işləmək üçün mühüm səylər və irəliləyişlərin olduğunu vurğulayaraq qeyd edb ki, mövcud geosiyasi kontekstdə münaqişələri diplomatik yolla həll etmək həmişəkindən daha vacibdir.

"Kreml Azərbaycan və Ermənistan arasında sülh danışıqlarına hazırlığa başlamasını müsbət qiymətləndirir və alqışlayır". Rusiya Federasiyası prezidentinin mətbuat xidmətinin rəhbəri Brüssel görüşündə əldə edilmiş razılaşmanı belə qiymətləndirərək əlavə edib ki, "Pozitiv addımdır. Aydındır ki, bu çox və çox uzun bir prosesdir, lakin belə bir sənədin bağlanması istiqamətində irəliləyiş çox müsbət faktdır və alqışlanır".

Brüssel görüşü regionda sülhün və stabilliyin əldə olunmasında mühüm rol oynaya bilər. Görüşün təşkilatçısı Şarl Mişelin açıqlamaları da buna böyük ümidlər verir.

Görüşdə əldə olunan nəticələrin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzun illər apardığı xarici siyasətin uğurları kimi qiymətləndirilməlidir. Beləki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüş demək olar ki, beynəlxalq hüquq normalarına uyğun olan, Azərbaycanın təklif etdiyi beş şərt üzərində aparıldı.

Nikol Paşinyanın təklif etdiyi ATƏT-in Minsk qrupunun da sülh müqaviləsinə qoşulması və artıq mövcud olmayan Dağlıq Qarabağla bağlı təklifi ümumiyyətlə müzakirə olunmadı.

Yüksək səviyyədə keçirilən Brüssel görüşü Azərbaycanda sülh danışıqlarına müəyyən ümidlər yaratsa da, Ermənistanda panik vəziyyətin yaranması müşahidə olunmaqdadır. Görüş ərəfəsində Ermənistana uzun müddət uğursuz rəhbətlik etmiş Qarabağ klanı, bu görüşün baş tutmaması, ən azından baş nazir Paşinyanın əl-qolunun bağlanması üçün çox səylər göstərdi, lakin artıq onlarda etiraf edirlər ki, Azərbaycan Prezidenti İlham Əliyev bu raunda da təmiz qələbə çaldı.Beləki, Aİ Şurası sədri Şarl Mişelin yekun bəyənatında Azərbaycanın irəli sürdüyü təkliflərin qəbul edildiyi vurğulandı.





Erməni siyasiləri Brüssel görüşündə Qarabağ barədə, statusla bağlı heç bir söz də işlətmədiyini, ATƏT-in Minsk qrupu həmsədirlərinin kənarda qalmasını həzm edə bilmirlər. Onlar Brüssel görüşünün "erməni milli maraqlarının Qərbin siyasi maraqlarının altında basdırıldığını" bildirirlər.

Erməni "ekslərinin" düşdüyü vəziyyət başa düşüləndir. İlham Əliyev və Şarl Mişel Paşinyana geniş manevr imkanları yaratmadılar. İndi Ermənistan baş nazirini ölkəsində siyasi opponentləri ilə çətin mübarizə gözləyir. Paşinyan bu mübarizədə qalib gələrsə, keçmiş rəhbərlik - Qarabağ klanını əbədiyyətə göndərməyə müvəffəq olacaq. Lakin, Azərbaycan Milli Məclisinin deputatı Könül Nurullayevanın da dediyi kimi, mümkün sülh sazişi üçün Ermənıstan ortaq iradə göstərməyə məcburdur... İrəliləyişə nail olmaq, əməkdaşlıq etmək, prioritetləri, ata biləcəyimiz konkret addımları müəyyənləşdirmək üçün tərəflər səy göstərməlidirlər.

Əslində Etmənistan tərəfi uzun illər davam edən danışıqlar prosesini həmişə uzatmağa, prosesə mane olmağa çalışıb. Lakin "bu gün, o gün deyil".

Paşinyan da, ona müxalif olan Qarabağ klanı da, onlara havadarlıq edənlər də, gözəl anlayırlar ki, Qarabağ məsələsi 2020-ci ildə, 44 günlük "Zəfər Qələbəsi" ilə həll olunub. Onların istəklərindən asılı olmayaraq, sülh müqaviləsi üzərində işlər başlamalıdır. Əks halda, Prezident İlham Əliyevin də dəfələrlə vurğuladığı kimi, Ermənistan çox acınacaqlı vəziyyətlə qarşılaşacaq.

**Hazırda Ermənistanda gedən proseslər və erməni cəmiyyətində hökm sürən əhval-ruhiyyə onu göstərir ki, Azərbaycan Prezidentinin siyasi-diplomatik səyləri böyük səmərə verir və Ermənistanın müxtəlif iddialarla prosesi ləngitmək cəhdləri iflasa uğrayır.**

**Rüstəm Hacıyev**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



ZAKİR FƏXRİ

## ŞƏXSİYYƏT VƏSİQƏSİ

*Yolumu sapdım, deyəsən,*
*Bu dünyaya azıb gəldim.*
*Göy üzü dərddən çatladı,*
*Qoşulub bir damla suya,*
*Mən o çatdan sızıb gəldim...*
*Gördüm qanadlanır quşlar*
*Bir səsə - Azan tərəfə.*
*Adamlar ardımca gəlir,*
*Gəlir mən azan tərəfə...*
*Gördüm dil açıb çöl-bayır,*
*Göylərdən yağış diləyir.*
*Bir qarı günlərin sayır,*
*Bir qoca ömrün ələyir.*
*Dörd bir yanı duman aldı,*
*Quşlar avaza gəlmədi.*
*Qəriblikdən sərxoş düşdüm,*
*Ruhum namaza gəlmədi.*
*Yolumu sapdım, deyəsən,*
*Bu dünyaya azıb gəldim.*
*Göy üzü dərddən çatladı,*
*Qoşulub bir damla suya,*
*Mən o çatdan sızıb gəldim...*

## SƏS

*Bir səsə ilişib qaldım,*
*Yerimdəcə düşüb qaldım.*
*Yolayrıcı çaşıb qaldım,*
*Bu səsin əlindən al məni, Tanrım.*

*Başım üstü bulud idi,*
*Buluddanmı doğdu bu səs?*
*Anam, atam umud idi,*
*Umuddanmı doğdu bu səs?*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Dağ gördüm, gözüm yaşardı,*
*Ruhumu xəyal apardı.*
*Qoyma məni hal apardı...*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Çəkər məni yuvasına,*
*Oynadar öz havasına.*
*Vallah, alışa bilmərəm*
*Dərmanına-davasına,*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Bu səs yaddaşımdan gəldi,*
*Qopub başdaşımdan gəldi.*
*Bu səs göz yaşımdan gəldi...*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Bu səs yaman tutdu məni,*
*Dərya olub uddu məni.*
*Kim sevdi, unutdu məni...*
*Bu səsin əlindən al məni, Tanrım.*

*Dağa-daşa saldı məni,*
*Yüz savaşa saldı məni.*
*Üz tutdum üzü bahara -*
*Üzü qışa saldı məni.*
*Bu səsin əlindən al məni, Tanrım!*

*Yetər bu gördüklərimin*
*Gözlərimi böyütdüyü...*
*Ürəyim dəyirman olub,*
*Dərddi, qəmdi üyütdüyü -*
*Bu səsin əlindən al məni, Tanrım!*

## XOŞ GƏLDİN, DƏRDİM, XOŞ GƏLDİN!

*Göylərin yeddi qatından,*
*Qəriblərin ovqatından.*
*Qəmlərimin çatından*
*Keçib, sinəmə tuş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Yelkən oldun, üzdü gəmim,*
*Çiçəklədi qüssəm, qəmim.*
*Tumurcuqladı qələmim.*
*Qaşsız baxtıma qaş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Sənsiz dünyam həzin düşdü,*
*Hər günümə hüzn düşdü.*
*Döndün, odun, közün düşdü.*
*Boş ruhuma savaş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Üz tutdum Söz dərgahına,*
*Od üçün köz dərgahına...*
*Nədənsə öz dərgahına*
*Qayıdıb əliboş gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

*Gözündən yüz bulaq oydum,*
*İçdikcə demədim doydum...*
*Mizan-tərəziyə qoydum.*
*Sevgimlə baş-başa gəldin,*
*Xoş gəldin, dərdim, xoş gəldin!*

## QARA TORPAQ, MUĞAYAT OL ANAMDAN

*Yükünü çəkəmmədim,*
*Arzusunda bünövrəsini qoyduğu*
*evini tikəmmədim.*
*...Dumanlı köçdən ayrılıb,*
*ocağı başında yanammadım.*
*İşıq olub gözlərinə qonammadım,*
*Qara torpaq, muğayat ol anamdan.*

*Qulaq asmadım*
*xeyirxah dualarındakı*
*yalvarışlara.*
*Damar-damar qəmə dönüb,*
*çökdüm alnındakı qırışlara.*
*Xəbər tutammadım düşəndə xəstə,*
*Saxlaya bilmədim gözümün üstə,*
*Qara torpaq, muğayat ol anamdan.*

*Ölüm bəlli, olum yox.*
*Yeri soyuq düşməsin,*
*Bürüməyə şalım yox,*
*İsti közümü yetir.*
*Külümdən duyuq düşməsin,*
*Qara torpaq, muğayat ol anamdan.*

*Qəbrinə gedən cığırlar,*
*barı, itməsin,*
*İllərin altında qalıb*
*qoy məzarı itməsin.*
*Qara torpaq, muğayat ol anamdan.*

## TUT ƏLİMDƏN, YOLLAR, MƏNİM!

*Məni yolundan elədi...*
*Dağlar da durdu qəsdimə.*
*Qəlbimdən bir zərrə dərdi,*
*Götürüb atdım üstünə.*
*Əridi dağlar, əridi...*
*Köz-köz üstümə yeridi...*
*Hər şey adamı aldadır,*
*Acı zəhər də bal dadır...*
*Tut əlimdən, yollar, mənim,*

*Bir gör ruhum nə haldadır...*
*Düşüb gümanda azıram,*
*Batıb dumanda azıram...*
*Bir kor zamanda azıram,*
*Tut əlimdən, yollar, mənim!*
*Tamah çəkir öz yoluna,*
*Günah çəkir öz yoluna.*
*Gəl bu dərdin döz yoluna...*
*Tut əlimdən, yollar, mənim,*
*Apar məni Söz yoluna!*
*Tut əlimdən, yollar, mənim!*
*Qıyma şaxta, sazaqlara...*
*Qəribləri yığ başına,*
*Apar, apar uzaqlara...*
*Apar bizi dağ başına,*
*Tut əlimdən, yollar, mənim!*

## O AĞLAYAN KİMDİ ELƏ?

*O ağlayan kimdi elə?*
*Ağlaya-ağlaya gülür...*
*Sinəsini qan aparır,*
*Yarasının düyməsini*
*Bağlaya-bağlaya gülür...*
*Ocağı kül, közü gülən...*
*İçi yanıb, üzü gülən,*
*Göz yaşında gözü gülən*
*O ağlayan kimdi elə?*
*Sığınıb qərib dağlara,*
*Batıb qalıb uzaqlara.*
*Qısılıb ötən çağlara*
*O ağlayan kimdi elə?*
*Baxıb şəkil düşən daşa,*
*Göydə süzən tənha quşa...*
*Uşaqlığıyla baş-başa*
*O ağlayan kimdi elə?*
*Dayanıb yolayrıcında,*
*Gözünün yaşı ovcunda.*
*Son Söz dilinin ucunda*
*O ağlayan kimdi elə?*

## SƏNSİZ

*Təki sən xoşbəxt ol, sən xoşbəxt yaşa,*
*Bir daha deməərəm "ölərəm sənsiz",*
*Ömrümü birtəhər vuraram başa,*
*Yaşayıb keçinə bilərəm sənsiz.*

*Ataram qəlbimdən qüssə, qəmi də,*
*Yaşaram vəslinə yetmiş kimi də.*
*Bir içim suyu da, son tikəmi də*
*Səninlə şərikli bölərəm sənsiz.*

*Söylərəm dost, tanış-bilişlərinə,*
*Qurbanam bu yerə gəlişlərinə.*
*Həyatda uğurlu gülüşlərinə*
*Ürəkdən şərikli gülərəm sənsiz.*

*Çalınar kədərim sarı sim kimi,*
*Gəl çilən ruhuma təbəssüm kimi.*
*Məzara baş çəkən bir yetim kimi*
*İlk görüş yerinə gələrəm sənsiz.*

*Zakir Fəxri, hicran boş yuvam olub,*
*Yaşaram gah gündüz, gah axşam olub,*
*Pərvanə soraqlı dilsiz şam olub,*
*İçimdə ney kimi mələrəm sənsiz.*

## ÖLÜM

*De, hara getdin baş alıb?*
*Yerin, yurdun bilinmədi...*
*Gördüm ki, dünya boşalıb,*
*Nəydi dərdin, bilinmədi...*
*Üzümü tutdum dağlara,*
*Baxdım ki, dağlar kiçilib...*
*Quşlar qonmur budaqlara,*
*Körpə budaqlar kiçilib...*
*Göz açdım ki, təklənmişəm,*
*Səhrada azan kimiyəm.*
*Qəriblikdə yüklənmişəm,*
*Bir qərib ozan kimiyəm.*
*Gördüm dörd yanı su basıb,*
*Ha əlləşdim, keçəmmədim...*
*Bir az susuzdum mən kasıb,*
*Bir qurtum su içəmmədim...*
*Ağaclar quruyur, gördüm*
*Çiynimə yarpaq tökülür...*
*Gözlərimin nuru gedir,*
*Gözümə torpaq tökülür...*
*Hara getdin, söylə, hara?*
*Kürəklərim buz bağladı...*
*Gözlərimin suyu getdi,*
*Bəbəklərim buz bağladı...*

## ÇİYNİMDƏ TABUT, GƏZİRƏM

*Alışdım tək daşımağa,*
*Çiynimdə yük daşımağa,*
*Yer yox bir tük daşımağa,*
*Çiynimdə tabut, gəzirəm.*
*Dolaşıram dağı-daşı,*
*Nə zər, nə yaqut gəzirəm.*
*Düyün-düyün yollarımı*
*Aça-aça oxuyan bir*
*Kökdən düşmüş ud gəzirəm.*
*Çiynimdə tabut, gəzirəm.*
*Gəzirəm dörd bir tərəfi,*
*Bilmirəm yolum haradı.*
*Çəkir məni sirr tərəfi...*
*Ölümü gördüm, deyəsən,*
*Görəsən, olum haradı?*
*Suyuna dodaq dəyməmiş,*
*Köksünə ayaq dəyməmiş,*
*Sinəsinə ox dəyməmiş*
*Gözdən uzaq yurd gəzirəm,*
*Çiynimdə tabut, gəzirəm.*
*Dörd yana meydan sulayan,*
*Səsi ruhunu dalayan,*
*Axirət deyib ulayan*
*Yalqız qalmış Qurd gəzirəm,*
*Çiynimdə tabut, gəzirəm.*
*Balalar çiçək doğulur,*
*Gül doğulur balalar.*
*Balalar göyçək doğulur,*
*...Qul doğulur balalar.*
*Torpaqdan altun doğulur,*
*Daşlardan yaqut doğulur,*
*Nədənsə şair doğulan*
*Çiynində tabut doğulur.*
*Çox göynətdi ürək məni,*
*Dərdsiz ürəyə qurd düşər...*
*Silkələmə, fələk, məni,*
*Çiynimdəki tabut düşər!..*

## BİR AZ DA GƏLDİM YAXINA...

*Qopdum odumdan, közümdən,*
*Əllərim qopdu dizimdən.*
*Bir az da qopdum özümdən,*
*Bir az da gəldim yaxına...*
*Keçdim ilanlı yolları,*
*Daşlı, tikanlı yolları,*
*Bazar-dükanlı yolları...*
*Bir az da gəldim yaxına...*
*Bir az da qaçdım tamahdan,*
*Nəfslə çəkdiyim ahdan...*
*Qurtuldum bir az günahdan,*
*Bir az da gəldim yaxına...*
*Aldandım dilə, dilçəyə,*
*Qoca nəfsə - ağbirçəyə!*
*Üz çevirdim gül-çiçəyə,*
*Bir az da gəldim yaxına...*
*Dünya şirə, şirələndim,*
*Hər pətəkdə girələndim.*
*Qəm xəlbirində ələndim,*
*Bir az da gəldim yaxına...*
*Çiynimdən yükləri atdım,*
*Hey üzdüm üzü axına...*
*Addım-addım gəlib çatdım,*
*Bir az da gəldim yaxına...*
*Doğmalarım döndü yada,*
*Evim oldu qərib ada...*
*Dolaşıb payi-piyada,*
*Bir az da gəldim yaxına...*
*İçim yalan, çölüm yalan,*
*Bu daş dərddən ölüm yalan.*
*Çat verdi tikdiyin qalan,*
*Bir az da gəldim yaxına...*
*Gözlərimi bağla, Tanrım,*
*Adəm olan bağlamasın...*
*Ağla məni, ağla, Tanrım,*
*Məni bəndə ağlamasın...*

## Teatrda "Qara işıq"




**Tanınmış yazıçı Əyyub Qiyasın "Qara işıq" romanının təqdimat mərasimi keçiriləcək.**

**Adalet.az xəbər verir ki, təqdimat aprelin 15-i saat 15-də Gənc Tamaşaçılar Teatrında baş tutacaq.**

**Roman Rüfət adlı yazıçının psixi vəziyyətindən, üzləşdiyi problemlərdən, taleyindəki sərt dəyişikliklərdən bəsh edir.**

**"Qara işıq" alman, gürcü və rus dillərinə tərcümə edilib və Almaniyanın Münhen şəhərində kitab kimi çap olunub. Bu ilin sonuna qədər rus dilində çap olunması planlaşdırılır.**

**Emin**

## Yağış yağacaq, güclü külək əsəcək

**Bakıda və Abşeron yarımadasında aprelin 9-da hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, lakin gecəyə doğru bəzi yerlərdə az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz arabir güclənəcək.

Azərbaycanın rayonlarında bu gün havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, intensiv olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

# Rəmiş və lal Taryelin toyu

**Təxminən 1983-cü il idi. O vaxtı mən məktəbliydim və o vaxtın ən müasir texnikası olan maqnitafonlardan bizim evdə də vardı. Adı yadımdan çıxmaz: "Romantika"**

Atam o maqnitafonu alıb evə gətirəndə necə sevindiyimizi indi də unutmuram. Maqnitafonun üstündə bir dənə də boş kasset vardı. Qardaşım səhər o kasseti götürüb evdən çıxdı. Günortadan sonra evə qayıdanda əlində də maqnitafonumuzun təzə kassetindən başqa 5-6 ədəd də başqa kasset vardı. Atam əlavə kassetləri görəndə mimikası dəyişdi. Narazı qaldığını büruzə versə də, susdu. Qardaşım əlindəki kassetlərə necə valeh olmuşdusa, atamın o narazıçılığını hiss eləmədi, yox e, hec vecinə də olmadı. Bəh-bəhlə bu gün Ağdamın bütün kaset satan "budka"larını gəzdiyini, Rəmişin, Səxavətin, bir də Qədirin kassetlərini aldığını elə sevinclə söyləyirdi ki, sanki aydan torpaq gətirib:

***- Ata, bu kasset var ha... Satan dedi ki, Rəmiş lal Taryelin toyunda nətər gitara çalıbsa, həmin toy düz səhərə qədər davam edib. Bax, bu kasset o toydandı. Hə, bu biri kasset rəis oğlunun toyundandı. Hələ bax, bu kasset var ha, kasset satan deyir ki, bu Abdal - Gülablı toyudu. Rəmiş burda "qan" eliyib.***

Söhbətdən sonra "əyani" hissə başladı. Ata-bala - ikisi də musiqinin sehrinə düşdülər. Eləcə, "Romantika" nın qarşısında süst qaldılar. Az sonra musiqi məni də ram elədi. Bəli, Rəmiş gitaranı çalmırdı, yox e, bu söz o musiqinin , o sədanın yanında kasıb söz kimi qalırdı. Rəmiş gitaranı mələdirdi, ağladırdı, Necə edirdi, nə cürə bacarırdı bilmirəm, amma qəflətən ağlatdığı yerdə gitaranı güldürürdü, sevindirirdi, şadlandırırdı... O gitarasına hansı ruh halıyla yanaşırdısa, o ruh halını gözlərini "Romantik" ə zilləyib öz xəyal aləmlərinə qapılmış "aludəçi"lər də yaşayırdılar. Bax ilk dəfə Rəmişin ifasında "Lal Taryelin toyu" kassetini dinləyəndə haldan- hala təbdən- təbə düşdük. Hətta o vaxt mənə elə gəldi ki, musiqi sədaları altında çox əsəbləşmişəm. Atam, mən , qardaşım... dinməzcə, gözümüzü qırpmadan, acgözlüklə musiqin sehrindəyik. Amma nə idi, qəflətən bizi əsəbləşdirən...? O illərdən çox zaman keçib.. Çox.. və o zaman içində, dəfələrlə Rəmişi eyni acgözlüklə, min cür, qəribə, haldan-hala , təbdən təbə salan hisslərin ağuşunda dinləmişəm. Bax, onda hiss etdim , daha doğrusu anladım ki, musiqiyə qulaq asdığım yerdə niyə əsəbləşmişdim. Bəlkə dəfələrlə siz də müşahidə etmisiniz, Rəmişin əli gitaraya dəyəndə Rəmiş bu dünyadan qopurdu... Hara gedirdi, haraları ziyarət edirdi özündən başqa kimsəyə agah olmurdu. Bütün toy mağarı nəfəsini qısıb onu dinləyirdi, onun arxasınca düşürdü. Tapa bilmirdilər. Tapa bilməzdilər, təbii ki... Amma o səssizliyin içində, o "aludəçi"lərin arasında hansı bir heyrətli səsin sahibinin





"Pahh atonna, mələdir eyyy" , "Allah, Allah" , "Bu alətdə ifa etmək deyil, bu alətlə birlikdə yanmaq-tökülməkdi ", "Bu bir gitaranın, bir Rəmişin göylərdəki nə qədər, mələk vardı, müqəddəs vardı, onları ovsunlamasıdı, onları ovsunlayıb diz üstə gətirməsidi".

***Aha, aludəçilərin o heyrətli səsi Rəmişi gitarası ilə ziyarət elədiyi, çəkildiyi bilinməzliklərdə bəlkə də bir anlıq ayırırdı və elə o an da əsəbləşirdi Rəmiş. Bax onda o "aludəçi"nin də hayıfını o gitaradan çıxırdı, o musiqidən alırdı. Biz"Romantik"in qarşısında səssiz-səmirsiz oturmuşlar da həmin gitaranın səsinə , həmin musiqiyə qoşulub əsəbləşirdik...Özünün ruh halını bizə belə ötürürdü Rəmiş...***

Çox illər keçdi. 2007-ci il idi. Bir gün təsadüfən o böyük ovsunçunu işlədiyim "Ədalət" qəzetinin redaksiyasında gördüm. İlk dəfə idi ki, onu canlı-canlı görürdüm və elə bil çox yaxın qohumumu görmüşdüm. Bir başa yanına qaçdım. "Salam -məleykim" elədik. Düz iki dəfə ağzımı neçə illər məni narahat edən sözlə doldurub sual vermək istədim:"Rəmiş müəllim, əliniz gitaranın simlərinə dəyəndə hara gedirsiniz?"

Deyə bilmədim. Dedim, birdən uşaqlar zarafata salıb, güləcəklər ki, saa lazımdı?

***- Rəmiş müəllim....***

***- Hə....***

***- Mənnən şəkil çəkdirərsən?***

***- Gə, gə, dur yanımda.***

Kaş ki, soruşaydım... Rəmiş gitarası ilə birgə gedib, ziyarət etdiyi yerlərə indi birdəfəlik gedib və bir daha dönməmək şərti ilə...

Yenə Rəmişin və sehirli gitaranın səsi gəlir. "Lal Taryelin toyu"deyil , amma daha oynaq bir musiqidir. Dinləyirəm, dinləyirəm... Rəmişin sevindiyini hiss edirəm... İndi hüznlənə bilmirəm, heç kədərlənmirəm də, hətta azacıq sevinirəm də ... içimdə bir hiss var ki, Rəmiş bu gedişi çoxdan, lap çoxdan istəyirdi. Həm də sevinə-sevinə istəyirdi. Sadəcə Gülünü qoyub gedə bilmirdi... Musiqi, hisslər... Rəmiş ruh halını zərrə- zərrə mənə diktə edir... mən də sevinirəm...

**Cənnətində əbədi qal Rəmiş! Barmaqlarının sehrinə düşən, dizinə gətirdiklərin müqəddəslər hər zaman yanında olsunlar..**

**Əntiqə Rəşid**

# Türk səhər yeməyi



**Sağlam, ləzzətli və qidalandırıcı olması ilə tanınan türk səhər yeməyi kiçik qablarda şirin və duzlu yeməklərdən, çörək və bitməyən çaydan ibarətdir. Türklər səhər yeməyinə xüsusi önəm verir.**

Türk səhər yeməyinə adətən pomidor cığırtması (menemen) daxildir. Xiyar, pomidor, zeytun, müxtəlif pendirlər, bal, qaymaq, mürəbbə, kərə yağı və sosiska səhər yeməyinin ayrılmaz parçasıdır. Bu səhər yeməyi formasına Türkiyədə ”sərpmə kahvaltı” deyilir.

Səhər yeməyinin unikallığı ondan ibarətdir ki, saysız-hesabsız qidalandırıcı təamları ilə bütün ailəni, dostları, qohumları ətrafına toplayır və müxtəlifliyi ilə hər kəsin gözünü qamaşdırır.

Türk səhər yeməyinin başqa bir ayrılmaz parçası da simitdir. Küncütlü simit və yumşaq baton çörəyi türk xalqının sevimli qidalarındandır. Xüsusilə tez yeyilən səhər yeməyi üçün bir dilim pendir və bir simit kifayətdir. Həm gənclər, həm də yaşlılar simit yeməyi sevir.

### *Türk Çay Mədəniyyəti*

Türkiyədə hər bir ”sərpmə kahvaltı” çay və ənənəvi lalə formalı fincanlarla bəzədilir. Çay türklərin həyatına gec daxil olsa da, 5000 illik tarixə malikdir və artıq türk mədəniyyətinin ayrılmaz hissəsinə çevrilib. Çay günün istənilən vaxtı içilir və səhər yeməyinin əvəzolunmazdır. İnanılmaz səhər həzzinizi tamamlamaq üçün sizə lazım olan tək şey bir fincan gözəl türk çayıdır. Qara dəniz bölgəsində yığılan çay yarpaqlarından dəmlənmiş çayı içməyi unutmayın.

### *Pendir*

Ağ pendir istənilən türk səhər yeməyi süfrəsində mütləq olmalıdır, lakin tipik bir türk səhər yeməyinə onlarla müxtəlif növ pendir daxildir. Anadoluda pendir çeşidləri demək olar ki, sonsuzdur: Qars kaşarı, Qars qruyeri, Van otlu pendiri, lor pendir (az duzlu, az yağlı pendir), dil pendiri (saçaqlı təzə süd pendiri) və s.

### *Zeytun*

Adətən həm qara, həm də yaşıl zeytun servis edilir. Türk zeytunlarının çox dadlı olmasına hazır olun!

# Erkan Demir: "Azərbaycan sevdiyim və ikinci vətənim deyə biləcəyim qədər dəyərli hiss etdiyim yerdir"

## "Peşmanlığınızdan müsbət mənada istifadə edin"

***Bu dəfəki müsahibim " Xəyaldan gerçəkliyə səyahət" kitabınının müəllifi, peşəkar kouç, psixoloq, dünyanın ən xoşbəxt insanı kimi tanınan, həmçinin sosial sima olan Erkan Demirdir. İxtisasını Anadolu Turizm və Otelçilik fakültəsində almış və paralel olaraq peşəkar şəkildə sahibkarlıq etmiş və satuş inkişaf müdiri, regional meneceri olaraq biznesin ən uğurlu insanı kimi rekorda imza atmışdır.Şəxsi inkişafın özünə sərmaye olduğunu düşünən Erkan Demir bu sahədə mütəxəssis olan universitet və qurumlardan təhsil alıb. Universitet və rəsmi qurumlarda əsas spiker olaraq ümumi sayı 150 mindən çox insanlara rəsmi seminarlar təşkil etmiş, peşəkar təlim videoları ilə ölkə daxilində və xaricdə bir çox universitetlərin distant təhsil mərkəzlərində 1 milyondan artıq auditoriyaya çatmış, öz bilik və bacarıqlarını dünya qismində tətbiq etmiş, minlərlə insana şəxsi inkişaf yönündən psixoloqluq etmişdir. Uğurları Azərbaycandan da yan keçməyən Erkan Demir azərbaycanlı həmvətənlilərimizə də təhsil və təlimlər keçmişdir. Elə isə onunla olan səmimi müsahibəmi sizlərə təqdim edirəm. Nəzərinizə çatdırım ki, müsahibə türkcədən çevirilərək yazılıb.***

**- Erkan bəy, xoş gördük sizi, ilk sualımı belə ünvanlamaq istəyirəm ki, sizi dünyanın ən xoşbəxt adamı kimi tanıyırlar. Bu ismi götürmək haradan ağlınıza gəldi?**

- 20 İyun 2010… Həyatımın dönüm nöqtəsi… Daha doğrusu yenidən doğduğum gün…

Yaş 35di. Şair demişkən, yolun yarısında qalmışdım. Çox qaçdığım, cəhd etdiyim, uğur qazanmaq üçün hər cür cəhd etdiyim vaxt idi. Kırklarelidə müxtəlif qida sektorlarına aid bir çox məşhur brendlərin distribütoru, satış inkişaf şefi və regional meneceri olmuşam. Elə vaxtlar olub ki, uğurdan uğura qaçdığımı düşünürdüm və eyni zamanda özümü xoşbəxt görürdüm. Amma nəyinsə düz getmədiyi hissi məni usandırırdı. Özümlə çox tək qala bilmirdim və bu səsə çox qulaq asa bilmirdim. İçimdəki üsyanı eşidən kimi o səslər daha da bərkdən qışqırmağa başladı. Nə olubsa, elə həmin vaxt olub. İlk dəfə özümlə tək qalanda... İllərin mübarizəsi və bir anlığa təslim olan yorğun bədən... Doğrudanmı belə idi? On beş dəqiqə ölüm...

"Uşaqlıqdan bəri mübarizə apardığım mübarizə dayanmadan işləməkdir... İllər o qədər tez keçdi ki, həyatın mənasını deyil, həyatın zərurətini yaşamalı oldum və nəhayət, əl çəkdim...". İllərin yığılması bir anda yox oldu... Evlər, maşınlar və var zənn etdiyim həyat! Son dəqiqəyə qədər ödəniş problemləri və iyulun buxarlı istisi, Stress və ürək oynayır...

Öz nəfsini itirmiş, özündən uzaqlaşan, başqa mənliklərin maskası ilə gəzən insan. Bütün maskaları çıxardım və güzgüdə özümə baxanda dedim; Erkan, sen dünyanın ən mutlu insanı olacaqsan. Ayna dedi: Yalan. Nağıllardakı kimi... Dedim, olacaqsan, Erkan. Bu hekayədir, mən o gündən bu günə qədər 1,5 milyondan çox insana xoşbəxtlik və həyat haqqında danışmışam və bundan sonra da danışacağam.

**- Dünyanın ən xoşbəxt insanları kimlər sayılır?**

- Dünyanın ən xoşbəxt insanı dedikdə kədərlənməyən, ağlamayan, problemi olmayan insan nəzərdə tutulmur. Bax, məndə dünyada bir canlının bütün xüsusiyyətləri var. Məndə həm nifrət, həm düşmənçilik, həm kədər, həm təəssüf, həm bədbəxtlik, həm qorxu, həm də cəsarət var. İnsan emosional varlıqdır. O, bütün hissləri ilə bir bütövdür.

Təsvir edildiyi kimi, yalnız pozitiv olub gülümsəməklə xoşbəxt olmaq mümkün deyil. Xoşbəxtlik qəbul etmək, minnətdar olmaq, hazır olmaq halıdır. Nəyə hazır olmaq lazımdır? desəniz; Baş verəcək və yaşanmalı olan hər şey! Qəbul edilir. Məsələn, kompüterdən və ya İnternetdəki hər hansı bir proqramdan hər hansı kodu silsəniz, həmin sistem xəta verəcək. İnsan beyni həm də çiyin-üstü kompüter, yəni bioloji informasiya kompüteri olduğundan, onda heç bir emosiyanı qaçırmayacaqsınız. Bəs biz nə edəcəyik? Budur, Dünyanın Ən Xoşbəxt İnsanları, yaşadıqları hər hadisə qarşısında bunu yaşayır və diqqətlərini "Necə" sualına yönəldirlər. Bu emosiya və ya böhran anından necə qurtula bilərəm? Necə daha yaxşı ola bilərdi? Bunun necə baş verdiyi sualı həll yollarını gətirən sehrli bir vasitədir. Qısa; Hər bir emosiyanı yaşayan və emosiyalarını idarə etməkdə peşəkar olan insanlar "Dünyanın Ən Xoşbəxt Adamı" olublar. Onlar developer dilindən istifadə edirlər. Özlərini tənqid edirlər. Onlar inkişaf etmiş empati bacarıqları və yüksək emosional intellektə malik insanlardır. Özünə inam, özünə hörmət və özünə dəyər qazandıra bilən insanlardır. Onlar həll yönümlü və təşəbbüskar insanlardır. Özləri ilə barışan və şüurlu şüurla potensiallarını daim inkişaf etdirən insanlardır. Xoşbəxt insanlar; Onlar həll yönümlüdürlər. Onlar xırda işlərdə tər tökməzlər. Çətin anlarda israrlıdırlar. Onlar özlərini qarşıya qoyduğu məqsəd və baxışlara həsr edirlər. Onları xoşbəxt insanlar əhatə edir. Bədənlərinin qayğısına qalırlar. Münasibətlərini daim yaxşılaşdırırlar.

**- İnsanlar niyə xoşbəxt ola bilmir?**

- Dünyadakı bütün insanların ortaq arzusu varsa, bu xoşbəxtlikdir. Başqa cür eşitməmişəm. Bəzi insanlar ən pis anlarda belə tunelin sonunda işığı görür, bəziləri isə şükür etmək və ya cəhd etmək əvəzinə bədbəxtlikdən danışır. Deməli, bədbəxtlik seçimdir, bədbəxtlikdə, xoşbəxtlikdə. İnsanlar öz seçimlərinin məhsuludur. Nə yeyirlərsə qoxular, nə düşünürlərsə yaşayırlar. Bir insanın böyümə və yetkinləşmə mərhələlərində hansı coğrafiya, mədəniyyət və təhsilə məruz qalması xoşbəxtliyimizi şərtləndirən ən mühüm amillərdəndir. Araşdırmalarda;

20% qeyri-adekvat təhsil (işlə bağlı bacarıqların olmaması)

Yazılı və şifahi ünsiyyətdə 15% qeyri-adekvatlıq

15% bacarıqsız və ya problemli müdir, ailə idarəçiliyi

50% paradiqmaların olduğu müşahidə edilmişdir. Paradiqma bizim ağıl xəritəmizdir, dünyaya baxdığımız pəncərədir. Bu, özümüz və başqaları haqqında inancların, dəyərlərin, şəxsiyyətin, gözləntilərin, münasibətlərin, vərdişlərin, qərarların, rəylərin və nümunələrimizin məcmusudur.

Bu, ictimaiyyətə məlum kodlaşdırma dediyimiz şeydir. Bizi uğurlu və xoşbəxt edən problemlərimizi deyil, paradiqmamızı dəyişdirməkdir. Yeni bir ağıl xəritəsi yaratmağın yolu ardıcıllıqdır. Uyğun, tutarlı düşüncələr. Ağlınıza gələn və sonra gedən fikirlər deyil. Paradiqmalarımızı müsbətə doğru dəyişə bilsək; Dünya daha zəngin, daha rəngarəng və həyəcanlı bir yer ola bilər. Biz dünyanı fərqli görməyə, fərqli düşünməyə, fərqli hiss etməyə başlaya bilərik. Bu, bizə həyatdan həzz almağa və ona düzgün bucaqlardan baxmağa imkan verə bilər.

**- Bəzi insanlar qəzəbdən şikayət edirlər. İnsanlar niyə qəzəblidirlər?**

- Əvvəla, bir neçə terminin tərifinə nəzər salsaq, daha yaxşı şərhimiz olar.

*Emosiya:* Yaşadığımız dünyaya necə reaksiya veririk. Emosiya insanın xoşbəxt, kədərli, qəzəbli, həvəsli və ya qorxduğu zamanları ifadə edən sözdür. Hər hansı bir duyğu düşüncədən gəlir.

*Qürur:* Özünü güclü kimi göstərən zəif insandır.

*Qəzəb:* yerinə yetirilməmiş istəklərə, arzuolunmaz nəticələrə və qarşılanmamış gözləntilərə emosional cavab. Budur qəzəb, hirslə yaşamağımızın səbəbi, gözləntilər... İnsan et, etmə, toxun, bunu edə bilməzsən, 148.000 dəfə dəyişdirə bilməzsən kimi zəhərli pedaqoji təhsil prosesindən keçir. böyümək prosesində 5-12 yaş arasında qeyri-adekvatlıq, dəyərsizlik və etibarsızlıq kimi hisslərlə reaksiyalarının miqyasını tənzimləyə bilmir. Daim şikayət edir və gözləyirlər, insanların zəif və mənfi tərəflərinə diqqət yetirdikdə qəzəbi, qəzəbi və hətta inkişaf etmiş qəzəbi bəsləyirlər.

Bunlar, istəsək, öz duyğularımızı müəyyən etməklə və bu duyğuların ac qaldığı yerləri yenidən qidalandırmaqla idarə edə biləcəyimiz duyğulardır.

Hər şey özünə şəfqətlə başlayır, yəni özünü sevmək, bağışlamaq, bağışlanmaq istəmək... Sizi əsəbiləşdirən insanlardan, hadisələrdən uzaqlaşıb özünüzə yaxınlaşmaq lazımdır.

**- Son zamanlar davamlı olaraq mənəvi yüksəliş adına rast gəlirik. Ruhani yüksəliş nə deməkdir?**

- İnsanın ruhu, bədəni və ağlı harmoniya və tarazlıq içində olmalıdır. Ağlımıza və bədənimizə sərmayə qoyduğumuz zaman mənəvi sərmayəni gözdən qaçırırıq. Bu dəyişiklik deyil, özünü tanımaq, sevgi və şəfqətdir. Ən böyük ehtiyacımız özümüzə təqdim edə biləcəyimiz sevgidir. Qarşılaşdığımız bütün problemlərin həlli və ya cavabı özümüzdədir. Mənəvi yüksəliş şəxsi yoldur... Deyirdilər ki, sən mükəmməl yaradıl-



mışsan. Bəli, amma sən başqa bir insandan deyil, yaradılmışların ən mükəmməli olaraq yaradılmışsan. Başqa sözlə, başqa bir insandan kamillik söhbəti yoxdur. Mükəmməl olmağı dayandırın, onsuz da etdiyiniz hər şeydə mükəmməlsiniz.

İndi bir anlığa dayanın və mənəvi inkişafınıza ən çox kömək edəcək yol və üsulların hansı olduğunu özünüzdən soruşmağa başlayın. Suallara cavabınız var. Və cavablarınızı dərhal tətbiq edin. Gəlin onları dəstəkləmək üçün təsdiqlərlə investisiya edək.

Mən rahat, sakit və əminəm.

Həyatıma nəzarət edirəm.

Çətinlikləri dəf edəcək qədər güclüyəm. Qorxularımla üzləşməyə cəsarətim var.

Mən sağlamlıq adamıyam. Sağlam bədənim, ağlım və ruhum var. Hər şeyə görə minnətdaram.

Özümü həmişə sağlam, xoşbəxt və təhlükəsiz hiss edirəm, inanıram. Özümlə barışıram.

**- Erkan bəy, insan qorxularından necə xilas ola bilər?**

- Əvvəla, qorxu öyrədilmiş bir illüziyadır. Bu, sonradan öyrəndiyimiz bir illüziyadır. Hər şeydən əvvəl, xilas olmamız lazım olan qorxularımızı öyrənməliyik. Nədən qorxuruq? Bu qorxulara səbəb olan hadisələr, vəziyyətlər və s. amillər hansılardır? Oxşar təsbitlər etdikdən sonra o, bir sıra həll yolları ilə gəlir. İlk qorxumuz nə idi, gəlin ona nəzər salaq. Ana bətnindən o sığınacaqlı mayedən çıxdığımız an və xarici dünya ilə qarşılaşdığımız an! Bilirsən, mən doğulanda ağlamışam; O ağlama əslində ağciyərlərimizdən hava almağımıza imkan verən ilk toxunuşdan sonra dünyaya salam dediyimiz andır.

Həvəs qarşısında qorxu, real və ya gözlənilən təhlükə və şiddətli ağrıların oyanması, üzün saralması, ağızda quruluq, ürək, tənəffüsün sürətlənməsi və s. Türk Dil Qurumunda simptomları olan və ya daha mürəkkəb fizioloji dəyişikliklərlə özünü göstərən duyğu olaraq təyin olunur. Bu tərifə baxdığınız zaman yaxşı və pisi görə biləcəyimiz bir nümunədir. Öz tərəfimdən qorxunu öyrənməyimi sürətləndirən amil kimi də görürəm. Paradiqmamızda (zehin xəritəsi) hadisələr qarşısında öyrəndiyimiz davranışlara cavab veririk. Məsələn, itin adı çəkiləndə bəziləri qara, iti dişli, hırıldayan, aqressiv məxluq kimi cavab verir, digərləri isə şirin, mehriban, sadiq, tüklü məxluq kimi cavab verir. Odur ki, ən sadə mənada hadisələrə reaksiyamızın mənşəyini ilk öyrəndiyimiz dövrə qayıtmalı və bu qorxu ilə üzləşməliyik. Bu zaman qorxunun səbəbi hadisənin özü deyil. Hadisənin baş verməsi isə həmin şəxsin etdiyi şərhlərdən qaynaqlanır.Təbii ki, hər qorxu bu qədər məsum olmaya bilər. Ona görə də qorxularımızın öhdəsindən gələ bilmədiyimiz hallarda həyatımızda olan bir çox psixoloji pozğunluqlarla yanaşı qorxuların da müalicəsi var. Bunlar psixoterapiya üsulları, dərman müalicəsi üsulları və qorxunu müalicə etmək üçün stress idarə üsullarıdır.

**- Peşman olmamaq üçün həmişə bütün hərəkətlərimizi çərçivəyə salmalıyıq?**

- Əslində təəssüf hissi səmimi bir hissdir. İnsanı insan edən ən mühüm hisslərdən biri peşmançılıq hissidir. Şəxsiyyətində bu hissi yaşayan, səhv etdikdə peşman olmağı bilən və səhvini peşmançılıq hissi ilə ifadə edə bilən insanlar daha səmimi insanlardır. Təbii ki, söhbət eyni səhvə görə dəfələrlə peşman olmaqdan getmir. İnsan səhv edə bilən varlıqdır. Önəmli olan odur ki, bu səhvdən sonra özünə, sonra da ətrafına yaratdığı təsirdən peşman olursa, ona insan deyirik.

Əvvəla, peşman olmaqdan qorxmayın, peşmanlığınızdan müsbət mənada istifadə edin. Yeni bir davranış öyrəndiniz. İnandığınız şeyi etməkdən qorxmayın. Risk götürdüyünüz zaman edə biləcəyiniz ən yaxşı şeyi düşünün. Bu mənim ən dəyərli nailiyyətimdir. Qəzəblənmək əvəzinə özünüzü və sizə peşman olanları bağışlayın. Peşmanlıqlara diqqət yetirməməyə çalışın. Bunu etməsəniz üzərinizə böyük bir yük qoyulacaq və bu yük sizi daim narahat və bədbəxt edəcək. Bağışlayın və üzr istəyin. Uğursuzluğunuza fokuslanmaqdansa, məqsədinizə başqa yolla çatmağa çalışın, başqa yollar sınayın.Özünüzə, keçmişinizə və gələcəyinizə nəzər salın. Keçmişdə ən çox etdiyinizi etmədiyiniz üçün peşman olub-olmayacağınızı özünüzdən soruşun. Son illərdə nə çatışmadı? Nə var nə yox? Məsələn... Peşman olmamaq və çatışmazlıqlarınızı tamamlamaq üçün tədbir alın. Məsələn; Gələn il peşmanlıqlarınızdan hansına dözmək istəmədiyinizə qərar verin. Daha əvvəl dediyim kimi, yeni bir şey öyrənməliyəm. Peşmanlıqlarına diqqət yetirən bədbəxt insanlar qarşılarına çıxan fürsətləri əldən verirlər. Unutmayın: cəhd etməməkdən daha çox cəhd etdiyinizə peşman olacaqsınız.

**- Yazmağa gələndə, bildiyimə görə, çoxlu kitablar yazmısınız, hansı mövzuda yazırsınız? Xaricdə kitablarınızın oxucu kütləsi necədir?**

- Mənim çap olunmuş kitabım var, üçüncü nəşridir. Amma təlimlə bağlı modullar kimi müəyyən etdiyimiz Elektron Kitabların sayı 100-ü keçib. Bundan başqa bir çox jurnal və internet saytlarında dərc olunmuş yüzlərlə məqalə və məqalələrimiz var. Yazı mövzuları insan, xəyallar, məqsədlər, peşəkarlaşma, emosiya və idarəetmə bacarıqları, ünsiyyət, öyrənmə, beyin, öyrənmə və s. məsələlər üzrə. İnternetdə xarici auditoriyamıza nəzər saldıqda, xüsusən Azərbaycan, KKTC, Almaniya, Hollandiya, Toronto, Norveç kimi türklərin cəmləşdiyi bölgələrdə oxuma və izləmə baxımından bir milyonu keçdiyini söyləyə bilərik.

Azərbaycan sevdiyim və ikinci vətənim deyə biləcəyim qədər dəyərli hiss etdiyim yerdir. Bundan əvvəl iki dəfə Bakıda uzun müddət qalmışam. Orada məşq etdim. Onlayn təlimlərimlə Azərbaycanda əlaqələrimiz davam edir. Gələcək bir plan deyirsinizsə, bəli, şərtlər yerinə yetirildiyi müddətcə hər zaman bir plan var. Əminliklə deyə bilərəm ki, Azərbaycan mənim ən çox həzz aldığım yerdir.

**- Uzun sürən pandemiyadan sağ çıxmağımız təxminən 2 il olacaq. Karantin günlərindən keçdik. İnsanlarda hansı problemlər yaranıb?**

- Deyəsən, pandemiyadan hələ çıxmamışıq və bu vəziyyəti uzun müddət yaşamağa davam edəcəyik. Bu pandemiya niyə baş verdi? Əsas sual budur. Bu, insanların amansız rəqabət kimi yaratdığı dünya düzənində çevrilmənin tətikçisi oldu. Təbiətə meydan oxuya bilməzsiniz. Təbiətin tarazlığını qorumaq üçün tarazlığınızı pozur və birtəhər sizi yaxşıya və ya pisə çevirir. Tarixə nəzər saldıqda biz müəyyən əsrlərdə istər müharibələr, istərsə də epidemiyalar yolu ilə çevrilmələr yaşadıq. Hazırda yaşadığımız yer budur. İstənməyən ölümlər, bir çox müharibələrdən daha böyük itkilər. Sağlamlığa, təhsilə və iqtisadiyyata ən böyük ziyan... Bəs o, nə öyrətdi? Bu mənə ailə bağlarının nə qədər vacib olduğunu xatırlatdı. Sağlamlığın iqtisadi qazancdan daha önəmli olduğunu xatırladan və təmizliyin vacibliyini... Şərtlərdən asılı olmayaraq təhsilin davam etməsi lazım olduğunu xatırladan çox vacibdir! Rəqəmsallaşan dünyada yenilənməyimiz lazım olduğunu öyrəndik. Yenilənirsənsə, yenilənirsən! Yeni ehtiyacların yaranmasına baxmayaraq, biz hər sahədə yeni üsullar işləyib hazırlamışıq. Qısacası, öyrənmənin ömür boyu davam etməsi lazım olduğunu xatırlatdığımız bir dövrdən keçirik. Çox itkilərimiz olsa da, böyük qazanclar da əldə olundu.

**- Biz qardaş ölkəyik və bu qardaşlıq öz mahiyyətini daha 1-ci Qarabağ müharibəsində göstərdi. İnsanlar niyə döyüşür? Müharibə ilə maraqlanan insanlarla seminar keçib, fikirlərini yönləndirmək yaxşı olmazmı?**

- Biz iki dövlət, bir millət şüuru ilə əlaqələrimizi gücləndiririk. Bu coğrafiya çox amansızlıqlar yaşayıb, əziyyət çəkib. Odur ki, biz tarix şüurunda olanlar əlaqələrimizi əvvəlkindən daha möhkəm səmimiyyət və əqidə ilə gücləndirməliyik. İndi bunun şüurunda olmağımızın ən böyük sübutu II. Qarabağ müharibəsi. Şəhidlərimizin ruhu şad, məkanları cənnət olsun, inşaAllah.

İnsanlar və ya millətlər, bir sözlə, dövlətlər... Onlar daha böyük pay və söz sahibi olmaq istədikləri üçün mübarizə aparırlar. Biz onlar haqqında tarixin dərin səhifələrində yaşamış və oxumuşuq və indi bütün xalqların müstəqilliyi, demək olar ki, çoxu öz sərhədlərini qoyub, az bir qismi isə onu müəyyən etmək üçün mübarizəni davam etdirir. Bu gün müharibələrin niyə baş verdiyini daha yaxşı anlaya bilərik. Coğrafiyamız çox dəyərlidir. Yeraltı sərvətlərinə və strateji mövqelərinə görə çox qiymətlidir! Türklərin güclü olması yüz illər heç bir xalqa yaramadı. Bu və ya digər səbəbdən bu coğrafiyalarda rahat olmamağımız üçün əllərindən gələni edəcəklər. Əsas odur ki, xəbərdar olmalıyıq. Biz buna sahib olmalıyıq. Texnologiya, müdafiə, elm, təhsil, iqtisadiyyat və səhiyyə kimi bir çox sahədə asılılıqdan qurtulmalı və öz həll yollarımızı yaratmalıyıq. Doğrudan da, hazırda biz bunu yaşayırıq.

**- Bildiyimə görə sizin də saytınız var, hansı işlə məşğulsunuz? Sonda oxucularımıza nə demək istərdiniz?**

- Sosial medianın hər sahəsində varıq. Onlar dünyanınmutluinsani uzantısı ilə istənilən yerdən bizi tapıb əlaqə saxlaya bilərlər.

**Söhbətləşdi:**
**Şəlalə Camal**
**(AJB-nin üzvü)**

# *Anamın şikəstələri*



**Bizim nəsildə ulu babamdan tutmuş hazırki kiçik yaşlılara kimi hamı qələm əhlidir. Hər kəs peşə mənsubiyyətindən asılı olmayaraq yazıb-yaratmaqla məşğuldur. Mərhum anam Firuzə Mirzəqızı da şeirə, sözə bağlı adam idi.**

Onun bədahətən dediyi təsirli bayatı və şikəstələr kənd sakinləri arasında geniş yayılmışdır. Birinci Qarabağ müharibəsində dayım Məhəmmədin şəhid olan oğlu Əlfinin ölüm xəbərini eşidən anamın söylədiyi şikəstələr məşhurdur. Analarımızın qəlbindən süzülən belə nümunələr zaman keçdikcə dildən dilə ötürülür, bəzən müəllifləri unudulur, el bayatıları kimi yaddaşlarda qalır. İstədim ki, anamdan eşitdiyim həmin nümunələri oxucularımıza təqdim edim.

***Mən aşiq, kaman ağlar,***
***Tar ağlar, kaman ağlar.***
***Qardaş balası ölən -***
***Ağlayar, yaman ağlar.***

***Oxun yaydı, kirişdi,***
***Bəxtin daşa ilişdi.***
***Qurbanın bağlı qaldı,***
***Dərdin cana sirişdi.***

***Qardaşımın parçası,***
***Köçüb ciyərparası.***
***Zaman tez gəlib ötsün,***
***Qaysaq tutsun yarası...***

***Nə şirindir gözaltın,***
***Baxışınla söz aldın.***
***Vaxtsız köçdün dünyadan,***
***Bizə dərddi gözaltın...***

***Gülərdim, ağlamazdım,***
***Heç qara bağlamazdım.***
***Atan yara bağlasa -***
***Mən səni ağlamazdım.***

**Adil MİSİRLİ**

# *Layihə uğurla həyata keçirildi*



**Sosial İqtisadi Araşdırmalar İctimai Birliyi " Milli- mənəvi dəyərlərin qorunması və yaşadılması " adlı layihəni uğurla həyata keçirmişdir. Layihə çərçivəsində (atribut.info.az ) saytı yaradılmışdır.Layihə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyilə həyata keçrilib. İB-nin sədri Fərqanə Əliyeva bildirib ki, Layihənin məqsədi Milli dəyərlərimizin qorunması yaşadılması və ətraflı şəkildə yeniyetmə gənclər arasında təbliğ etməkdən ibarətdir. Millətləri yaşadan milli-mənəvi dəyərlərdir. Bu dəyərlər xalqların birlik və ictimai həmrəylik içində yaşamasına, tarix səhnəsində öz yerini tutmasına şərait yaradır. Millətlər bu dəyərləri gələcək nəsillərə ötürdükləri qədər varlıqlarını qoruyub saxlayırlar.**

Tarix səhnəsində ən uzun müddət qalan xalqlar, şübhəsiz ki, milli-mənəvi dəyərləri özündə cəmləşdirə bilən dövlətlər olub. Öz milli-mənəvi və əxlaq dəyərlərinə sadiq fərdlər yetişdirən cəmiyyətlərin dövrün tələb etdiyi inkişaflara biganə qalmaması üçün heç bir səbəb yoxdur.

Dil, din, tarix, adət və ənənələr, ailə institutu, müqəddəs zaman və məkanlar, bayraq, Vətən, Dövlət Himni kimi milli-mənəvi dəyərlərin formalaşdırdığı mədəniyyətin formalaşmasına diqqət yetirildikdə, bu dəyərlər ayrılmaz və bir-biri ilə iç-içə və bir-birini tamamlayır.

Mədəniyyətimiz dinimizin gözəl prinsipləri ilə yoğrulmuşdur. İctimai həyatımızın ahəngdar və möhkəm şəkildə davam etdirilməsində, gənclərimizin yetişdirilməsində mənəvi dəyərlərimizin, milli mədəniyyətimizin böyük töhfələri unudulmamalıdır.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 73
Çapa imzalanmışdır: 08.04.2022